Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 1 (6094) 10 yanvar 2025-ci il | Qiyməti 40 qəpik

# "Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır"



Amerikada da Soros dövrü başa çatıb. Bayden administrasiyası, əslində, Soros idarə üsulu ilə idarə olunurdu.

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirib.

Sorosçuların faktiki olaraq mövqelərini itirdiklərini vurğulayan dövlətimizin başçısı deyib ki, Ermənistan rəhbərliyi bunu nəzərə almalıdır. "Nəzərə alsın ki, Yaxın Şərqdə onların yaxın müttəfiqi Əsəd diktaturası artıq tarixin zibilliyinə göndərilib və bu, davam edəcək, ona görə düzgün addım atsın. Biz Azərbaycan olaraq onlar üçün təhlükə mənbəyi deyilik. Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır", - Prezident əlavə edib.

## PREZİDENTİN İRANLA BAĞLI SƏRT ÇIXIŞINDAN SONRA



dərhal İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədian uçub gəlib Bakıya, prezident İlham Əliyevlə görüşüb və uzun bir dostluq nəğmələri oxuyub.

Burdan da gedib İrəvana ki, ermənilərin başına ağıl qoysun.

## DƏLİXANADI EY!



Şimali Koreyanın adı dilimə yatmayan prezidenti fərman verib ki, bu gündən ölkədə boşanmaq qadağan edilir.

Və hətta evində Avropa yeməkləri bişirən və yeyənlər cəzalandırılacaq.

Bu prezidentin də cəzasını bilirsiz də, öz doğma dayısını topun ağzına bağlayıb atdırmışdı.

## AFFA XALQIMIZI NECƏ SEVİNDİRDİ

*2025-ci ilin ən sevincli hadisəsi o oldu ki, Santuş milli komandamızın baş məşqçisi olaraq qaldı. Xalqımıza bu yaxşılığı eləyən və sevindirən AFFA-nın rəhbərliyini ürəkdən təbrik edir, onlara uzun ömür, can sağlığı və milli komandanı tamamilə məhv eləməkləri üçün uğurlar arzulayırıq.*

AQİL ABBAS

## BURNUMUN UCUNU GÖYNƏDƏN GÜNLƏR

**Dostum Elməddin Sərdara**

(Ağdamlıların oxuması qəti qadağandır)

Bax:səh-9





Şarl Mişel:

- Avropa soyuqdan donur, cənablar, soyuqdan donur.

Putin:

- Hə, hə, get ağla.



**BU DƏFƏ DƏMİR YUMRUQ DEYƏSƏN, İRƏVANIN BAŞINDA ÇATLAYACAQ.**

## JUNİNYO, SƏN HƏZRƏT ABBAS, TEZ GET



**Onsuz da tay Qarabağa lazım deyilsən. Bu mövsüm gedəcəyini bildiyinə görə oynamırdın, "saçkavatlıq" eləyirdin. Bu gedişlə bilmədən özünü formadan saldın. Gedəcəyin yerdə formanı necə yığacaqsan, bilmirəm.**

Səni Tərlan edən Qurban Qurbanovuydu. İnanmıram Braziliyada Tərlan olasan, olsa-olsa sığırçın olarsan.

Yaxşı yol, yolun açıq olsun. Hansı kluba keçəcəksənsə keç, amma tay zəhləmizi tökmə.

Qurban Qurbanov sənin yerinə kimi gətirsə qısa müddətdə onu da Tərlan edəcək.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## TER-PETROSYAN: "ETO MEDİSİNSKİY FAKT"



*Ermənistanın sabiq prezidenti Ter-Petrosyanın 1993-cü ildə söylədiyi fikirlər hamını təəccübləndirib. O deyib ki, 600 illik mübarizədən sonra axır ki, biz qalib gəldik və bütün azərbaycanlıları Ermənistan torpaqlarından qovduq.*

*Amma burda təəccüblənəsi bir şey yoxdur. Helm sübut edir ki, ermənilər dünyanın ən qədim millətidir. İsa peyğəmbərin anası Həzrət Məryəm də ermənidir. Hətta "İncil"in ilkin variantında İsa peyğəmbərin erməni kökənli olduğu yazılıbmış. Sonra Matvey "İncil"i yazarkən paxıllıqdan bu faktı gizlədib. Ondan sonra Matveyə istinadən "İncil"in üzünü köçürənlər də bunu bilməyiblər. İngiltərənin arxivlərində Həzrət Məryəmin erməni olduğu haqqında məlumat var, amma onu üzə çıxarmırlar.*

*Ter-Petrosyanın dediyi kimi, 600 il əvvəl, 1453-cü ildə Konstantinopolu fəth edənlər də ermənilər olublar. Sonradan Fateh Sultan Mehmed bunu öz adına çıxıb.*

Bax:səh-2

## SUREN ARVADININ FAHİŞƏ OLDUĞUNU NİYƏ TUTA BİLMƏDİ?!

**Hərbi təyyarəçi Suren həmkarı Levona deyir:**

**- Dostum, ürəyimə damıb ki, mən havada olarkən bizim Marqarita mənə xəyanət edir, amma tuta bilmirəm.**

Levon:

**- Sən ki texniksən, çarpayını elə düzəlt ki, iki nəfər yatanda evinin üstündə işıq yansın. Sən də göyə uçandan sonra qayıt qaradokun üstündən bir dəfə fırlan, görsən işıq yanır, deməli, Marqarita sənə xəyanət edir.**

Suren onun dediyi kimi edir. Və bir gecə qəfildən həyəcan siqnalı verilir, bütün təyyarələr havaya qalxır. Suren hərlənib "qaradok"un üstündən görür ki, bütün evlərin üstündə qırmızı işıq yanır.

# Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə zəng edib



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yanvarın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlər, regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə ”Bir millət, iki dövlət” prinsipi əsasında inkişaf edəcəyini vurğulayıb. Türkiyə Prezidenti ölkəsinin Cənubi Qafqaz regionunda davamlı sülhün əldə edilməsinə tam dəstək göstərdiyini deyərək, hər zaman Azərbaycanın yanında olmağa davam edəcəyini bildirib.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycan-Türkiyə qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin ”Bir millət, iki dövlət” prinsipi ilə inkişaf etdiyini deyib, ölkələrimizin hər zaman bir-birinin yanında olduqlarını vurğulayıb.

Telefon söhbəti zamanı 2025-ci ildə iki qardaş ölkə arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Həmçinin dövlət başçıları təmasların davam etdirilməsi məsələsini qeyd ediblər.

# BMT Prezident İlham Əliyevin müraciətini rəsmi sənəd kimi yayıb

**Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 5-6 dekabr 2024-cü il tarixlərində Bakı şəhərində ”Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda keçirilmiş ikinci beynəlxalq konfransın iştirakçılarına müraciətini və konfransın yekun sənədini BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədləri kimi yayıb.**

Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda bildirilib.

”Qərbi azərbaycanlıların öz doğma torpaqlarına geri qayıdışı ilə bağlı məsələni hər zaman diqqətdə saxlayan Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan mövzusunun beynəlxalq gündəlikdə profilinin artması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Eyni şəkildə, konfransın yekun sənədinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan İcmasının mötəbər qurum kimi beynəlxalq aləmdə qəbul edilməsi və konfransın nəticələrinin beynəlxalq aləmə çatdırılması baxımından effektiv addım olmuşdur. Bu sənədlərin yayılması, sözügedən illik beynəlxalq konfransın qayıdış hüququ və ümumiyyətlə, beynəlxalq humanitar hüquq sahəsində beynəlxalq aləmdə ən mühüm platformalardan biri kimi qəbul edilməsinə böyük töhfə verir.

Xatırladaq ki, sözügedən sənədlərin yayılması ilə İcmanın təşəbbüsü ilə BMT-nin rəsmi sənədləri kimi yayımlanmış sənədlərin sayı ona çatmışdır.

Qərbi Azərbaycan İcması sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdış məsələsini beynəlxalq qurumların gündəliyinə təqdim etməkdə davam edəcək. İcma bir daha Ermənistan hökumətini sələflərinin başlatdığı irqi ayrı-seçkilik siyasətindən əl çəkməyə, beynəlxalq hüquq çərçivəsində öhdəliklərini yerinə yetirməyə, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağa və bu məqsədlə Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağa çağırır”, - bəyanatda qeyd edilib.

# İlham Əliyev: "Azərbaycan öz mövqeyini müdafiə edəcək"

**Azərbaycan Respublikasının ptezidenti İlham Əliyev, yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində, ötən ili də, iqtisadi inkişaf baxımından uğurlu il adlandırıb.**

”Hesab edirəm ki, inkişaf templəri, bugünki dünyanın mənzərəsinə nəzər salsaq, müsbət sayıla bilər. Yəni ümumi daxili məhsul 4 faizdən çox artmışdır... Bizim üçün qeyri-neft sektorunun inkişafıdır. Son vaxtlar neft hasilatında tənəzzüllə üzləşmişdik... Artıq bu tənəzzülə son qoyulacaq və neft hasilatı stabil qalacaq. Neft hasilatı ümumi iqtisadi göstəricilərə təsir göstərməyəcək”...

Prezident İlham Əliyev, ölkəmizin maliyyə vəziyyətinə aydınlıq gətirərək bildirdi ki, keçən il maliyyə vəziyyətimizi böyük dərəcədə yaxşılaşdıra, rezervlərimizi artıra bilmişik. ”Baxmayaraq ki, keçən ilin büdcəsi rekord səviyyədə idi və çox sosial proqramlar icra edildi, o cümlədən Qarabağın bərpası ilə bağlı böyük vəsait sərf olundu. Buna baxmayaraq biz optimallaşdırmanı elə təşkil etmişdik ki, valyuta ehtiyatlarımız daha da artdı... İl ərzində valyuta ehtiyatlarımız 5 milyard dollardan çox artıb və bu gün bu rəqəm 72 milyard dollara bərabərdir. Əhalisi 10 milyon olan ölkə üçün bu, çox böyük rəqəmdir”.

Cənab Prezident, ikinci vacib məsələyə də toxunaraq bildirdi ki, ümumi daxili məhsulun xarici borca olan nisbəti 7.2 faizə bərabərdir. ”Müqayisə üçün deyə bilərəm ki, əksər inkişaf etmiş ölkələrdə bu, 100 faizdən də çoxdur”...

İlham Əliyev noyabr ayında ölkəmizdə keçirilən COP29 tədbirlərinin uğurlarından danışdı və bildirdi ki, bizim üçün COP29 böyük bir çağırış və böyük imkan idi. Bizim vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi... COP29-u siyasi motivlər səbəbindən baykot etmək istəyən cəhdlər var idi. ”Hesab edirəm ki, bu tədbirə ev sahibliyi etmiş heç bir ölkə bu dərəcədə müqavimətə rast gəlməmişdi. Xüsusiylə Fransa əlindən gələni edirdi ki, tədbiri gözdən salsın. Həmkarlarımdan aldığım məlumatlara görə, Fransa prezidenti şəxsən onlara zəng edərək Bakıya getməməyi tövsiyə edirmiş... Səksən dövlət və hökumət başçısı Bakıta səfərə gəldi və bu bir daha Azərbaycanın etibarlı tərəfdaş olduğunu nümayiş etdirdi”. Prezident İlham Əliyev, Azərbaycanın D-8- ə üzv qəbul olunmasını ölkəmizin bir daha nüfuzunun göstəricisi olduğunu vurğuladı. Yarandığı 30 il ərzində ilk dəfə olaraq Azərbaycanın bu təşkilata üzv qəbul edilməsini diqqətə çatdırdı. ”Müsəlman ölkələrinin ümumi daxili məhsulunu götürsək, bu, 5 trilyon dollardan çoxdur... Bu təşkilara üzv olmaq, bizim üçün həm böyük şərəfdir, həm fə böyük məsuliyyətdir”... 30 ilə yaxın işğal altında qslan torpaqlarımızın 44 gün ərzində işğaldan azad olunmasından ötən 4 ildən artıq vaxt keçib. Lakin, Qərb qonşumuz, Ermənistanda yenidən revanşizm meylləri baş qaldırması müşayət olunur.

Bu məsələyə münasibət bildirən Azərbaycan Respublikasının Prezidenti bildirdi ki, ikinci Qarabağ müharibəsinin və antiterror əməliyyatlarının nəticələri Ermənistan tərəfindən ciddi qəbul edilməlidir. ”Ermənistanda gedən silahlanma prossesi əlbətdə ki, Cənubi Qafqaz üçün yeni təhdid amilidir. Mən bunu eyni zamanda, Ermənistan rəhbərliyinə də dəfələrlə bildirmişdim ki, bu yeni təhlükə yarada bilər”.

Əslində cənab İlham Əliyevin də, qeyd etdiyi kimi, Ermənistanı təxribatlara sürüyən Fransa kimi dövlətlərin sona qədər onların arxasında durmayacağı gün kimi aydındır.

Necə ki, yavaş-yavaş Ukraynanın arxasından qaçmağa çalışırlar. ”Biz təbii ki, bütün baş verənlərə sadəcə müşahidəçi kimi baxıb, heç nə etməyə bilmərik... Ermənistan silahlanma yarışında bizimlə rəqabət apara bilməz... Biz ikitərəfli danışıqlar formatının tərəfdarlarıyıq və əlbətdə ki, Azərbaycan öz mövqeyini müdafiə edəcək”- deyə İlham Əliyev bəyan etdi. Azərbaycan Respublikasının prezidenti jurnalistlərin suallarlnı cavablandırarkən, qoşu İranla münasibətlərə də aydınlıq gətirib. Prezident həm, ikinci Qarabağ müharibəsi dövründə, həm də müharibədən sonrakı dövrlərdə İranın Azərbaycana qarşı tutduğu möqeyi barədə geniş məlumat verib. Son günlər bir mollanın Azərbaycan və Türkiyəyə qarşı təxribat xarakterli təhqiramiz çıxışına münasubət bildirən Prezident bildirdi ki, ”O ki qaldı, bir əyalət mollasının bizə qarşı nifrət münasibətinə, bu birinci dəfə deyil. Ərdəbil şəhərinin o mollası dəfələrlə Azərbaycana, Azərbaycan xalqına qarşı təhqiramiz ifadələr işlədib, o cümlədən mənə qarşı. Burada sual ondan ibarətdir ki, onu o vəzifəyə təyin edən adam buna necə münasibət göstərir... Biz hesab edirik ki, əyalət mollası cəzalandırılmalıdır”.

Ölkə başçlmız, yeni dünya nizamının formalsşmasının başlanğıcında olduğunu vurğuladı. ”Əslində, biz bu prossesin fəal iştirakçısı olmalıyıq. Sadəcə olaraq, burada yeni nizamın necə olacağını gözləməməliyik. Biz öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tədbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbətdə ki, məsuliyyət nöqteyi cəhətdən də xüsusi çəkiyə malikdir”...

**“Ədalət” qəzeti**

*AQİL ABBAS*

# TER-PETROSYAN: "ETO MEDİSİNSKİY FAKT"

*Ermənistanın sabiq prezidenti Ter-Petrosyanın 1993-cü ildə söylədiyi fikirlər hamını təəccübləndirib. O deyib ki, 600 illik mübarizədən sonra axır ki, biz qalib gəldik və bütün azərbaycanlıları Ermənistan torpaqlarından qovduq.*

*Amma burda təəccüblənəsi bir şey yoxdur. Helm sübut edir ki, ermənilər dünyanın ən qədim millətidir. İsa peyğəmbərin anası Həzrət Məryəm də ermənidir. Hətta "İncil"in ilkin variantında İsa peyğəmbərin erməni kökənli olduğu yazılıbmış. Sonra Matvey "İncil"i yazarkən paxıllıqdan bu faktı gizlədib. Ondan sonra Matveyə istinadən "İncil"in üzünü köçürənlər də bunu bilməyiblər. İngiltərənin arxivlərində Həzrət Məryəmin erməni olduğu haqqında məlumat var, amma onu üzə çıxarmırlar.*



*Ter-Petrosyanın dediyi kimi, 600 il əvvəl, 1453-cü ildə Konstantinopolu fəth edənlər də ermənilər olublar. Sonradan Fateh Sultan Mehmed bunu öz adına çıxıb.*

*Amerikanı kəşf edən Kolumbun ulu nənəsi Şarl Aznavurun ulu nənəsi kimi erməni olub. Ona görə də yerli əhali olan hinduları azərbaycanlılar kimi qətlə yetiriblər ki, bu torpaqlar bizimdir.*

*Bir başqa məlumata görə, Qüdsü fəth edən Səlahəddin Əyyubinin də həm öz anası, həm də atasının anası erməni qızıymış.*

*Məşhur rus çarı Pyotrun da anası tərtəmiz erməni qızıdı. Yəni Rusiya imperiyasını yaradan da ermənilər olub. Ona görə Vətən müharibəsində Ermənistana kömək etmədikləri üçün indi Rusiyaya şıllaq atırlar.*

*Makron "çistı krovnı" ermənidi. Ermənilər vaxtilə bu erməni dığasının adını dəyişib Emanuel qoyaraq casus kimi yetişdiriblər və sonra da Fransanın prezidenti seçiblər.*

*Ona görə də Makron erməniləri belə sevir. Fikir versəniz Makronun arvadı da elə erməni harsınına oxşayır.*

*Atillanın arvadı da erməni olub. Eto medisinskiy fakt.*

*Alimlər sübut edir ki, hətta Makedoniyalı İsgəndərin anası erməni olub. Ona görə də ərinin ölümündə iştirak edib ki, oğlu çarlıq taxtında otursun. Sonra da gəlib İran şahı Daranın erməni kökənli qızını alıb.*

*Bir sözlə, erməni qızları paylaya-paylaya bütün məşhur şəxsiyyətləri özləri doğub. Eləcə də bəzi türk sultanlarına da paylayıblar. Həmçinin ağdamlı cayıllara da paylayıblar, sonra onlardan doğduqları uşaqlar Ağdamda daşı daş üstə qoymayıblar.*

*Bütün bu faktlar göstərir ki, Ter-Petrosyanın dedikləri həqiqətdir. Təkrar edirik, Ostap Bender demiş, eto medisinskiy fakt.*

*Erməni alimləri bir az da bərk dayansalar Boqun da erməni olduğunu sübut edə bilərlər. Bizlə düşmənçilikləri isə ondan başlayır ki, Əslini Kərəmə vermədilər və Kərəm də od tutub yandı, ona görə də bizdə onlara qarşı bir nifrət hissi oyandı. Məhz buna görə də Andronikin qulağını kəsdik, onlar da qaldı yana-yana.*

*Və lap axırda. Yalançının, eləcə də Ter-Petrosyanın anasının goruna itin .....*

# *Tramp Kanadaya ABŞ-ın 51-ci ştatı olmağı təklif edib*



**Kanadanın baş naziri Castin Tryudonun istefaya getmək istədiyini bəyən etməsindən sonra, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp, ”Trunth Social ” sosial şəbəkəsində, Kanadaya Birləşmiş Ştatların 51-ci ştatı olmağı təklif edib.**

”ABŞ bundan sonra, Kanadanı üzdə saxlamaq üçün, külli miqdarda ticarət defisitini və subsidiyalarını qarşılamaq fikirində deyil”- deyə Tramp yazıb.

Tramp hesab edir ki, iki ölkənin birləşdirilməsi ticarət tariflərini aradan qaldırar, vergi yükünü azaldar və Kanadaya ”onları daima nəzarətdə saxlayan Rusiya və Çin gəmilərindən gələ biləcək təhlükədən qorumaq imkanları yaradar”. Bu da belə... Trampda deyəsən ABŞ -ın ərazilərini genişləndirmək arzusundadır.

**Rüstəm Hacıyev**

# Artımlar nə zaman ödəniləcək? - Dəqiq tarixlər və məbləğlər

**2025-ci ilin sosial paketinin icrasına start verilib. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamına uyğun olaraq bu aydan bir sıra artımlar qüvvəyə minib.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin deputatı Vüqar Bayramov özünün "Facebook" hesabında yazıb.

Deputat nəzərə çatdırıb ki, Azərbaycanda 3 milyon vətəndaşımızı əhatə edəcək sosial paketinin əsas elementlərindən biri də məhz maaş artımlarıdır ki, Azərbaycan Prezidentinin imzaladığı sərəncama uyğun olaraq bu aydan ölkədə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata çatdırılıb. Bu o deməkdir, bu aydan etibarən həm dövlət, həm də özəl sektorda 400 manatdan az maaş vermək mümkün olmayacaq. Yəni, minimum əmək haqqı alan vətəndaşlarımız yanvar ayı üçün maaşlarını 16 faiz artımla alacaqlar:

"Minimum əmək haqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək. Belə ki, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da təxminən bir ay müddətində bu Sərəncama uyğunlaşdırılacaq və artırılacaq. Sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin də əmək haqqları artacaq. Bu artımlar isə Nazirlər Kabineti tərəfindən qərar imzalandıqdan sonra ödəniləcək"

V.Bayramov qeyd edib ki, mövcud qanunvericiliyə əsasən, pensiyalar hər il yanvar ayında əvvəlki ildə orta aylıq əmək haqqında artım faizinə uyğun olaraq indeksasiya olunaraq artırılır. Hələlik dəqiq artım faizi bəlli olmasa da artımlar məhz bu aydan hesablanır. 2024-cü ilin ilk 10 ayının yekunlarına əsasən,



ölkə üzrə orta aylıq əmək haqqı təxminən 8 faiz artıb. Dəqiq rəsmi göstərici isə gələn ayın əvvəllərində elan ediləcək:

"Artımlar yanvar ayından hesablandığı üçün artımların nə zaman ödəniləcəyi ilə bağlı suallar ünvanlanmaqdadır. Qeyd edək ki, 2024-cü ildə orta aylıq əmək haqqında artımla bağlı rəsmi statistika fevral ayının ilk 10 günündə bəlli olduğu üçün indeksasiya da məhz o zaman aparılacaq. Pensiya artımları yanvarın 1-dən hesablanır, amma artımlar fevral ayında ikisi birlikdə ödəniləcək. Deməli, pensiyaçılar artımları gələn aydan etibarən alacaqlar. Amma yanvar ayı üçün hesablanmış artım da fevral ayının pensiya məbləğinə əlavə olunacaq.

Qeyd edək ki, indeksləşdirmə bütün növ əmək pensiyalarına şamil olunur. "Əmək pensiyaları haqqında" qanunun 4-cü maddəsinə əsasən, əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyasıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq əmək pensiyası alırsa onun pensiya məbləğinə artım hesablanacaq.

Minimum pensiya məbləğisə gələn aydan 280 manatdan 320 manata çatdırılacaq. Bu o deməkdir ki, minimum pensiya alanlar artıq gələn aydan artırılmış məbləği alacaqlar".

Azərbaycan Prezidentinin digər sərəncamı ilə isə bu aydan etibarən ehtiyac meyarının 285 manata çatdırıldığını deyən deputatın sözlərinə görə, ehtiyac meyarının artırılması ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşlarımızın aldığı yardım məbləğinin bu ildən artmasına səbəb olacaq. Bu 900 manat gəliri olan və 5 üzvü olan ailədə aylıq sosial yardım məbləğinin orta hesabla 450 manatdan 525 manatadək yüksəlməsi deməkdir:

"Artımların ödənilməsinə gəldikdə isə, yeni ehtiyac meyarı ünvanlı sosial yardım proqramı çərçivəsində yeni yardım almağa başlayanlara şamil olunacaq. Yəni, əgər vətəndaşın müraciətinə bu ay müsbət cavab verilib ona yardım ödənilməsi ilə bağlı qərar veriləcəksə o artırılmış məbləğ ilə yardımı bu aydan alacaq".

Vüqar Bayramov son olaraq bildirib ki, Azərbaycan Prezidentinin imzaladığı 23 dekabr 2024-cü il tarixli sənədə əsasən, Nazirlər Kabineti (NK) sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini üç ay müddətində dövlət başçısına təqdim etməlidir.

**"NK tərəfindən təkliflər təqdim olunduqdan sonra müavinət və təqaüdlərin artırılması ilə bağlı sənəd imzalancaq. Bununla da müavinət və təqaüdlərin artırılması həyata keçiriləcək",- deyə millət vəkili vurğulayıb.**

**Nicat Novruzoğlu**

# Poqosyandan Bəqainin "Zəngəzur dəhlizi" "termometr"nə reaksiya: "İran bizi Türkiyəyə dəyişsə..."

**Xəbər verdiyimiz kimi, İran XİN sözçüsü İsmayıl Bəqai açıqlaması Ermənistanda xüsusi təşvişə səbəb oldu. Beqai açıqlamasında bildirmişdi ki, Zəngəzur dəhlizinin açılmasını müzakirə etmək üçün İrandan Türkiyəyə nümayəndə heyətinin gedəcək. Məlumat yayılandan dərhal sonra İsmayıl Bəqai təkzib yaydı və ümumiyyətlə Zəngəzur barədə danışmadığını bildirdi. O, erməni qardaşlarının təşvişini sakitləşdirmək məqsədi ilə dedi ki, Türkiyə və İran sərhədində saxlanılan yük maşınları ilə bağlı İran nümayəndə heyəti Türkiyəyə gedir.**

Əlbəttə ki bu hal erməni politoloqlarının nəzərindən qaçmadı.

Xüsusən, revanşist düşüncələrə malik politoloq Ara Poqosyan məsələyə dərhal reaksiya verənlərdən oldu. O sosial şəbəkə hesabında paylaşım edərək fikirlərini yaydı:" İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin rəsmisindən "Zəngəzur dəhlizi" ilə bağlı Türkiyəyə nümayəndə heyəti göndərməyə hazırlaşdığı barədə məlumat yayıldı. Məlumat xüsusilə Azərbaycan KİV-ləri tərəfindən fəal şəkildə yayıldı. (Azərbaycanın KİV mənbə kimi "Etimad" və "Xəbəronlayn"a istinad edərək mə-



lumatı yayıb- red-Ə.R ) Bu xəbərdən sonra belə bir fikir formalaşdı ki, İran və Türkiyə bu məsələdə razılığa gələ bilərlər. Bundan əlavə, maraqlı olan o idi ki, yayılan məlumatda İran Xarici İşlər Nazirliyinin nümayəndəsi Bəqai iki ölkə arasında dəhliz məsələsinin "siyasi deyil, texniki məsələ olduğunu" bildirmişdi. Bu ifadənin özü suallar doğurdu, çünki İran üçün bu məsələ hətta siyasi kontekstdə yox, geosiyasi kontekstdə idi ki, bu da məsələnin vacibliyini vurğulayırdı.

Və bir az sonra İran KİV-i bununla bağlı izahat yaydı. "İran Xarici İşlər Nazirliyinin Zəngəzur dəhlizi ilə bağlı bəyanatı" başlığı ilə dərc olunan xəbər Daneşcu mediasının media hərəkəti olub və Xarici İşlər Nazirliyinin Zəngəzurla bağlı yeni mövqeyi yoxdur.

Təbii ki, bu, mühüm aydınlıqdır, xüsusən də bəyanatda Zəngəzur dəhlizi məsələsinə belə toxunulmadığına görə, daha çox Türkiyə yük maşınları üçün yanacaq məsələsinə toxunulmayıb ki, bu da İran tərəfinin fikrincə, siyasi deyil, texniki məsələdir. Bu, tamamilə məntiqlidir, lakin biz bilirik ki, siyasət çox vaxt dolayı hərəkətlər strategiyasına əsaslanır, xüsusən də İran məsələsində. İran mediasının bu "termometr"indən Ermənistan nə başa düşməlidir?

Hesab edirəm ki, bu, xüsusilə Ermənistana yönəlmiş informasiya texnikası idi. Ermənistan İranla Azərbaycanın tələblər paketi ilə bağlı mövqeyini və qırmızı xətlərini aydınlaşdırmalıdır. Xüsusilə Zəngəzur məsələsində Ermənistanda Azərbaycan və Türkiyə bizi fors-major vəziyyətlə qarşı-qarşıya qoyacağı təqdirdə İranla birgə fəaliyyət planı hazırlamalıdır.

Əks halda İran öz maraqları naminə Türkiyə və Azərbaycanla anlaşa bilər, belə olan halda dəhliz deyilən məsələ bizim şanssızlığımızdan həqiqətən də texniki probleme çevriləcək.

Mən qəti əminəm ki, bu ssenaridə nə Aİ, nə də ABŞ bizə kömək etməyəcək və KTMT Ermənistan üçün çoxdan mövcud deyil. Ermənistan tək qalacaq, ona görə də bu gün biz Zəngəzurun müdafiəsi ilə bağlı müttəfiqlər koalisiyasını formalaşdırmağa və yaratmağa borcluyuq.

Sabah çox gec olacaq, xüsusən də Türkiyə problemlərini həll etməyi bacaranda".

**Qeyd edək ki, İran Zəngəzurla bağlı bütün açıqlamalarda "Zəngəzur dəhlizi"ni özünün "qırmızı xətti" olduğunu deyib.**

**Əntiqə Rəşid**

## XİN:

# Mirzoyanın "Qərbi Azərbaycan İcması" ilə bağlı iddiaları tarixin saxtalaşdırılmasıdır

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın 8 yanvar 2025-ci il tarixli mətbuat konfransında "Qərbi Azərbaycan İcması" və ümumilikdə indiki Ermənistan ərazisindən azərbaycanlıların deportasiyası ilə bağlı səsləndirdiyi iddialar Ermənistan tərəfindən tarixin saxtalaşdırılmasıdır.**

Adalet.az xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tərəfindən mətbuat konfransı zamanı "Qərbi Azərbaycan İcması" ilə bağlı səsləndirilən iddialara dair şərhində deyib.

"Ermənilərin son iki yüz il ərzində kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqla-



rında sıxışdırılması tarixi faktdır. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib, 2000-dən çox toponimlərin adları dəyişdirilib.

Yalnız 1948-1953-cü illər ərzində 150 minə yaxın azərbaycanlı indiki Ermənistan ərazisində öz tarixi torpaqlarından kütləvi surətdə və zorakılıqla deportasiya olunub. Bununla yanaşı, 1987-1991-ci illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından növbəti deportasiyası baş verib, nəticədə 250 mindən artıq azərbaycanlı Ermənistandan qovulub. Bütün bunları sübut edən tarixi və hüquqi sənədlər mövcuddur.

Sonuncu deportasiya zamanı, guya azərbaycanlılara qarşı kompensasiya ödənildiyi, onların könüllü şəkildə əraziləri tərk etdikləri barədə Ermənistan xarici işlər nazirinin iddiaları da tamamilə əsassızdır.

Yalnız 1987-1991-ci illərdə etnik təmizləmə siyasətinin tərkib hissəsi kimi 216 nəfər azərbaycanlının qətlə yetirilməsi faktları bir daha sübut edir ki, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nə dərəcədə əzabla və qanla həyata keçirilib.

Qeyd edilənlər xüsusunda, Ermənistanın Azərbaycanın "Qərbi Azərbaycan İcması" ifadəsindən istifadə olunmasını "beynəlxalq hüquq pozuntusu", "ərazi iddiası" kimi təqdim etməsi riyakarlıqdır.

Ermənistan rəsmilərinin azərbaycanlıların öz torpaqlarına qayıdış hüququnu müxtəlif bəhanələrlə təkzib etməsi, Azərbaycan ərazilərini "erməniləşdirmək" və Azərbaycanlıların geri qayıdışına hər vəchlə mane olmaq məqsədinin açıq-aşkar nümunəsidir.

Azərbaycanlıların bölgədə mövcudluğunu problem kimi təqdim etmiş, azərbaycanlılara qarşı etnik təmizləməni və Azərbaycan ərazilərinin işğalını "600 illik problemin həlli" olduğunu bildirmiş keçmiş Ermənistan prezidenti Levon Ter-Petrosyanın və sonrakı digər erməni liderlərinin səsləndirdikləri fikirlər və yürütdükləri siyasət göstərib ki, irqçi-şovinist milli məfkurəsi hər zaman Ermənistanın ideoloji təməyülünü təşkil edib.

Qeyd edilənlərlə yanaşı, 2020-ci il müharibəsindən sonra Azərbaycanda silahlı qüvvələrini çıxarmaqdan imtina etmiş, erməni sakinlərin yerləşdiyi ərazilərdə hərbiləşmə siyasətini və qeyri-qanuni fəaliyyətini davam etdirmiş, erməni sakinlərin Azərbaycana reinteqrasiyası prosesinə mane olmuş Ermənistanın indi beynəlxalq hüquqdan danışması absurddur.

Ermənistan tərəfi indiki Ermənistan ərazisində öz doğma torpaqlarından zorla qovulmuş "Qərbi Azərbaycan İcmasının" nümayəndələrinin hüquqlarını tapdalamaq və onlarla dialoqun hər vəchlə qarşısını almaq əvəzinə, bu icmanın sülh yolu ilə, ləyaqətli və təhlükəsizlik şəraitində geri qayıdış məqsədli Ermənistanla dialoq çağırışlarına cavab verməlidir.

Ermənistanın "etnik uyğunsuzluq" konsepsiyasından və "etnik təmizləmə əsasında monoetnik dövlət titulu"ndan əl çəkib, dinc birgəyaşayışı seçdiyinin praktiki göstəricisi məhz "Qərbi Azərbaycan İcmasının" üzvlərinin öz tarixi torpaqlarına qayıtmasına şərait yaratmaqdan keçə bilər", - XİN rəsmisi bildirib.



Səxavət Məmməd

# Sərhəddən gələn SİLAH SƏSİ: "Azərbaycan qolunu versə..."

***Ermənistan ordusunun Azərbaycan mövqelərini atəşə tutması o qədər də təəccüblü hal sayılmamalıdır. Ermənistanla Azərbaycan arasında qısa zamanda sülh müqaviləsinin imzalanacağını da gözləmirəm.***

***Hətta ilkin sənəd imzalansa belə, bu daimi, əbədi olmayacaq. Bunun çox sadə səbəbi var: dünyada bütün münaqişə ocaqlarının alovlandığı bir zamanda böyük dövlətlərin marağı olan Cənubi Qafqaza sülh gələ bilməz.***

***Ermənistanın silahlanması məsələsi çox müzakirə olunur. Buna bir qədər də fərqli baxmaqda fayda var: Ermənistan nə qədər ki, de-yure müstəqildir, həmişə silahlandırılacaq, hərbi cəhətdən gücləndiriləcək, katalizator kimi istifadəyə hazır saxlanılacaq. Ermənistanın Rusiya ilə bir metr belə sərhədi olsaydı, Ermənistan bu qədər əhəmiyyətli olmazdı. Ona görə də Rusiya SSRİ dağılandan sonra Azərbaycan və Gürcüstandan hərbi bazalarının çıxarılmasına razı olsa da, Ermənistanla bağlı bu addımı atmadı.***

***Ermənistan kiçik dövlət olsa da, İran, Türkiyə, Azərbaycan və Gürcüstanla həmsərhəddir. Bu da Ermənistanı həm Rusiya, həm də Qərb üçün əhəmiyyətli edir. Qərb də Ermənistanda hərbi baxımdan güclənmək istəyir. Biz bu cümləni "Ermənistan silahlandırılır" kimi tərcümə edirik, ancaq reallıq odur ki, hərbi baxımdan İrəvanın gücləndirilməsi ona yardım edənlərin maraqlarına gözədir.***

***Məsələn, Gürcüstanın hərbi cəhətdən gücləndirilməsi heç kimə maraqlı deyil. Gürcüstana hərbi baxımdan yatırım edilməsi də region üçün heç nə vəd etmir. Ancaq Ermənistanın hərbi baxımdan gücləndirlməsi region üçün çox şey deyir.***

***Ermənistanın bu cür coğrafi mövqedə yerləşməsi onu deməyə əsas verir ki, rəsmi İrəvan heç vaxt de-fakto müstəqil ola bilməyəcək.***

***Rusiya hərbi bazalarının Ermənistandan çıxması ilə Ermənistanda Qərb hərbi bazalarının yerləşməsi bir olacaq. Bu, təkcə Azərbaycan üçün də deyil, burada İran və Türkiyə fakorunu da unutmamalıyıq. Gürcüstan və Azərbaycanın müəyyən mənada müstəqil siyasət yürütməsinə göz yumula bilər, ancaq Ermənistanın belə bir şansı yoxdur, olmayacaq da.***

***Qayıdaq, Ermənistan ordusunun atəşkəsi pozmasına: birmənalı olaraq, atəşkəsin pozulmasını "Rusiya və yaxud Qərb etdi" deyə bilmərik. Hər ikisinin əlinin olduğunu deyib, onlarla səbəblər də sadalaya bilərik. Hamısı da ağlabatan olacaq, çünki Ermənistan məhz bunun üçün var.***

***Ermənistanda Rusiyanın hərbi bazaları var, bundan əlavə, Ermənistan Müdafiə Nazirliyində həm Fransanın, həm də ABŞ-nin nümayəndəsi mövcuddur. Ermənistandakı ordu ilə əməkdaşlıq edən silahlı təşkilatlar həm Rusiya ilə əməkdaşlıq edir, həm də Qərbdəki erməni lobbisindən maliyyələşir.***

***Deyə bilərik ki, Azərbaycan təyyarəsinin vurulması prosesindən sonra rəsmi Bakının Rusiyaya qarşı sərt ritorikasına görə Rusiya Azərbaycana sərhəddən mesaj verir ki, "hələ münaqişə bitməyib, hər an başlada bilərəm".***

***Azərbaycanın ABŞ və Fransanı açıq şəkildə tənqid etməsinə cavab olaraq da atəşkəsin pozulması təşkil edilə bilər ki, "çox dərinə getməyin, proses yekunlaşmayıb" mesajını ötürə bilərlər.***

***Hər iki variantı da müdafiə edib, haqlı görünmək olar. Bunun üzərində baş sındırmaqdansa, Ermənistanın mahiyyətini anlamaq dağa doğru olar.***

***Regionda gərginlik qətiyyən səngiməyib. Əksinə daha çox artıb. Sadəcə olaraq, Rusiya-Ukrayna müharibəsi, Suriyada baş verən proseslər bunu arxa plana atıb. Azərbaycan Gürcüstandan fərqli olaraq hərbi gücünü nəinki eyni səviyyədə saxlamağa, hətta artırmağa məcburdur.***

***Çünki Gürcüstan Qərblə Rusiya üçün siyasi, Ermənistan hərbi, Azərbaycan isə iqtisadi mübarizə mərkəzidir.***

***Buna görə də ermənilərlə gürcülər daha çox milli və siyasiləşmiş toplumlardır. Azərbaycanla bağlı isə bunu deyə bilmərik. Əslində, bu mövzunun özü geniş bir yazının mövzusudur.***

***Bəzən deyirlər ki, Azərbaycan niyə görə Ermənistana qarşı bu qədər təzyiq edir, şərtlər qoyur, axı razılaşıb, münasibətləri normallaşdırmaq olar? Əminliklə deyə bilərəm ki, Azərbaycan qolunu verdiyi anda boynunu aparacaqlar.***

# Rəsmi Bakıdan Makronun ittihamlarına kəskin cavab

**Fransa Prezidentinin Azərbaycana qarşı səsləndirdiyi növbəti əsassız iddiaları və real faktları təhrif edən təxribat dolu açıqlamaları qəbuledilməzdir.**

Adalet.az xəbər verir ki, bu Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat katibi Ayxan Hacızadənin Fransa Prezidentinin səfirlər konfransında Azərbaycan əleyhinə səsləndirdiyi iddiaları barədə medianın sualına cavabında əksini tapıb.

"Maraqlıdır ki, özünü beynəlxalq hüququn müdafiəçisi kimi təqdim edən Fransa heç zaman Azərbaycana münasibətdə beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasını, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi etnik təmizləmə siyasətini, kütləvi qırğınları və insanlıq əleyhinə cinayətləri heç zaman tənqid etməyib.

Fransa tərəfinə bir daha xatırlatmaq istərdik ki, Azərbaycanın öz suveren ərazilərində beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə həyata keçirdiyi haqq-ədalət müharibəsi yalnız Ermənistan işğalına son qoymaq məqsədilə aparılıb.

Bölgədə sülh üçün real şərait yarandığı bir dönəmdə, Azərbaycanın öz əraziləri üzərində suverenliyini sual altına qoyan, Ermənistanı revanşizmə hazırlayan, bu ölkənin geniş şəkildə silahlanmasını həyata keçirən Fransanın bu kimi təhrikçi açıqlamaları qətiyyətlə pisləyirik.

Fransanın məkrli neo-kolonial siyasətinin təzahürü olan dənizaşırı ərazilərində apardığı uğursuz fəaliyyətin səbəblərinin Azərbaycan üzərinə yönləndirilməsi isə Fransanın yanlış siyasətindən xəbər verir. Digər ölkələri təqsirləndirmək əvəzinə, Fransanın səriştəsiz xarici siyasətindən dərs çıxarması daha faydalı olardı.

Fransadan sülhə xidmət etməyən və regionda sabitliyi pozan addımlarına son qoymağı tələb edirik", - o vurğulayıb.

Qeyd edək ki, 6 yanvar 2025-ci il tarixində Fransa Prezidenti Emmanuel Makron səfirlər konfransında çıxışı zamanı bildirib ki, "Ermənistana münasibətdə Rusiya müttəfiqlik əlaqələrinə dəyişiklik edərək, Azərbaycanın fəaliyyətini dəstəkləyib". O həmçinin qeyd edib ki, "Fransanın özü son aylarda bir çox dənizaşırı ərazilərində, xüsusilə də yeni Kaledoniyada Azərbaycan tərəfindən qəbuledilməz müdaxilələrlə hücumlara məruz qalıb. Bizim beynəlxalq hüququ və Ermənistanı müdafiə etdiyimizi anlamayan Azərbaycan bununla məsələni həll etdiyini düşünür".

# Kabusa dönən Rusiya gecələri: İşğalçılığın gətirdiyi faciələr

**Xatırlayırsınızsa, ötən ilin noyabrında ABŞ Prezidenti Co Bayden ilk dəfə Ukraynanın Birləşmiş Ştatların ATACMS uzaqmənzilli raketləri ilə Rusiyanın ərazisinə zərbələr endirməsinə icazə verdi . O da sizə məlumdur ki, ATACMS (Army Tactical Missile System) 165 kilometr uçuş məsafəsinə malikdir və kaset başlığı ilə təchiz edilib. Maksimum 300 kilometrədək hədəfləri vura bilən "yer-yer" tipli bu raketlər Amerikanın "Lockheed Martin" korporasiyası tərəfindən istehsal olunur.**

Elə qərardan bir neçə gün sonra Ukrayna Rusiyanın dərinliklərini hədəf aldı. O gündən sonra Rusiyanın gecələri kabus dolu keçir. Adalet.az xəbər verir ki, ötən gecənin kabusu da rusların yuxusunu qaçırıb. Beləki, Rusiya hava hücumundan müdafiə sistemləri sutka ərzində Ukraynaya məxsus 32 PUA-nı məhv edib. Rusiya Müdafiə Nazirliyi məlumatına görə, Saratov vilayətində 11, Kursk və Rostov vilayətlərində 4, Belqorod və Bryansk vilayətlərində 3, Krasnodar diyarında 2, Volqoqrad vilayətində 1 və Azov dənizi üzərində isə 4 PUA zərərsizləşdirilib. Hətta bu hücumların ən dəhşətlisi Rusiyanın Saratov vilayətinin Engels şəhərində yaşandığı artıq Rusiya mediasında yayımlanır, sosial şəbəkələrdə paylaşılır . Saratovda nə baş verir? Deməli, yanvarın 8-i gecə saatlarında kütləvi PUA hücumuna məruz qalan şəhərin neft bazası rayonunda güclü partlayışlar və yanğınlar baş verib. Rusiyaya məxsus Teleqram kanalları yerli sakinlərdən açıqlamalara əsaslanaraq bildirib ki, ərazidə 40-dan çox partlayış səsi eşidilib. Ötən gün isə - müharibənin 1049-cu günü Ukrayna Rusiya ordusunun itkiləri haqda məlumatı yeniləyib. Məlumatda deyilir ki, Rusiya indiyə qədər 800 010 hərbçi, 9 710 ədəd tank, 20 189 ədəd zirehli döyüş maşını, 21 710 ədəd artilleriya sistemi, 1 260 ədəd RYAS (reaktiv yaylım atəş sistemi), 1038 hava hücumundan müdafiə sistemi, 369 ədəd hərbi təyyarə, 331 ədəd helikopter, 33 226 ədəd avtomobil texnikası, 21 708 ədəd PUA, 3006 qanadlı raket, 28 gəmi/kater, 1 sualtı qayıq, 3 681 xüsusi avadanlıq itirib.

***P.S.** Bəlkə də "yenilməz" Rusiya 2022-ci ili fevralında işğala başlayarkən Ukraynanı 72 saata məhv edəcəyini təşəxxüslə elan edəndə ağlına da gətirməyib ki, nəticə özləri üçün bu qədər acınacaqlı olacaq.*

**Əntiqə Rəşid**

Rüstəm Hacıyev



# Müharibələr əbədi olmur

**2025-ci ildə dünyanı hansı sınaqlar gözləyir ?**
**Qlobal münaqişələr baş verə bilərmi?**

**Ötən 2024- cü il də, siyasi baxımdan çətin sınaqlardan keçdi. Rusiya- Ukrayna müharibəsi, İsrail-"HƏMAS"münaqişəsi, Suriyada 54 illik Əsədlər hökmüranlığının sonu, dünyaya əsas çağırışlar kimi qalmaqdadır. Buna görə, hərbiçilərin və diplomatların maksimum səfərbər olması vacib amillərdən sayılır.**

**Ötən il keçmiş postsovet məkanında da bəzi çətinliklərlə yadda qaldı. Moldova və Ermənistanın tədricən Rusiyadan üz çevirmələri, Gürcüstanda keçirilən seçkilərin ölkədaxili yaratdığı gərginliklər, Abxaziyada kütləvi etiraz aksiyakarının keçirilməsi, üç ildir sürən Ukrayna müharibəsindən başını itirməkdə olan Rusiyanı çıxılmaz dalana dirəməkdədir. Moldivanı idarə edən əsas qüvvələr Avropa İttifaqına inteqrasiyanı qarşılarına siyasi layihə kimi məqsəd qoyublar. Düzdür, bu layihənin əleyhinə olan ölkədaxili qüvvələr ilk baxışda güclü görünsələr də, Avropa dövlətlərinin Maya Sandu hakimiyyətini dəstəkəməsi göstərir ki, onlar yalnız hadisələri ləngidə bilərlər, lakin qarşısını almaq gücündə olmayacaqlar.**

**Ermənistanda vəziyyət daha qarışlq durumdadır. Azərbaycan Prezidentinin qətiyyətli hərbi- siyasi gedişi nəticəsində, ermənilərin yüz illərdi hazırladıqları "miatsum" layihəsini tamanilə iflasa uğratması onların bütün ümidlərini heçə endirdi. Ona görə də, ermənilər bütün günahları, ömürləri boyu for- postu olduqları Rusiyanın üstünə yıxmağa çallşırlar. Əslundə heç Rusiyanın da, erməni treki üzərində işləmək imkanları da o qədər geniş deyil. Ona görə də Kreml mövcud olan jpvrək status kvotanı saxlamağa cəhd edir. Daha sonra ,dost saydıqları Suriyada Bəşər Əsəd rejiminin devrilməsi, Rusiyanı faktiki olaraq yeni hakimiyyətlə danışıqlara sıfırdan başlamasına aparır. Alınacaqmı ya yox, bunu zaman göstərəcək.**

**Yanvarın 20-də inaqurasiyası gözlənilən, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın da vəzifəsinin icrasına başlaması, beynəkxalq prosseslərin hansı istiqamətə yönələcəyinə aydınlıq gətirmir.**

**Qərbin strateji xətti, həmişə olduğu kimi, ABŞ-ın yeni hakimiyyət başçısının apardığı sitasət ətrafında qurulur. Lakin, hələ ki, Trampın xarici siyasət strateqitasının hansı istiqamətdə inkişaf etdiriləcəyi onlar üçün naməlum olaraq qalmaqdadır.**

**Sadəcə olaraq, 2025- ci ildə yeni seçilmiş prezidentin bu istiqamətdə göstərəcəyi təşəbbüslərini gözləmək məcburiyyətində qallblar.**

**Hələ ki, heç kim sona qədər bilmir ki, "Tramp planının" mahiyyəti nədən ibarətdir. Bu da təbii ki, Qərbdə müəyyən əsəbilik yaradır. Dünyada hər kəsi maraqlandıran bir sual var, Donald Tramp seçki marafonunda verdiyi sözə əməl edə biləcəkmi? 2025- ci ildə dünyada mövcud olan münaqişələri bitirə biləcəkmi, yoxsa, bu münaqişələrin yalnız qaynar ocaqlarını dayandırmağa gücü çatacaq? Və ümumiyyətlə gücü çatacaqmı?**

**Göründüyü kimi, hazırda Rusiya və NATO arasında qlobal münaqişə getdikcə daha da teallaşmaqdadır. Ukrayna müharibəsi bu qarşıdurmanın yalnız bir hissısidir. Bu hələ o demək deyil ki, Rusiya və NATO arasında geniş miqyaslı müharibə başlaya bilər. Lakin hər iki tərəfin açıq şəkildə buna hazırlıqlar görməsi göz qabağındadır. İstənilən tərəfin bilərəkdən və ya bilməyərəkdən səhvən "buraxılış düyməsinə" basması dünyanı fəkakətə apara bilər.**

**Bəli, bu bir fakdlr ki, Rusiya və Qərb (ABŞ, NATO) bir -birilərinə qarşı açıq düşmən mövqedə dayanıblar. Açıq şəkildə bir-birilərini nüvə hücumları ilə təhdid edirlər. Lakin, ümid edirik ki, bağlı qapılar arxasında hər iki tərəf belə bir riskin reallığını dərk edəcək və bundan çıxış edərək müvafiq, daha ağıllı qərarlar qəbul edəcəklər...**

# ABŞ və Rusiya arasında müharibə ola bilər?

**"ABŞ Rusiya ilə birbaşa qarşıdurmanın astanasında deyil".**

Adalet.az xəbər verir ki, bu barədə ABŞ administrasiyasının dövlət katibi Antoni Blinken "The New York Times" qəzetinə müsahibəsində bildirib.

"Biz narahatlığımızı Rusiya ilə münaqişənin qarşısını alacaq şəkildə həll etdik. Düşünürəm ki, biz birbaşa münaqişəyə yaxın deyilik, lakin çox diqqətli olmalıyıq".

Blinken amerikalıların hərbi münaqişələrdə iştirak təşəbbüsünü dəstəkləmədiyini də vurğulayıb.

Bundan əlavə, Blinken bildirib ki, Vaşinqton hələ xüsusi hərbi əməliyyat (SVO) başlamazdan əvvəl Kiyevə silah tədarük etməyə başlayıb.

# Erməni vandalizmi: Rusiya və Sovet hökuməti tarixində ilk metro terroru - 48

**"Yer üzünün əhrimənı" adlandırılan hayların dinc insanlara qarşı törətdiyi növbəti vandalizmdən 48 il ötür.**

Adalet.az xəbər verir ki, sovet hökümətinin "kəsakəs" vaxtı - 1977-ci il yanvarın 8-də Moskva metrosunda əldəqayırma partlayıcı qurğunun işə düşməsi ilə törədilən qanlı terror hadisəsini erməni terrorçularının planladığı və reallaşdırdığı təsdiqləndi. "İzmayılov" və "1 May" stansiyaları arasında baş verən partlayışda 7 nəfər (qeyri-rəsmi məlumatlarda ölü sayının 29 nəfər olduğu deyilir) həlak olur, 40-a yaxın insan yaralanır. Hadisənin şokundan çıxa bilməyən şahidlərdən biri də partlayan qatarın maşinisti Vladimir Dmitriev idi. O, mediaya açıqlamasında söyləyir ki, vaqondan qaçaraq çıxdım:"Yerdə çoxlu qan təbəqəsi var idi, səpələnmiş əşyalar, şikəst insanlar, qan, iniltilər. 12-13 yaşlı uşaq qara idman kostyumunda xizəkdə uzanmışdı - Qadın qanlı əllərini yelləyirdi. Baxmaq qorxulu idi..."

Bundan sonra şəhərin müxtəlif hissələrində Bauman rayonundakı 15 saylı mağaza və oktyabr küçəsində 3 terror aktı həyata keçirildi. Sovet rəhbərliyini şoka salan bu terror aktları həmin dövr üçün heç də adi hadisə kimi qarşılanmırdı.

Terrorun təşkilatçısı Stepan Zatikyan "Ermənistan Vahid Milli Partiyası"nın rəhbərlərindən biri olub. Yerevana qaçarkən qatarda saxlanılan fəhlə Akop Stepanyan və rəssam Zaven Baqdasaryan Stepan Zatikyan həbs edilib. Məhkəmə zamanı baş terrorçu, erməni Zatikyançıxış edərək özünə haqq qazandırmağa çalışır: "Sizin məni mühakimə etmək ixtiyarınız yoxdur, çünki rus və yəhudilərin idarə etdiyi imperiya hüquqi dövlət deyil! Bunu möhkəm yadda saxlamaq lazımdır".

İstintaq məlumatlarından məlum olur ki, Zatikyan 1968-ci ildə sovet rejimi əleyhinə təbliğat apardığına görə həbs edilmişdi. 1972-ci ildə həbsxanadan çıxmış və fəhlə kimi fəaliyyətə başla-




mışdı. 1975-ci ildə sovet vətəndaşlığından çıxmaq üçün ərizə vermiş, lakin buna nail ola bilməmişdir. O, Ermənistanın Rusiyadan ayrılmasını təbliğ edirdi.

Həmin günlərdə sovet mediası yazırdı:"Moskva metrosunda 1977-ci ildə baş vermiş partlayış Zatikyanı yenidən məhkəmə kürsüsünə çıxardı. İstintaqa görə, metro partlayışına o, rəhbərlik edib. Partlayışı həyata keçirən erməni terrorçular - fəhlə Akop Stepanyan və rəssam Zaven Baqdasaryan əməliyyata rəhbərliyin Stepan Zatikyan tərəfindən edildiyini bildirmişdilər. Terrorçuların dediyinə görə, Zatikyan ruslara nifrət etdiyinə görə, onları təhdid edərək bu əmələ vadar edib".

Məhkəmə sonrası hər 3 terrorçu güllələnmişdi.

Qeyd edək ki, 2017-ci ildə Rusiyada erməni tarixi ilə bağlı saxtakarlıqları üzə çıxaran çoxlu sayda elmi araşdırmanın müəllifi, tarixçi alim Oleq Kuznetsov bu hadisə ilə bağlı təklif irəli sürdü. O, 1977-ci ilin yanvarın 8-də ermənilərin Moskvada törətdiyi terror aktı ilə bağlı cinayət işinin məxfilikdən çıxarılmasını tələb edən petisiya hazırladı.

**O. Kuznetsov petisiyada Rusiya Ali Məhkəməsi və Baş Prokurorluğundan ermənilərin 1977-ci il yanvarın 8-də Moskvada törətdiyi seriya terror aktları ilə bağlı cinayət işi materiallarının məxfilikdən çıxarılmasını xahiş etdi. Onun sözlərinə görə, bu addım, erməni terroru və məlum cinayət haqqında bütün tarixi həqiqətlərin ortaya çıxmasını mümkün edəcək. Təəssüf ki, Rusiyanın idarəedici orqanları və mühüm vəzifə daşıyıcıları ya erməni əsilli olması, ya da erməni lobbisinin çirkli pullarına aludə olduğu üçün Kuznetsovun bu təklifinin heç bir nəticəsi olmadı.**

**Əntiqə Rəşid**

## *Bayram sonrası həzm sisteminin funksiyasını dəstəkləmək üçün nə etməliyik?*

**"Bayram günlərində çox vaxt yemək-qəlyanaltılarla zəngin olur və həddindən artıq qida qəbul etmək həzm sistemini yükləyə bilər. Bayram sonrası həzm sisteminin funksiyasını dəstəkləmək üçün müəyyən fiziki məşqlər faydalı ola bilər".**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan "Sağlam radio"da Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov səsləndirib.

Onun sözlərinə görə, qan dövranının yaxşılaşması, həzm proseslərini sürətləndirən mexaniki təsir və stressin azalması ilə əlaqədardır:

"Yüngül gəzişlər həzm sisteminin aktivliyini artırır. Yeməkdən sonra 10-15 dəqiqəlik gəzinti mədənin boşalmasını və bağırsaqların peristaltikasını (qida hərəkətini təmin edən ritmik əzələ yığılmaları) stimullaşdırır. Bundan əlavə, gəzintilər qan şəkərinin səviyyəsini sabitləşdirməkdə də rol oynaya bilər.

Yoga həzm sistemini stimullaşdırmaq üçün əla vasitədir. Xüsusilə qarın bölgəsini dartaraq mədə və bağırsaq orqanlarının qan dövranını artırır. Kardio məşqlər, məsələn, yüngül qaçış və ya velosiped sürmə, bədənin ümumi qan dövranını artırır. Bu, həzm sisteminə daha çox oksigen və qida maddəsi təmin edir. Bu cür məşqlər bayram yeməklərinin tərkibində olan yağların və karbohidratların daha effektiv həzm olunmasına kömək edə bilər. Eyni zamanda, bu məşqlər qarın şişkinliyini azaltmaqda faydalıdır".

Mütəxəssis-ekspert bildirib ki, stress və həzm sistemi arasında sıx əlaqə olduğu üçün nəfəs məşqləri də faydalıdır:

"Nəfəs məşqləri sinir sistemini sakitləşdirir və həzm prosesi üçün vacib olan parasimpatik sinir sistemini aktivləşdirir. Diafraqmal nəfəs alma (qarından dərin nəfəs alma) qarnın iç təzyiqini artırır və bağırsaqların fəaliyyətini stimullaşdırır. Pilates və ya qarın əzələlərini hədəfləyən məşqlər bağırsaq hərəkətlərini aktivləşdirir. Bu cür məşqlər qarın bölgəsində qan dövranını artırır və bağırsaqların düzgün işləməsinə kömək edir. Pilates hərəkətləri həzm sisteminin aktivliyini artıraraq bayram sonrası bədəndə yığılmış toksinlərin çıxarılmasını da dəstəkləyir. Fiziki aktivlik bağırsaq hərəkətliliyini artıran hormonların, məsələn motilinin ifrazını stimullaşdırır. Məşq zamanı qan dövranı artır, bu da həzm fermentlərinin daha aktiv işləməsinə şərait yaradır. Bundan əlavə, fiziki aktivlik stress hormonlarını azaldır və bu da həzm prosesində əhəmiyyətli rol oynayır, çünki yüksək stress həzmi ləngidə bilər. Məşq bağırsaq mikrobiotasını müsbət istiqamətdə dəyişdirərək faydalı bakteriyaların çoxalmasını təşviq edir".

Emin Məmmədov sonda qeyd edib ki, bayram sonrası məşqlər həddindən artıq olmamalıdır, çünki artıq dərəcədə ağır məşqlər həzmi yavaşlada və orqanizmi yükləyə bilər. Məşqləri rahat bir tempdə və qısa müddətli başlamaq tövsiyə olunur.

# «Qiymətli eşşək» söhbəti: 6 eşşəyə çəkilən xərclə 1 ferma yaratmaq olar

**2024-cü ilin əvvəlində Dövlət Statistika Komitəsi bildirdi ki, ölkəmizdə 14924 baş eşşək olub. Həmin bu eşşəklərin böyük hissəsinin - 10174-nün yaşı 3 və daha çoxdur. DSK onu da vurğuladı ki, 2023-cü ilin əvvəlinə olan məlumatda Azərbaycanda eşşəklərin sayı 20 mindən bir qədər çox olub. Beləliklə, 1 il ərzində ölkəmizdə 5 mindən artıq eşşək "yoxa çıxıb".**

Amma 2022-ci ildən məlum idi ki, polislərimizin keçirdikləri tədbir nəticəsində Sabirabad rayonu Yaxadəllək kənd sakini, bölgədə "Eşşək Tahir" adı ilə tanın Tahir Məstəliyevə məxsus həyətyanı sahəyə və yardımçı təsərrüfata keçirilən baxış zamanı oradan 8 baş kəsilmiş və dərisi soyulmuş uzunqulaq əti aşkar olunaraq götürüldü. Araşdırmalarla T.Məstəliyevin həmin heyvanları dağ keçisi adı ilə satmaq məqsədilə kəsməsi müəyyən olunub.

Sonra isə məlum oldu ki, eşşək ətindən təkcə dönərxanalarda, kolbasa sexlərində yox, hətta kafelərdə və restoranlarda istifadə edilir.

### *Qazanc gətirən Eşşək*

Maraqlısı isə odur ki, hələ 2018-ci ildə Bakıda, daha dəqiq Abşeron rayonu Məhəmmədi qəsəbəsində nəinki ölkənin, Qafqazın ilk eşşək ferması açıldığı barədə məlumat yayıldı. Amma uzun müddət fəaliyyət göstərə bilmədi. Süddən bakteriya çıxdı deyə ferma bağlandı.Yəni, kiminsə, "zaval"ına gəldi.

Yeri gəlmişkən, təbii üsullarla müalicə eksperti, həkim Seyfəddin Əsəd "Yeni Müsavat"a açıqlamasında eşşək südünün faydasının misilsiz olduğunu bildirərək demişdi ki, eşşək südü ana südünə yaxın ən yaxşı süddür:" İnək, keçi südlərindən fərqli olaraq bu südü bişirilmədən içmək mümkündür, çünki onun tərkibi bakteriya saxlamır".

Seyfəddin həkim onu da deyirmiş ki, eşşək südünün tərkibi zəngin maddələrlə doludur:" Bu süd həm də qrip xəstəliklərinin müalicəsində də misilsizdir.Südünün bu cür əhəmiyyətli olmasına görə Almaniyada eşşəyə heykəl qoyublar.

Eşşək südünün bahalı olmasına gəldikdə isə, bir eşşək gün ərzində cəmi 100 qram süd verə bilir. Ona görə də onun südünün qramı bahalıdır.

Ona görədə 500 qram eşşək südü 40-50 manata, 200 qramı isə 16-20 manata satılır".

Amma bir məmurun həbs edilməsi ilə bağlı istintaq araşdırmasından sonar bildik ki, əslində Neftçalada da eşşək ferması varmış. Neftçala rayonunun icra hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev rayonda "Xol yolu" deyilən ərazidə eşşək ferması saxlayırmış. Sən demə, 200-dən çox cins eşşək saxlayan icra başçısı, onların südünü dərman vasitəsi kimi satırmış.

Məlumatlarda deyilir ki, qazanclı olan "eşşək südü" biznesi böyük ölkələrdə də populyardır. ABŞ, Braziliya, Fransa, İtaliya, İngiltərə, İspaniya, Çin eşşək südü istehsal edən ölkələr arasındadır. Hətta qərb mediası Serbiyada eşşək südündən pendir hazırlandığını da yazır. Adı Pule olan pendirin 1 kq-mii 1000 avrodur. Hətta deyirlər ki, qardaş Türkiyədə xeyli eşşək ferması var. Özləri içməsə də xaricə satılması böyük qazanc gətirir. Əslində belə bir fermanın Azərbaycanda yaradılması çox uğurlu bir layihə olardı. Həm südə görə, həm pendirə görə... Həm də...



*Bahalı Eşşək*

Deməli, 2024-cü ildə Azərbaycana Türkiyədən 6 baş ulaq (eşşək) idxal edilib. İdxal olunan 6 baş ulaq üçün ümumilkdə 9,4 min dollar (16 min manat) ödənilib. Türkiyədən gətirilən ulaqların bir başının orta gömrük dəyəri 2 min 664 manat olub. Mütəxəssislərin dediyinə görə, Türkiyədən alınan eşşəklərlə bizim eşşəklər arasında heç bir fərq yoxdur.

Bunu Türkiyə mediası da təsdiq edir.Məsələn, 2018-ci ildə məşhur aktrisa Özgü Namal dünyanın ən bahalı pendirlərindən olan "Pule" hazırlamaq üçün Balkan eşşəkləri alıb.Aktrisa reklamçı həyat yoldaşı Serdar Oralla birgə Balkan eşşəkləri alıb.

İnternet üzərindən araşdırma apararkən məlum olur ki, 2009-cu ildə Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, xaricdən 34 baş safqanlı, təkdırnaqlı ulaq (eşşək) və qatır alınaraq ölkəyə gətirilib. Bu heyvanların alınmasına 179 min 700 dollar vəsait xərclənib.

Məlumat "Yeni Musavat"da yayılıb:"Apardığımız hesablamaya görə, hər bir baş safqanlı, təkdırnaqlı heyvan ölkəmizin dövlət büdcəsinə 5 min 285 dollar 29 sentə başa gəlib. Bu, Dövlət Statistika Komitəsinin məlumatında da aydın şəkildə yazılıb.

Həmin məlumatlarda bildirilir ki, Almaniyadan Azərbaycana idxal edilən 2 baş safqanlı eşşəyə görə 82 min dollar, yəni hər baş eşşəyə görə 41 min dollar pul verilib. Türkiyədən alınan 1 baş qatıra 11 min 500, əlavə olaraq daha 14 baş qatıra isə 18 min 200 dollar xərclənib. Belçika, Lüksemburq, ABŞ, hətta Gürcüstandan da qatır və eşşək almaq üçün bir xeyli vəsait xərclənib. Məlumat üçün bildirək ki, 2006-cı ildə ulaq, qatır və at qatırına (bu heyvan növünün nə olması qaranlıq qaldı; hər halda Dövlət Statistika Komitəsinin sənədlərində belə yazılıb-red.) xərclənən vəsaitin həcmi 156 min 900 dollar təşkil edib".

2014-cü ilin yanvar-dekabr aylarında Azərbaycana xarici ölkələrdən diri halda alınıb, gətirilən heyvanların statistikası cəmiyyətdə ciddi maraq doğurmuşdu. DSK-nin məlumatda deyilirdi ki, 2013-cü ildə xaricdən ölkəmizə idxal olunan diri atlar, ulaqlar və qatırlar 29 baş təşkil edib, buna da 132,4 min ABŞ dolları xərclənib. Orta hesabla götürsək, bir at və ya qatırın qiyməti 4500 dollardan baha baş gəlir. Ölkəyə orta səviyyəli bir avtomobil qiymətinə xaricdən at-eşşək gətirilməsi həmin dövrdə sosial şəbəkələrdə gülüş hədəfinə çevrildi.

Bildiyiniz kimi, İqtisadi rayonlar arasında eşşələrin sayının ən çox olduğu bölgələr var . Qazax-Tovuzda 4116 baş, Lənkəran-Astara 2713 baş, Quba-Xaçmazda 1812 baş, Ağdamda 173, Füzulidə 315 vəsair. Məlumdur ki, Azərbaycanın bölgələrində 30-50 manat arası pulla 1 ulaq, 150-300 manata isə normal bir at almaq mümkündür.

**Elə ola bilərmi ki, bu qədər pulu (16 min manat) Azərbaycandakı eşşəkləri sahibindən satın alıb ferma yaradılsın? Lazım olan cinslər isə xaricdən fermaye gətirilsin?6 eşşəyə 16 min manat verməklə, eşşək fermasının yaradılmasına çəkiləcək 16 min manatın yekun nəticəsi eyni deyil axı. İkinci variant daha uğurludur...**

**Əntiqə Rəşid**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# İtirdiyimiz dostları...

... Bu dünyada çətin ki, dostsuz adam olsun. Kimi dindirsən deyəcək ki, dostum var. Nə gözəl! Yaxşı dost adama qardaşdır, sirdaşdır, arxadır. Allah heç kimi bu dünyada dostsuz eləməsin! Təbii ki, mənim də etibarlı, sədaqətli, duz-çörəyə hörmət eləyən dostlarım olub və var. Onlardan biri də 20 ilə yaxın bir yerdə işlədiyimiz filologiya elmləri doktoru, professor Məhəmmədəli Mustafa idi.

Onunla həddindən artıq çox yaxın olmuşuq. Və bir-birimizə qardaş qədər yaxın idik. Heç vaxt mənim tənqidimdən, zarafatımdan inciməyib, küsməyib. Bilib ki, onu qardaşım Qürbət qədər, Elxan qədər çox istəmişəm. Rəhmətə gedəndə də elə bil ki, qardaşımı itirdim....



Dekabrın 31-də Məhəmmədəli müəllimin qardaşı Azər Mustafayev Yeni il münasibətilə telefonla məni təbrik edərək dedi ki, yanvarın 2-də bir yerdə görüşüb bir tikə çörək kəsək. Ürəyin istədiyi dostları da gətirə bilərsən! Təbii ki, mən də uzun müddət bir yerdə işlədiyimiz və Məhəmmədəli Mustafa ilə dostluq eləmiş Asif Talıboğlunu, Lətif Novruzovu, Daşdəmir Əjdəroğlunu Azər müəllimin adından həmin yerə dəvət elədim.

Biz dostlar hamımız qardaşımız Məhəmmədəlini çox istəyirdik və onunla gözəl günlər yaşamışıq. Bilirsiniz, Məhəmmədəli müəllimi niyə çox istəyirdik? Çünki o, bizim hamımızdan sadə və səmimi adam idi.

Və heç vaxt kimisə aldatmamışdı. Göy üzü kimi təmiz, bulaq suyu kimi duru idi. Və bu təmizliyə görə də iş yerində hamı onu çox istəyirdi. Süfrə arxasında əyləşdik, onun barəsində hər birimiz xatirələrimizi danışdıq. Asif Talıboğlu onun barəsində söhbət açanda kövrəldi və gözləri doldu...

Qırmızı qələmlə yazıları redaktə etməyindən və qardaşımız Məhəmmədəlinin zarafatla "Talıboğlu, sənin qırmızı qələmin sınsın!", - deməyindən və bir yerdə rayona ezamiyyətə getməyindən danışdı. Daşdəmir Əjdəroğlu isə onunla dostluğundan, İsmayıllıya səfər etməsindən və Məhəmmədəli müəllimim yeznələri və bacısıgildə süfrə



arxasında çörək yeməklərindən söhbət açdı. Və o xatirələr bizi ötən əsrin 90-cı illərinə apardı. Onda qəzetlər "qaryaçı sex" deyilən yerdə çap olunurdu. Çox vaxt bizim əlimiz biləyimizə kimi mazuta batardı, amma bundan bezməz, əksinə ləzzət alardıq. Sonra da Elmira xanımın yeməkxanada bişirdiyi ləziz yeməyi gözümüzə təpərdik!

Lətif Novruzovun da Məhəmmədəli Mustafa ilə bağlı xatirələri zəngindir. Çünki dəfələrlə yol yoldaşı olublar, çörək kəsiblər, çətin və ağır anlar yaşayıblar. Lətif qardaşımızın da ürəyi ipək kimi çox yumşaqdır. O dedi ki, mən Məhəmmədəli kimi hər sözə inanan, sadə, təmiz ürəkli adam az-az görmüşəm. İnsan nə qədər səmimi, kövrək olarmış. Qanının qara vaxtında zarafat eləyirdim ki, qoy eyni açılsın! Axırda da özünəməxsus bir şirinliklə dəyərdi ki, "qurtar ə, qurtar!" Yəni bu zarafatları burax! Lətif Novruzov da şirin adamdı, söyüşü də şirin-şirin söyür. Və onun yaraşığı belə şirin söyüşdü... Uzun müddət "Ədalət" də məsul vəzifədə çalışmış Babək Yusifoğlu ilə də telefon əlaqəsi yaratdıq və o da Məhəmmədəli Mustafa haqqında xatirələrini bizimlə bölüşdü. Özü də kövrəldi, biz də!

Yanvarın 1-i axşamı Məhəmmədəli qardaşım yuxuma girmişdi. Gördüm ki, əynində gözəl kostyum, qalstuk var və televiziyada çıxış edir, mən də yaxınlaşıram onun yanına getməyə qoymur. Deyir ki, bura sənin yerin deyil. Bura mənim üçündür! Yuxumu belə yozdum ki, Məhəmmədəli Mustafa Cənnətdədir və Cənnətə də hər adam qəbul edilmir!

Deyirlər ki, insan o vaxt ölür ki, onu xatırlayan axırıncı adam rəhmətə gedir. Və Məhəmmədəli Mustafanı isə bizim kimi xatırlayan yüzlərlə dostu var. Bir də Məhəmmədəli Mustafa ona görə xoşbəxt adamdır ki, onun Azər Mustafayev kimi ziyalı, ləyaqətli, sədaqətli qardaşı var. Sözün düzü, mən Azər müəllim kimi qardaşını çox istəyən, onun yolunda hər cür əziyyətə qatlaşan qardaş çox az görmüşəm.

Allah üzünü ağ eləsin! Azər müəllim onu da dedi ki, mən sizin xatirələrinizdə qardaşımı bir daha yenidən kəşf etdim. Hiss etdim ki, Məhəmmədəli müəllim necə böyük insan imiş və səmimi söhbətlərə görə sizin hər birinizə təşəkkür edirəm! Azər qardaşımız, biz Məhəmmədəli Mustafanı itirdik, qardaşı Azər müəllimi tapdıq. Çünki Azər qardaşımız təpədən-dırnağa Məhəmmədəli Mustafaya oxşayır. Və indi biz onun qoxusunu Azər müəllimdən alırıq. Min şükür!!!

## Çevik Polis Alayı dövlətə və xalqa sədaqətlə xidmət edir...




**Azərbaycan Polisi həmişə tapşırılan işə məsuliyyətlə yanaşıb və bu gün də məsuliyyətlə yanaşır.**

Bunu cəmiyyət və ictimaiyyət də yaxşı bilir. Ataların bir məsəli var:" Elin gözü tərəzidir". Çünki xalqımız və millətimiz görür ki, polis onların təhlükəsizliyini təmin edir, çətin vəziyyətdə olan hər bir vətəndaşa kömək göstərir. Bu mənada Çevik Polis Alayının xidməti əvəzsizdir. Biz dəfələrlə onun şahidi olmuşuq ki, xidmətin əməkdaşları xəstə olub onlardan kömək istəyən insana əl tutub və onu xəstəxanaya çatdırıb. Və eyni zamanda sükan arxasında huşunu itirib , idarəetməni unudan sürücünün həyatını Çevik Polis Alayının əməkdaşları xilas edib. Biz belə faktların sayını istənilən qədər artıra bilərik, çünki onlar teztez belə hadisələrlə üzləşir və insanlara yardım edirlər.

Bir dəfə də " Moskva" prospektində doqquz mərtəbəli binanın damından özünü atmaq istəyən insanı intihardan Çevik Polis Alayının əməkdaşları danışıqlar zamanı onu bu yoldan çəkindirdi və həyatını xilas etdi. Əlbəttə, Çevik Polis Alayının əməkdaşları öz peşəkarlığı və yüksək vətənpərvərlik hissilə həmişə fərqlənib.Belə ki, İkinci Qarabağ savaşında və antiterror əməliyyatında yüksək peşəkarlıq və igidlik göstərmiş, Vətən yolunda şəhid və qazi olmuşlar. Bax onların bu qəhrəmanlığı xalqımızın tarixinə qızıl hərflərlə yazılmışdır. Millətimiz də belə qəhrəmanları heç vaxt unutmur.

Yeni ilin gəlişi ilə əlaqədar olaraq Polis, o cümlədən Çevik Polis Alayı gücləndirilmiş iş rejimində çalışacaq. Çevik Polis Alayının Binəqədi, Suraxanı, Xətai rayonları üzrə bölükləri ictimai asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir. Biz bayram günlərində istirahət edəndə onlar soyuqda, qarda, yağışda vətənə xidmət edirlər. Bax , buna görə də xalqımız polisi çox istəyir!!!

## Tarif Şurası millətin belini qırdı...



**Bizim ölkəmizdə bir Tarif Şurası var, ancaq öz mənafeyini düşünməklə məşğuldur.**

Yeni axşam yatıb səhər oyanıb görürsən ki, bütün kommunal xidmətlər bahalaşıb. Heç bu millət Tarif Şurasından yaxşı bir şey görməyib, ancaq xalqın ziyanına onların çıxardığı qərarları görüb. Ölkə Prezidenti cənab İlham Əliyev xalqın qayğısına qalır, pensiyanın, təqaüdün, müavinətlərin artılması ilə bağlı sərəncam imzalayır. Ona görə də bu xalq cənab Prezident çox istəyir. Tarif Şurası isə Yeni ildə əhaliyə sürpriz edərək işığın, qazın, suyun, istiliyin qiymətini qaldırdı.

Bu addımı atmaqla məlum qurum millətin belin qırdı. Və bu da əhalinin əsəbləri ilə oynamaqdan başqa şey deyil! Xüsusilə də istiliyin qiymətinin 15 qəpikdən, 30 qəpiyə qaldırılması çox böyük narazılığa səbəb olub. Heç abonentlər 15 qəpikdən olan borcları verə bilmir. Mənim əlimdə siyahı var, bizim binada yaşayan sakinlərin 60 faizi istilik borcunu ödəməyib.

Hələ elə abonent var ki, bu borc 400- 500 manatı keçib. Bəs belə olduğu halda kvadratı 30 qəpiyə olan istilik borcunu onlar necə ödəyəcəklər?! Bax əsas məsələ də elə budur! Və burda , deyəsən xoruzun qiyməti görünür. Deməli, qiymətlər qalxarkən əhalinin mövcud maddi durumu nəzərə alınmayıb! Tarif Şurasının addımı isə insanların narahatlığına və narazılığına səbəb olub!

## 71 nömrəli marşrutdakı avtobuslar...




**Təbii ki, bayram günləri insanlar ya gəzməyə, ya da qohum - əqrəbasını ziyarət etməyə gedir.**

Belə olanda şəxsi avtomobillə yanaşı, ictimai nəqliyyatdan - metrodan və avtobuslardan istifadə edilir! Yanvarın 1- də də biz bir dostumuzgilə baş çəkdik. Onlara getmək üçün " Azadlıq" metrostansiyasından çıxıb, 71 nömrəli avtobusa minməliydik. Stansiyadan çıxaraq həmin avtobusa yaxınlaşdıq.Avtobusu dayanacaqda görüb sevindik və onun salonunda əyləşdik. Düşündük ki, bir neçə dəqiqədən sonra avtobus tərpənəcək. Heç sürücü də sükan arxasında yox idi.

Həmişə beş dəqiqədən sonra avtobus tərpənmirdi. Amma bu dəfə 20 dəqiqə gözlədik, tərpənmədi.Sürücü gəlib sükan arxasında əyləşdi, yenə avtobus hərəkətə gətirilmədi. Axırda salondakı sərnişinlər təngə gəlib dedilər ki, qardaş maşını niyə sürmürsən, 20 dəqiqədir gözləyirik? Sürücü isə dilləndi ki, bayramla əlaqədar olaraq iş yoldaşlarımızın çoxu işə çıxmayıb, xətdə cəmi üç avtobus var, hələ mən bir az tez çıxıram.

Düz yarım saatdan sonra avtobus hərəkətə gəldi. Bax , bayram günləri bəzi avtobus marşrutları belə yarıtmaz fəaliyyət göstərib. Ona görə də Yerüstü Nəqliyyat Agentliyi bu məsələləri diqqətdə saxlamalı, problemin həll edilməsinə nail olmalıdır!!!

## Xidmət sahələri camaatı niyə aldadır?!



**Hər bir xidmət sahəsi əhaliyə qanun çərçivəsində xidmət etməyə borcludur.**

Yəni onlar müqavilə şərtlərinə uyğun addım atmalıdırlar. Təəssüf ki, bu, çox vaxt belə olmur. Məsələn, " Azəristiliktəchizat" abonentlərin bəzi hallarda hüququn pozur. Belə ki, mənzillərin qızdırılması zamanı mənzilin kvadratına uyğun olaraq eyvanı( balkonu) da ora daxil edirlər.

Deyin görək, hansı eyvanda istilik sistemi var.Və açıq olan o eyvanı qızdırmaq kimə lazımdır? Heç mənzillərdə istilik sisteminin hamısı normal qaydada işləmir və bəzisi yanmır. Amma buna baxmayaraq, məlum qurum istilik verdi, vermədi bu pulu əhalidən alır. Üstəlik də, mənzillərə verilən istiliyin tempraturu da, yüksək deyil.Bütün xidmət sahələri, ancaq öz mənafeyini düşünür və abonentlərin barəsində fikirləşən yoxdur.

" Azəristiliktəchizat" əgər ədalətli və obyektiv mövqe tutmaq istəyirsə, onda zəhmət çəkib digər xidmət sahələri kimi, mənzillərə sayğac quraşdırsın. Eyni zamanda bütün binalara normal qaydada istilik versin. Bax , bundan sonra bütün narazılıqlara son qoyula bilər!

## Mənzil Tikinti Kooperativləri sakinlərdən artıq pul alır



**Son iyirmi ildə ölkəmizdə sayı- hesabı bilinməyən yüksək mərtəbəli evlər tikilib.**

Bunu keyfiyyətli inşa olunanı da, var keyfiyyətsiz tikiləni də! Aydındır ki, bu binaları da ayrı- ayrı MTK- lar inşa ediblər. Xüsusilə də , Bakıda belə binalar həddindən çoxdur. Bununla işimiz yoxdur. İşimiz onunladır ki, bu binalar tikilib istifadəyə veriləndən sonra sakinlər bir çox çətinliklə üzləşirlər.

Belə ki, Yeni Günəşlidə " Ana Kür" Mənzil Tikinti Kooperativin inşa etdiyi iki binada yaşayan sakinlər deyirlər ki, komendant bizdən artıq pul alır və hər ay məcbur olub, 50 manat artıq pul ödəyirik. Biz başa düşürük ki, orada bizə bir çox xidmətlər göstərilir, amma , vallah, pul o qədər eləmir, axı! Biz deyilənləri dəqiqləşdirmək üçün həmin Mənzil Tikinti Kooperativi ilə əlaqə yaratdıq.

Oranın komendatı bildirdi ki, biz sakinlərdən artıq pul almırıq, nə xidmət göstərilir, onun pulun istəyirik.Blokların işıqlandırılmasından tutmuş, tullantıların daşınması, həyətin süpürülməsinə və mühafizə xidmətinə kimi, hər şey bura daxildir. Bundan başqa, sakinlərdən heç nə tələb etmirik! Bəs, onda camaat niyə narazılıq edir, bax bunu başa düşmək olmur?!

## İşıqlarımız yanmır...



**Biz görmüşük ki, bayram günlərində işıqlar sönməz.**

Amma indi, əksinədir.Yeni ilin ilk günlərindən Yeni Günəşli yaşayış sahəsinin " D" massivindəki 13 nömrəli binada yanvarın 3-də saat 10:30-dan işıqlar söndürülüb. İndi saat 14 olsa da hələ işıqlar yandırılmayıb.

Hansı ki, "Azərişıq" Yeni il qabağı bildirmişdi ki, onlar gücləndirilmiş iş rejimində çalışacaqlar. Belə gücləndirilmiş iş rejimi olar? Çox qəribədir, onlar bayram günlərində adı vaxtlar kimi işləmirlər və işıqlar tez- tez söndürülür. Bu isə əhalinin haqlı narazılığına səbəb olur. Bəs görəsən, "Azərişıq" camaatı niyə aldadır?! Onsuz da bu qurumun rəhbərləri yalan danışmağa öyrəşiblər və axırda da danışdıqları yalanın qurbanı olacaqlar. Onda qoy, onlar nə qədər yalan danışırlar, danışsınlar?!

EMİL FAİQOĞLU



# Elmin yollarında ağaran saçlar...

## *Yanvarın 16-sı Bakı Dövlət Universitetinin kafedra müdiri, professor, sabiq millət vəkili Şamil Qurbanovun Allahın dərgahına qovuşduğu gündür*

**... Biz müəllimlərimizi həmişə çox istəmişik. Ən azından ona görə ki, onlar bizə doğmalarımız qədər əziz olublar... Onlar bizə öz övladları, balaları kimi baxırdılar... Onlar bizə həmişə arxa durublar, kömək olublar, çətin və ağır günümüzdə "qorxma" deyiblər. Belə müəllimləri unutmaqmı olar?! Müəllim adı çox müqəddəsdir. Böyük Zəlimxan Yaqub yazır ki, müəllim Peyğəmbərdir, məktəb Məkkədir. İndi siz təsəvvür edin,görün Peyğəmbər kimi müəllimlər bizə necə dərs deyiblər, düz yol göstəriblər və ən nəhayət, tərbiyə verərək adam eləyiblər...**

Bakı Dövlət Universitetinin ləyaqətli, şərəfli, böyük müəllimlərindən, böyük ziyalılarından və böyük şəxsiyyətlərindən biri də, kafedra müdiri, filologiya elmləri doktoru, professor Şamil Qurbanov olub. O Şamil Qurbanov ki, bu gün də onun rus ədəbiyyatı ilə bağlı, daha doğrusu, böyük rus yazıçıları ilə bağlı bizə oxuduğu mühazirələr hələ də qulağımızda səslənir. Onun qeyri-adi danışığı, bal kimi şirin sözləri və eləcə də xırda addımlarla danışa-danışa hər hansı rus yazıçısının yaradıcılığını təhlil etməsi bu gün də yadımızdan çıxmır. Yadımızdan çıxmayan həm də böyük müəllimin, böyük ziyalının vətənpərvərliyi, millətini və xalqını sonsuz məhəbbətlə sevməsidir. Böyük alim olmaq olar, böyük şəxsiyyət də olmaq mümkündür, amma vətənpərvər olmaq, xalqını və millətini sevmək, onun yolunda şam kimi ərimək və xalqın, millətin yolunda işıq, nur saçmaq hər ziyalıya qismət olmur. Dediyimiz bu dəyərlərin hamısı Şamil Qurbanovda var idi. Çünki Şamil müəllim təpədən-dırnağa bu xalqın, bu millətin dərdini çəkən, müxtəlif təzyiqlərə və təqiblərə məruz qalan böyük ziyalıların yaradıcılığına işıq salan bir günəşə bənzəyirdi. Bəlkə də o günəşin işığı onun doğmalarından çox Azərbaycan xalqının və repressiya dövründə təzyiqlərə və təsirlərə məruz qalmış böyük şəxsiyyətlərin üzərinə düşürdü.

Düşünürük ki, Şamil müəllimin tərcümeyi-halını oxuculara təqdim edək. Onsuz da onu hamı tanıyır. Amma bu, dünyasını dəyişən gündə bu anları xatırlamaq həm də bir savabdır: "Şamil Dünyamalı oğlu Qurbanov 1934-cü ilin mayın 10-da Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində anadan olub. O, orta məktəbi bitirəndən sonra 1955-1960-cı illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində ali təhsil alıb. Şamil Qurbanov əmək fəaliyyətinə "Azərbaycan məktəbi" jurnalı redaksiyasında ədəbi işçi kimi başlayıb. Bir müddət Universitetin jurnalistika fakültəsində baş laborant işləyib, sonra aspiranturaya daxil olub və 1965-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək, filologiya elmləri namizədi, alimlik dərəcəsi alıb. O, 1965-1968-ci illərdə "Bakı" qəzeti redaksiyasında elm və mədəniyyət şöbəsinin müdiri işləyib. Şamil Qurbanov 1968-ci ildən etibarən əmək fəaliyyətinə pedaqoji işlə başlayaraq universitetin müəllimi və dosenti kimi çalışıb. O, 1975-ci ildə doktorluq dissertasiyasını müdafiə edib, 1980-ci ildə isə professor, elmi adını alıb. Şamil Qurbanov 1981-1991-ci illərdə universitetin filologifa fakültəsinin qiyabi və axşam şöbələrinin dekanı olub. 1989-cu ildən ömrünün sonuna qədər Şərqi slavyan və türk xalqları ədəbiyyatı kafedrasının müdiri vəzifəsində çalışıb. O, birinci və ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub". Böyük ziyalının başqalarından fərqləndirən əsas xüsusiyyətlərdən biri o idi ki, müəllim adını hər şeydən üstün tuturdu. Ona dəfələrlə yüksək vəzifə də təklif edilmişdi. Amma Şamil Qurbanov müəllimlikdən o yüksək vəzifəyə getməmişdi və demişdi ki, mənim üçün dünyada bu peşədən uca heç bir şey yoxdur. Əlbəttə, müəllim adını, müəllim şərəfini həmişə qoruyan, bu ada hörmət, ləyaqət gətirən Şamil müəllim başqa yol tuta da bilməzdi. Çünki Şamil Qurbanov bir gün auditoriyaya girməsəydi, bir gün mühazirə oxumasaydı, bir gün tələbələrlə ünsiyyətdə olmasaydı, sanki onun havası, suyu, çörəyi çatışmırdı. Elə tələbələr də bu xüsusiyyətinə görə Şamil müəllimi çox istəyirdi. Bizə dərs deyəndə və mühazirə oxuyanda o hər bir tələbəyə xüsusi diqqətlə yanaşır, onların çətinliklərini öyrənir, kasıb və imkansız ailədən çıxan uşaqlara xüsusi qayğı göstərərdi. Çünki onun özü də zəhmətkeş bir ailədə böyümüş, çətinliklər görmüş və sıxıntılar yaşamışdı. Ona görə də Şamil müəllim keçmişini heç vaxt unutmur, tələbələrinin həmin sıxıntıları yaşamamaları üçün əlindən gələni əsirgəmirdi.

Bir faktı da qeyd edək ki, Şamil Qurbanov çox çətin mövzulara müraciət edib. Dahi Azərbaycan yazıçıları, şəxsiyyətləri və mütəfəkkirləri ilə bağlı arxivlərdə araşdırmalar aparır, sənədlər toplayır, onların üzərinə atılmış qara ləkəni təmizləyərək işıq salırdı. Bu mənada böyük alimin qələmə aldığı "Açılmamış səhifələr", "Ədəbi dostluq", "Ömrün fikir dünyası", "Ömər Faiq Nemanzadə", "Cəmaləddin Əfqani və türk dünyası", "Nəriman Nərimanov dünyası", "Yaxın və uzaq dünyamız", "İstedadlar ocağı", "Klassik rus poeziyası Azərbaycanda" elmi monoqrafiyaları sözün həqiqi mənasında Azərbaycan elmində bir hadisəyə çevrilmişdi. Çünki bir vaxtlar adını çəkdiyimiz Nəriman Nərimanov, Ömər



Faiq Nemanzadə, Cəmaləddin Əfqani ilə bağlı şər qüvvələr ancaq qara fikirlər təbliğ edirdilər. Bu qara fikirləri aradan götürmək və əsl həqiqəti arayıb-axtarmaq və ortaya çıxarmaq elə də asan deyildi. Çünki Şamil Qurbanov bu şəxsiyyətlərin üstünə işıq saldıqca bəzən ona "çox sağ ol" demək əvəzinə təzyiqlər də olurdu. Ancaq buna baxmayaraq, bu böyük alim illərlə arxivlərdə axtarış və araşdırma apararaq əsl həqiqətləri üzə çıxardı və böyük elm ictimaiyyəti də onu alqışladı.

Akademik Misir Mərdanovun Şamil Qurbanov haqqında bir xatirəsi yadımıza düşür: "Mən riyaziyyatçıyam, filoloq deyiləm. Amma mən bilirəm ki, Şamil Qurbanov nədən yazır-sa-yazsın, mütləq o, yeni amillərə, deyilməmiş problemlərə toxunur, yeni məsələlərə nüfuz eləyir, oxucunun zövqünü oxşayan, biliyini artıran, yadda qalan maraqlı əsərlər meydana çıxarır. Mən onun mənə bağışladığı bütün əsərləri yüksək dəyərləndirirəm. Bu mövzuların əksəriyyətindən birinci Şamil Qurbanov yazmış və özü də yaxşı yazmışdır".

Şamil Qurbanov millət vəkili kimi də, ictimai-siyasi xadim kimi də həmişə öz dəstxətti ilə, haqq sözü ilə, haqqı-ədaləti demək-lə fərqlənib. O, heç kimdən və heç nədən çəkinmədən Jak Şirakın cavabını verdi və dedi ki, bu xalqın əsəbləri ilə oynama!Şamil müəllim heç nədən qorxmadan onu da dedi ki, Jak Şirak qudurub! Bax, indi də sağ olsaydı, yenə də heç nədən qorxmadan və çəkinmədən deyərdi: "Makron qudurub!". Əlbəttə, bu fikri səsləndirməyə və deməyə ürək lazım idi, vətənpərvərlik lazım idi, millətə və xalqa böyük sevgi lazım idi. O da son nəfəsinə qədər millətinə və xalqına sadiq oldu və günlərin bir günündə də, yəni 2004-cü ilin yanvarın 16-da 70 yaşında Allahın dərgahına qovuşdu.

...O, ağsaçlı, nurani, müdrik və böyük ziyalı bizim aramızdan çox tez getdi. Yaşasaydı, neçə-neçə elmi əsərlərin, monoqrafiyaların müəllifi olardı... Yaşasaydı, öz xalqına və millətinə bir qədər də şərəf və namusla xidmət edərdi... Yaşasaydı, bu gün Qarabağın azad olunmasını görəydi və ürəyi dağa dönərdi... Amma Şamil müəllim 70 il yaşadı, kişi kimi də ömür sürdü və kişi kimi də Allahın dərgahına qayıtdı. Məzarın nurla dolsun, Şamil Qurbanov!

Yazımızı Xalq şairi Zəlimxan Yaqubun Şamil Qurbanova həsr etdiyi "İşığın mübarək" şeiri ilə tamamlamaq istəyirik:

***İşığın mübarək Şamil qardaşım,***
***Adında şam sözü alışıb yanır.***
***Səni oxuduqca ucalır başım,***
***Hər sətirin içindən bir şam boylanır.***

***İkinci taleyi sən bağışladın,***
***Yatmış imzalara, batmış adlara.***
***Təzə nəfəs verdi ünvanın, adın,***
***Yenidən doğulmuş istedadlara.***

***Sən fikrin sünbülü, mən şeirin dəni,***
***Yolunda hər şeyə hazıram, hazır.***
***Haqqında yazdığım beş-üç kəlməni,***
***Qələmim yazmır ki, ürəyim yazır.***

***Nura bənzədirəm alın tərini,***
***Önünə dağ çıxdı, qarşına dərə.***
***Elmin açılmamış səhifələrini,***
***Çevirdin açılmış səhifələrə!***

***Yeridin, başına səpələndi qar,***
***Baxmadın yolların uzaqlığına.***
***Elmin yollarında ağaran saçlar,***
***Döndü bir millətin üzağlığına!***

**Səməndər MƏMMƏDOV,**
**Faiq QİSMƏTOĞLU**

---

## *SOS: Zəngəzurun qədim abidələrinin "təmiri və bərpası" nəyə xidmət edir?*

**Xəbər verdiyimiz kimi ermənilər qədim Azərbaycan torpaqlarında ulu babalarımız tərəfindən inşa edilmiş abidə, kilsə və monastrları tam mənimsəmək və dünyaya "qədim erməni mədəni irsi" kimi sırımaq üçün "təmir və bərpa" işlərinə hələ ötən ildən başlayıblar.**

Adalet.az xəbər verir ki, erməni mediası təmir və bərpa adı altında Azərbaycanın irsinin silinməsi prosesinin Zəngəzurda başladığını deyir.

Beləki, media yazır ki, Zəngəzurun Meğri rayonunda yerləşən Müqəddəs Yəhya kilsəsində bərpa işinə başlanılıb. Adına həm də Müqəddəs Hovannes monastır kompleksi də deyilən abidədə aparılan qazıntılar zamanı XII-XIII əsrlərə aid ilahilərin (kilsə nəğmələri) fraqmentləri və kilsə qabları aşkar edilib.

Meqrinin ruhani keşişi Rafael Xaçikyan məlumat verib ki, şəhərdə 4 kilsə var:" Onlar həm də digər erməni kilsələrindən onunla fərqlənir ki, onlar yonma daşdan deyil, suyun axını ilə cilalanmış çay daşından tikiliblər".

Qeyd edək ki, ermənilərə aid mənbələrdə deyilir ki, XVII əsrdə tikilmiş Müqəddəs Hovhannes kilsəsi günbəzli kilsələrdən biridir. Meğri şəhərinin şimal dağlıq hissəsində yerləşir. Dördbucaqlı, günbəzli, bazilika



quruluşludur. Kilsə yerli bazalt daşından, günbəzi isə kərpicdən tikilib. Qərbdən şərqə doğru uzanan dördbucaqlı zal iki cüt çəpərlə üç nefə bölünür. Sferik günbəz ibadət zalının mərkəzində yerləşdirilib. İçərisi silindrik, xaricdən çoxbucaqlı, 12 oturacaqlıdır. Tək giriş qərb tərəfdəndir. Kilsənin daxili hissəsi dekorativ kərpic tağlarla bəzədilib. Nişlər və divar tağları aydın ox formasına malikdir. Qərb tərəfdən kilsəyə bitişik düzbucaqlı planlı, yarımdairəvi nefli, üç tağlı açıq zal olub. Təəssüf ki, internet üzərindən axtarışlarım zamanı Azərbaycan tərəfin həmin monastırla bağlı heç bir qeydinə rast gəlmədim. Yaxud da, Monastır aydın şəkildə tarixçilərimiz tərəfindən zamanında yaxşı araşdırılmayıb.

**Əntiqə Rəşid**

---

## Beynəlxalq İQ Reyestrinin aparatı xarab olub

**Dünya ölkələrinin İQ səviyyəsi ənənəvi olaraq növbəti dəfə müəyyənləşib.**

Adalet.az xəbər verir ki, bu barədə məlumat Beynəlxalq İQ Reyestrinin hesabatında yer alıb. Məlum olub ki, intellektual səviyyəsi ən yüksək olan ölkə Çindir. İkinci yeri İran, üçüncü yeri isə Cənubi Koreya tutub.

Azərbaycan 51-ci sırada yer alıb.

Azərbaycanın qonşuları arasında Rusiya 6-cı, Gürcüstan 21-ci, Türkiyə 46-cı, Ermənistan 9-cu seçilib.

Tədqiqat 2024-cü ildə həmin saytda eyni testi keçən 1 393 066 nəfərin məlumatlarına əsaslanır.

Qeyd edək ki, ötən il - 2023-cü ildə ən yüksək İQ (intellekt) səviyyəsinə malik ölkələrin adları açıqlanmışdı. Birinci onluqda Yaponiya (106.48 İQ), Tayvan (106.47 İQ), Sinqapur (105.89 İQ), Honkonq (105.37 İQ), Çin (104.1 İQ), Cənubi Koreya (102.35 İQ), Belarus (101.6 İQ), Finlandiya (101.2 İQ), Lixtenşteyn (101.07 İQ)və Almaniya (100.74) yer almışdı

Siyahıda Azərbaycan orta 84.81 İQ-lə 83-cü yerdə, Türkiyə 86.8 İQ-lı 76-cı yerdə, Rusiya 96.29 İQ-lə 34-cü, İran 80.01 İQ-lə 114-cü yerdə idi. Son pillədə 42.99 İQ-lə Nepal qərarlaşmışdı.

***P.S.** Maraqlıdır , görəsən Ermənistan hansı elmi- texniki inqilabla Beynəlxalq İQ Reyestrinin hesabatında 9-cu yerə çıxıb? Yoxsa, bu da xristian təəssübkeşliyindən doğan bir nəticədir? Yaxud da, erməni lobbisinin uzun əllərinin yapışdığı növbəti üstünlükdür?*

**Ə. Rəşid**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Sözün unudulmayan Tofiq Abdin

Həyat etibarsızdı. Əslində isə həyatın etibarsız olmasının bir günahkarı da insandı - düşünən, yaradan, quran, dağıdan insan. Əks halda, nə sadaladıqlarım baş verə bilər, nə də dünyada insanın olmaması onun etibarsızlığına kimdəsə şübhə yaratmaz. Əgər biz varıqsa və düşünürüksə, yaradırıqsa, hansısa bir istəyimizdən çıxış edərək hətta dağıdırıqsa, onda günah daha çox bizim üzərimizə düşür.

Görünür elə buna görə ağıllı adamlar həmişə öz tövsiyələrində diqqəti, qayğını, etibarı önə çəkiblər. İnsanın insana dost olmasını, bir-birinin əlindən tutmasını zərurət sayıblar.

Çox təəssüf ki, bu zərurət bütünlüklə reallaşmayıb, yalnız ayrı-ayrı fərdlər bu etiketlərə əməl ediblər və edirlər. Onlar üçün diqqət, qayğı, dostluq, güvən, hər şeydən üstündür.

Yazıma bu girişlə başlamağım səbəbsiz deyil. Çünki barəsində düşüncələrimi bölüşəcəyim şair-publisist, həm də çox qiymətli ziyalı - aydınımız olan Tofiq Abdin türk dünyasında söz sahibi olub, imzası saygı ilə qarşılanıb. Və mən onun çevrəsini, yaradıcılıq dünyasını bildiyimdən həmişə düşünmüşəm ki, bu qəbildən olan insanlar heç vaxt unudulmamalıdılar. Çünki onlar zaman-zaman tanıdıblar, yaşadıblar, təbliğ ediblər. Amma nə yazıqlar ki

İş elə gətirib ki, Tofiq Abdinlə "Ədalət" qəzetində, ədəbi mühitdə sıx təmasımız olubdur. Bir-birimizə saygı ilə, sevgi ilə yanaşıb, bir-birimizlə sözün hər üzünü müzakirə etmişik. Yəni, yazılan, kağıza köçülən hər bir sözə münasibət bildirmək, fikir söyləmək Tofiq müəllimin içindən gələn bir istək idi və "Ədalət" qəzeti işıq üzü görəndə səhərin gözü açılan kimi redaksiyaya birmənalı olaraq ilk zəng vuranlardan biri Tofiq Abdin olurdu. Dərhal da "Əfəndim, günaydın. Yenə "və başlayırdı qəzetin həmin sayında çap olunmuş hansısa bir yazıya münasibət bildirməyə, hansısa bir yazını müzakirə etməyə. Özü də təmənnasız, qərəzsiz, tam yazı adamı kimi, sözlə yaşayan adam kimi və redaksiyaya hər gəlişində də özü ilə həmin ovqatı gətirirdi. Əməkdaşların demək olar hamısı ilə görüşüb hamını salamlayandan sonra qəzet barəsində, yaradıcı kollektiv barəsində fikir deməsi labüd idi. Sanki o, qəzetin kənardan müşahidəçisi, onu izləyib barəsində söz demək haqqını Tanrıdan almış bir bəndə idi. Ona görə də hamımız onu çox istəyirdik

Yenə və Onun təbirincə yazsam - NOT...

Tofiq Abdin özünün işıq üzü görən bütün kitablarını avtoqrafla mənə bağışlayırdı. İndi əlimdə tutduğum və 2009-cu ildə işıq üzü görmüş "Poeziya" kitabına Tofiq Abdin yazıb. "Gözəl şair və insan Əbülfət Mədətoğluna ən xoş arzularımla. Tofiqdən 14.04.2009".

Tofiq Abdin şair və publisist kimi sözün təkcə çəkisini yox, həm də onun tutumunu da hiss edirdi. Ona görə də onun publisistikasında, elə poeziyasında da ağır bir sanbal var idi. O nədən yazırdısa oxucunun diqqətini ora yönəldə bilirdi və bir də maraqlı o idi ki, Tofiq Abdin yazılarına verdiyi adları sanki yazıdan əvvəl dünyaya gətirirdi. Ona görə də yazının başlığı oxucunu çəkirdi. Və başlayırdın oxumağa. Oxuyanda artıq ikinci bir məqamla qarşılaşırdın və görürdün ki, başlıqla bu ikinci məqam arasında ilk nəzərdə bir yaxınlıq görmədiyin halda sən demə elə bunlar bir-birinin içərisində imiş. Məsələn, "Yaş yandırır gözümüzü" olduğu kimi:

*Göyün buludlunun yağışı yoxdu,*
*Dağın yamacının yoxuşu yoxdu,*
*Ananın oğula qarğışı yoxdu,*
*Səni kim qarğıdı -*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*

*Dəniz gəmilərsiz dəniz deyilsə,*
*İçimiz - çölümüz təmiz deyilsə,*
*İncimə bizdən,*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*

*Neçə yol Göyçaydan keçib gedirik,*
*Yolüstü biz yeyib-içib gedirik,*
*Sən çimdiyin çayda çimib gedirik,*
*Vaxt olmur dönməyə məzarın üstə,*
*Ağrıdır, acıdır dönüklük bizi,*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*

*Bu yerin daşının yaşı bilinməz,*
*Ağlayan gözlərin yaşı bilinməz,*
*Ustadlıq bilinməz, naşı bilinməz,*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*



*Şeir adlı təsəllimiz sən idin,*
*Şair adlı təsəllimiz idin,*
*"Ölümmü qədrimi biləsən" dedin,*
*Əsr, o əsr deyil,*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*

Yəqin ki, bu şeiri oxuyanda siz də mənim dediyimlə müəyyən mənada razılaşdınız. Çünki gözümüzü yaşın niyə yandırdığı şeiri oxuyanda artıq bizə bəlli oldu.

Bildik ki, Əli Kərim ünvanlı bir şairi itirmək nə deməkdir. Anladıq ki, Əli Kərim bir şair olaraq ölməyə tapdığı vaxtla əslində ölümsüzlüyə köçərək, yaşayış yerini dəyişib söz ömrü qazanıb. Ona görə də ölümün qədrini bilmək lazımdır. Çünki ölüm Əli Kərimin qapısını vaxtsız döysə də, o Əli Kərimi bizdən yaxşı qiymətləndirdi və biz də onu itirəndən sonra artıq gözümüzü yaşın niyə yandırdığını düşünməyə başladıq

Və yaxud Tofiq Abdin dünya şöhrətli ifaçı Vaqif Mustafazadədən yazanda hamıya bəlli olan bir gerçəyi misralara köçürür. O gerçək də Vaqif Mustafazadənin doğulduğu məmləkətdə öz gerçək dəyərini ala bilməməsidi. Onun ifası, onun barmaqlarının "qızıldan" olması Azərbaycanda heç kimin diqqətini çəkmir. Onun ürəyinin piano ilə birlikdə döyündüyünü, nəfəs aldığını Azərbaycanda duymurlar, amma dünya onu duyur, dünya onu görür. Çünki o, qeyri-adi ifaçıdı. Caz musiqisinin yeni nəfəsidi. O nəfəs Bakıdan yayılır dünyaya. Bax, bunu şeirləşdirən isə Tofiq Abdindi. Ona görə də yazır:

*Yurdundan çox*
*orda-burda*
*öz ömrünü yaşadı,*
*Nota döndü,*
*suya hopdu,*
*hava oldu,*
*ömrümüzün yaşıdı.*
*Cansız nota can verməkdək*
*barmaqları incəydi.*
*Kim deyər ki,*
*bu barmaqlar*
*harda, nə vaxt dincəldi?!*
*Qara mərmər pianodur*
*məzarının başında*
*Çalanı yox, çalanı*
*Kim deyir ki,*
*bu dünyada o olmayıb, yalandı!*

Və şeirində də hər kəsə içindən gələn bir çılğınlıqla sanki diktə edir, sübut edir, göstərir ki, o bu dünyada var, olub və olacaqdır. Onun barmaqları dünyanı gəzəcək və hər kəs də o barmaqların qarşısında baş əyəcək və onu alqışlayacaqdı, özü də ayaq üstə. Zaman da göstərdi ki, Tofiq Abdinin şeir dili ilə dediyi həqiqət birmənalıdır.

Tofiq Abdinin Ppoeziya " kitabında şeirimizin bütün çalarlarını özündə yaşadan, özündə daşıyan nümunələr var. Onların hər biri ilə baş-başa qalmaq , həmin o ovqatın içərisində olmaq deməkdir. Çünki istər poemalarda, istər ayrı-ayrı şeirlərin özündə Tofiq Abdin təkcə yazmır, danışmır, həm də öz qəhrəmanları ilə üz-üzə oturub söhbət edir, istər Rəsul Rza ilə, istər Əliağa Kürçaylı ilə, istər Aydın Məmmədovla, istər Osman Sərvərli ilə Yəni onun həmsöhbətləri təkcə tanıdığımız adamlar yox, həm də sevdiyimiz, xatırladığımız insanlardı. Üstəlik də onun öz qanından, canından olanlara yazdığı şeirlərində də o həmsöhbətlik öz missiyasını, öz əlaqələndirmə bacarığını arxa plana keçirmir. Orda da oxucu Tofiq Abdinin yanında olur. Baxmayaraq ki, bəzən Tofiq Abdin özü-özünü ittiham edir, özü-özünü qınayır, necə deyərlər, bütün hallarda o Tofiq Abdin olaraq qalır və yazır:

*Mən qaçdım, yoxsa ki, məni qovdular,*
*yaman ayrı düşdüm eldən-obadan.*
*Gəldim bu şəhərə,*
*burdakı yadlar*
*götürmək istədi məni aradan.*

*Ayrıldım gördüm ki, orda bir kənd var,*
*orda mənsiz ölür doğmalar.*

*Orda bir ev var ki, aralıyam mən,*
*İndi düşünürəm mən niyə gəldim?!*
*Orda xəstələndi ixtiyar nənəm,*
*nə dadına çatdım, nə yetə bildim.*

*O nədir, hasartək aralı durar,*
*Orda mənsiz ölür mənə doğmalar.*

Bu şeirdəki ovqat qaçqınlığın, yurdsuzluğun, vətəndə vətənsizliyin poetik ifadəsidir, məzmunudur. Amma həm də Tofiq Abdinin özünün özünə ittihamıdı. İçində cavabı hazır olan ittihamdı Oxuyanda bilirsən ki, digər qaçqınlar kimi Tofiq Abdin də Zəngilandan qaçmayıb, qovulub, özü də silah gücünə. Və o da bütün qaçqınların yaşadığı ağrı-acını yurd itirən insan kimi canından keçirib. Baxmayaraq ki, əsl həqiqətdə Tofiq Abdin Bakıda yaşayıb, amma eli, obası, tanıdığı, bildiyi adamlar qaçqın düşəndə, onların qaçqın taleyi onun taleyi ilə birləşib, qovuşub. Doğma sevinc kimi, doğma kədər də bir-birinə sarılıbdı. Bu isə qədərdi, alın yazısıdı. Onu şeirə çevirmək də Tofiq Abdin qələminin gücüdü.

Bəli, heç vaxt unutmadığım və hər dəfə də "Əfəndim" sözünü harda eşitməyimdən asılı olmayaraq dərhal xatırladığım Tofiq Abdinin "Poeziya" kitabı məni yenə onunla görüşdürdü, yenə xatirələrə çəkib apardı. Ruhun şad olsun Tofiq Abi!..

## Səhiyyə Nazirliyindən yeni yayılan virusla bağlı açıqlama

**Hər il Şimal Yarımkürəsində yerləşən ərazilərdə soyuq aylarda (əsasən dekabr-mart aylarında) mövsümi qrip (influenza) və digər kəskin respirator virus infeksiyalarının müxtəlif ştamları yayılır.**

Adalet.az xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb. Bildirilib ki, rəsmi mənbələrdən alınmış məlumatlara əsasən sözügedən xəstəliklərin daha bir təzahürü olan metapnevmovirus üzrə qeyri-stabil epidemioloji vəziyyət Çin, Qazaxstan və Rusiya Federasiyasında müşahidə olunur.

"Metapnevmovirus mövsümi xarakter daşıyan qripəbənzər respirator xəstəlikdir. Bu virus bütün dünyada geniş yayılıb və kəskin respirator virus infeksiyalarının tipik patogenlərindən biridir. Metapnevmovirus bir çox digər kəskin respirator virus




infeksiyalarına xas olan öskürək, burun tutulması, burun axması, hərarətin yüksəlməsi, nəfəs darlığı, səsin boğulması kimi simptomlarla təzahür edir.

Bu infeksiyaya əsasən kiçik yaşlı uşaqlar və immuniteti zəif olan şəxslər yoluxur. Virus yuxarı tənəffüs yollarında inkişaf edir və digər virus xəstəlikləri kimi adətən 7-10 gün ərzində aradan qalxır. Immun sistemi zəif olan və ya yanaşı xəstəlikləri olan (məs., bronxial astma, ağciyərlərin xroniki xəstəlikləri) insanlarda bronxit və ya pnevmoniya ilə ağırlaşa bilər.

Bunu da qeyd etmək lazımdır ki, yanaşı xəstəlikləri olmayan şəxslərdə respirator infeksiyalar əsasən fəsadsız keçir, qısa müddət ərzində öz-özünə sağalma ilə nəticələndiyindən müalicə adətən simptomlara görə aparılır.

Belə xəstələrdə laborator müayinə nəticəsində virusun dəqiqləşdirilməsi müalicəvi yanaşma baxımından xəstə üçün heç nəyi dəyişmir.

Beynəlxalq protokollara əsasən bu cür müayinələrin rutin aparılmasına ehtiyac yoxdur.

Ölkə ərazisində epidemioloji vəziyyətə nəzarət, epidemik dövrdə qripin hansı ştamlarının dövr etməsini müəyyən etmək üçün Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinin müvafiq laboratoriyasında xəstələrin burun-udlaq nahiyəsindən götürülmüş yaxmaların molekulyar üsulla (PZR) müayinəsi aparılır.

Əhalinin sağlamlığının qorunması və yoluxma hallarının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi xüsusilə yüksək həssaslığa malik şəxslərə kütləvi tədbirlərdə və insanların sıx toplaşdığı məkanlarda tənəffüs yollarını qoruyan fərdi qoruyucu vasitələrdən (tibbi maskalardan) istifadə, həmçinin əl gigiyenasına riayət etməyi, gündəlik qidalanma rejiminə bol vitaminli ərzaqların daxil edilməsini tövsiyə edir.

Hər hansı respirator simptomları olan şəxslərin ev şəraitində simptomatik müalicə alması məqsədəuyğun hesab olunur.

Bununla yanaşı, respirator virus infeksiyaları üzrə risk qrupuna daxil olan şəxslərin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən elan olunmuş qrip əleyhinə vaksinasiyadan keçməsi tövsiyə olunur.

Hər bir vətəndaş sağlamlığına xüsusi diqqət və məsuliyyətlə yanaşmalı, özünü və ətrafındakıları infeksiyalara yoluxmadan qorumalıdır".

# BURNUMUN UCUNU GÖYNƏDƏN GÜNLƏR

## Dostum Elməddin Sərdara
## (Ağdamlıların oxuması qəti qadağandır)

Kupedə məndən başqa üç nəfər də vardı. Biri Ağcabədidə kolxozlardan birinin sədri idi, nəinki sədrə, heç briqadirə də oxşamırdı. Çox arıq idi. Tanıyırdım, atamın dostuydu. O da məni tanıdı. İçəri girən kimi soruşdu ki, sən Abbasovun universitetdə oxuyan oğlu deyilsən? Dedim, hə. Qucaqlayıb basdı bağrına, bir doğması kimi.

Biri rusuydu, Ağdamda zavod tikirdi. Camaat bu zavoda Düymə zavodu deyirdi. Az qala bir iliydi bu şəhərdə yaşayırdı, dilimizi də öyrənmişdi. Biri isə erməniydi, Stepanakertdə İpək fabrikinin baş mühasibi idi. Əslində kolxoz sədrinə daha çox o oxşayırdı.

Qatar yerindən tərpənən kimi erməni bələdçini çağırıb bir onluq verdi və dedi ki, bura təmiz bir süfrə gətir. Təmiz süfrəni gətirdilər və sərdi stolun üstünə. Sonra da çantasından bir çolpa çıxarıb qoydu süfrəyə, müxtəlif turşular qoydu, kolbasa qoydu, hətta göy-göyərti də qoydu.

Təbii ki, ağdamlıların Stepanakertdə dostları vardı. Bu dostlarının qohum-əqrəbalarında, ya da özlərində yas düşürdü. Ağdamlılar da o yasa gedirdi. Əslində başsağlığı verməkdən daha çox, yemək-içməyə, çünki ermənilər yasda süfrəyə bircə quş südü qoymurdular. Toyda nə vardısa yasda da o idi, süfrələri zəngin olurdu.

Bir dəfə Kino Fazil babat vurandan sonra demişdi:

-Təki sizdə ölənlər çox olsun, biz də gəlib yeyib-içək.

Məclisə pərtlik düşmüşdü.

Erməni bir dənə də araq çıxartdı və dedi:

- Bu tutovkadı, Gevorqov Konyak zavodunda düzəltdirir qonaqlarıyçün, bir də Bakıya SK-ya da göndərir. Deyilənə görə, bayramlarda Moskvaya, SK-ya pay verir. Mikoyana da asobu yollayır.

Sonra bələdçidən dörd dənə də stəkan istədi. Stəkanlara araq doldurub, azərbaycanlılar kimi dedi ki, bismillah edin. Hərə çolpadan bir tikə götürdü, mən də bir qıça çörək, iki qıça da kolbasa götürdüm.

Erməni dedi:

- Qorxma, ürəklə ye, donuz əti deyil, mal kalbasasıdı. Evdə özümüz hazırlamışıq.

Stəkanları götürdülər, yol yoldaşlığının sağlığına badə qaldırdılar.

Rus dedi:

- Yol yoldaşı əsgər yoldaşı kimi bir şeydi, bir dəfə qatarla gedirsən, amma onu heç vaxt yadından çıxarmırsan.

Mənim içmədiyimi görən erməni:

- Ay bala, götür ey, bu araq deyil, baldı bal.

Mənim əvəzimə kolxoz sədri dilləndi:

- Ə, uşaqla işiniz yoxdu. Onun dədəsi də əlində o boyda vinzavod ola-ola indiyəcən bir qurtum da içməyib.

Yenə sağlıqlar, ermənilərlə azərbaycanlıların dostluq sağlığı, erməni və azərbaycanlıların ruslarla dostluq sağlığı, sonra da keçdilər fərdi sağlıqlara. Araq doğrudan da bal kimi getdiyindən erməni ikinci butulkanı da çıxartdı.

Kolxoz sədrinin dərdi açılmışdı:

- Vallah, bu pripiskaya görə bir gün bizi minəcəklər. Bakıda türmə rəisi qalmıyıf bayramlarda pay göndərməyim. İndidən özümə dost tuturam, əvvəl-axır ora gedəjiyik.

Erməni onun sözünə qüvvət verdi:

- Bizim fabriki yoxlasalar hamımızı, hətta Gevorqovu da güllələyəcəklər.

Söhbət bir az da uzandı.

Mənim yerim aşağıda olsa da çıxdım yuxarı, kolxoz sədrinə dedim ki, dayı, sən aşağıda yat. Rus da yuxarı çıxdı, çünki erməni elə oturduğu yerdə yatmışdı, səhərədək də xoruldadı.

Kolxoz sədri gileyləndi:

- Əclaf bir tikə çörək vermişdi, xorultusuyla səhərədək burnumuzdan gətirəjək.

İçkinin təsirindən tezliklə hamı yatdı, onlar da xoruldamağa başladı, zəhlətökən bir musiqi yaranırdı. Mən heç yata bilmədim.

Nəhayət, qatar gəlib Ağdam vağzalında dayandı. Əvvəllər qatar Yevlağa gəlirdi, burda böyük bir vağzal vardı. Ağdam cavanları zarafatla Yevlax uşaqlarına "vağzal uşaqları" deyirdilər. Sonra qatar Ağdama gəldi, ondan sonra Ağcabədi uşaqları bizlərə "vağzal uşaqları" deməyə başladılar. Nədənsə ağdamlılar bundan incimirdi.

Qatar vağzala çatıb silkələnib nəfəsini dərəndən sonra hamı çantasını, çamadanını götürüb tez-tələsik qatardan düşdü. Mənim də əlimdə iki "Nağıl" tortu vardı.

Taksi sürücüləri çığırırdılar:

- Ağcabədiyə üç nəfər.
- Şuşaya iki nəfər.
- Laçın Laçına gedən.
- Mərziliyə.
- Xaçınstroya.
- İspanakertə.

Kolxoz sədrini görən kimi iki taksi sürücüsü cumdu üstünə:

- Buyy, əşi xoş gəlmisən. Buyur, buyur.

Az qaldı sürücülər sədrin üstə dalaşsınlar. Sədr də davanı kəsmək üçün dedi:

- Ə, siz belə eləyin, biriniz mənim çamadanlarımı aparsın, biriniz də məni.

Həqiqətən də elə oldu. O, qabaqdakı taksiyə oturub getdi, o biri taksi də sədrin çamadanlarını baqaja yığıb düşdü onların dalınca.

Erməni İspanakert çağıran sürücüyə yaxınlaşıb soruşdu:

- Stepanakertə neçəyə gedirsən?

- On beş manata.

Erməni başını buladı:

- Bakıdan Ağdama üç yüz əlli kilometrlik yolu səkkiz manata, Ağdamdan Stepanakertə iyirmi beş kilometrlik yolu on beş manata. Bir Allahınız olsun də.

Sürücü:

- Neyniyək, biz də çörəyi belə qazanırıq.

Erməni:

- Yaxşı, qırx manat verəcəm, amma tək gedəcəm, başqa adam götürmə.

Sürücü:

- Ə, şandığa, onsuz da sən iki nəfər boydasan.

Razılaşdılar və erməni də taksiyə oturub getdi.

Mənsə gözləyirdim görüm şəhərə gedən taksi varmı, amma hamı Ağcabədi, Stepanakert, Şuşa, Laçın, Mərzili çığırırdı.

Hirsləndim:

- Bəs, bu şəhərə gedən yoxdu, ay qardaş?

Bir sürücü dedi:

- Ə, Abbasovun oğlu, get otur o gördüyün nol altı altmış ikiyə, üç nəfər də müştəri tapım gedək.

Nəhayət, sürücü üç nəfər də müştəri tapdı, düşdük yola.

Birini tanıdım, bizim məktəbdə fizika-riyaziyyat müəllimi olmuşdu. Çox savadsız bir müəllimiydi, axırda haqqın yolunu tapıb keçdi milisə. Dəmir yol vağzalında rəis idi. İki nəfər isə laçınlı idi.

Sürücü onlardan soruşdu:

- Bəs, Laçına gedən taksilərə niyə minmədiniz?

- İstəyirik bir yaxşı bazarlıq edək.

Sürücü təəccüblə:

- O boyda Bakını qoyub gəlib Ağdamda bazarlıq edirsiz?

- Hayıf deyil Ağdam bazarı? Sonra da gedəcəyik əmioğlugilə. Tanımamış olmazsan Məcidov. O da bir maşın verəcək bizi aparacaq Laçına.

Sürücü:

- Seyidi kim tanımır ki? - sonra üzünü tutdu rəisə; - Kamil məllim, bəlkə sizi səhər-səhər xaşxanaya aparım?

- Ə, nə xaşxana, görmürsən gözümdən yuxu tökülür, məni at evə.

Sürücü:

- Kamil məllim, saallah, bezmirsən hər gün qatarla Bakıya gedif-gəlirsən?

- Neyniyim, vəzifəm budu, öyrəşmişəm təkərlərin taqqıltısına. Hər gün də iyirmidən-iyirmi beşdən olur, Allah bərəkət versin.

Sonra Kamil müəllim məndən soruşdu:

- Tanış gəlirsən, kimlərdənsən?

- Bizim məktəbdə müəllim işləmisiniz.

- Harda oxuyursan?

- Universitetdə.

- Mən sənə dərs demişəm?

- Xeyr. Siz B sinfinə dərs deyirdiniz.

Müəllim gülüb dedi:

- Deyirəm, axı, sənə dərs desəydim universitetdə yox, Səyyaf müəllimin peşə məktəbində oxuyardın.

- Məllim, niyə elə deyirsiz? B sinfindən də nə qədər uşaq ali məktəbdə oxuyur.

- Bilirəm necə giriblər, dədələrinin pullarıyla.

Sürücü isə başladı şəhərdəki son xəbərlərdən:

- Dünən Qara Elxan bir dostunun toyuna Moskviç salıb. Təzə katib sarsaq danışdığına görə Kolanıda döymək istəyiblər, zorla qaçıb qurtarıb.

- Nə deyirmiş ki?

- Telefonla sovxoza zəng edif, katibə soruşuf ki, kimdi. Onun da qəribə danışığı var axı, deyif ki, qatıfdı. Katibə də qayıdıf ki, qatıfdısa arvadına, bajına qatsın. Katib də hirslənif, ərinməyif oturuf maşına, gedif Kolanıya. Sovxozun direktoruna bağırıf ki, tez ol o katibəni işdən çıxart. Bu vaxt katibənin nişanlısı gəlif, katibə babat bir şapalax qoyuf. İndi yazıq oğlanın işi milisdədi. Ağdam camaatı da pul yığıf ki, nejə olur-olsun bu Kolanı balasını qurtarsınlar. Srağagün də Paxan bazarda bir milsenerə bıçax vuruf. Fazil məllim də təzə gətirdiyi "Fillər mənim dostumdu" kinosundan qazandığı pulu sayırmış. Üç min beş yüzə çatanda buxaltir girif içəri ki, Fazil məllim, Paxan bazarda milseneri bıçaxla vuruf. Fazil məllim də stolun üstündəki pulları əlinin dalıyla vuruf dağıdıf, deyif ki, fillər də belə getdi. İki gündü şəhər bunu danışır. Bir ağcabədili gədə də bir yerdə yeyif-içənnən sonra Kamran Hüseynovun bayısıoğlu İlhamın üzünü lezvayla yazıf. Hayıf, İlham həm yaxşı oğlanıydı, həm də gözəl-göyçək oğlanıydı. Uşaxlar da tökülüf gədəni eşşək kimi döyüflər. Ağcabədili gədə də birtəhər əllərindən çıxıf oturuf maşına qaçıf. İndi uqalovnı rozısk Aliko da onu axtarır. Rayonun zamnaçalniki də nəsə ağdamlıların əleyhinə xoşagəlməz bir söz deyif, Alı da elə restoranının qabağında zamnaçalniki nətər döyüfsə skorıpomoş aparıf.

Gəlib çatdıq Kamil müəllimin evinə. Müəllim maşından düşdü, pul çıxarmaq istəyəndə dedim:

- Məllim, sizin pulunuz çatıb, düşün.

Kamil müəllim:

- Axır ki bir tələbəmdən xeyir gördüm. Sağ ol. - dedi və getdi evinə.

Sürücü laçınlılardan soruşdu:

- Bəs, sizi indi hara aparım, Məcidovgilə?

Laçınlılar:

- Yox, səhər-səhər kişini narahat etməyək. Bir yeməkxananın qabağında saxla.

Sürücü maşını Petro Elbrusun xaşxanasının qabağında saxladı. Laçınlılar maşından düşüb sürücüyə iki onluq uzatdılar.

- Şəhərə adamın birini beş manata gətiririk.

Laçınlılar:

- Götür, on manat da səhər-səhər verdiyin xəbərlərə görə.

- Hə, Abbasovun oğlu, indi də gedəh sizə. Dədən dalınca niyə maşın göndərmiyif?

- Səhər tezdən oyatmağa qıymadım.

- Balaca qardaşın bütün günü şəhərdə maşınla xuliqanlıq edir, görən indi hansısa xaşxanada vurur.

Sürücü yenə şəhərdəki əhvalatlardan danışmağa başladı. Gəlib məhləyə çatanda nə fikirləşdisə maşını fırlatdı geri:

- Bilirsən nə var, biz də getdiy Petronun yanına xaş yeməyə. Qorxma, şotu da özüm verəjəm.

Etiraz eləmədim, çoxdanıydı xaş yemirdim. Qayıtdıq geriyə. Xaşxana adamla dolu idi. Laçınlılar da təzə başlamışdı.

Elbrus məni görəndə qucaqlayıb basdı bağrına:

- Xoş gəlmisən, qaqa, çoxdandı görsənmirsən. Qaqan burdaydı, bir az olar getdi. Keçin oturun, indi sizə asobu xaş verəjəm.

Laçınlılar bu sözdən dilxor oldular:

- Bizə verdiyin oşala suyuydu?

- Qaqa, bizdə oşala suyu olmur, ağlın özünüzə getməsin. Oşala suyu olsaydı bir boşqab xaşı gözünə təpməzdin. İndi də ikinci boşqab istəyirsən. Bu dəfə sizə də asobu xaş verəjəm, mal dırnağından.

Keçib laçınlılarla bir stolda oturduq. Yemək-içmək başladı. laçınlılar da, sürücü də möhkəm vurdular.

Mən sürücüdən soruşdum:

- Qaidən qorxmursan?

- Əşi, yox, bizlə işləri yoxdu. Aylıx haxlarını veririk.

Nəhayət, yeyib-içmək bitdi. Laçınlılar hesabı vermək istədi, mübahisə düşdü.

Sürücü:

- Ə, pulunuzu qoyun civinizə. Siz kimsiniz ağdamlı olan yerdə şot verəsiniz?

Elbrus mənim xətrimə hesabı almaq istəmədi:

- Qonaq olun.

Sürücü onunla da razılaşmadı:

- Petro, pulunu götür. Məllim ayrı vaxt gəlif yeyif-içəndə şotu almazsan. İndi mənim qonağımdı.

Xaşxanadan çıxanda laçınlılar dedi:

- İndi bizi at bazara, bir saatdan sonra da gəl apar Armudun dibinə, çıxaq gedək evimizə-eşiyimizə.

- Bəs, Məcidovgilə gedəsin olmadız?

- Yox, içmiş halda seyid evinə gedərlər?

Sürücü:

- Malades, siz nə panyatkalı oğlanlarsız.

Beləcə qayıtdıq bazara. Laçınlılar düşdü və yenə döndük bizim məhləyə. Düşəndə Kamil müəllimin və özümün pulunu vermək istədim.

- Ə, pulunu qoy civinə, tələbə adamsan. Nolsun dədən sovxoz direktorudu. - dedi və maşını sürüb getdi.

Mən isə əlimdə anamın sevdiyi iki "Nağıl" tortu darvazanı döymək istədim. Amma nə darvaza vardı, nə ev-eşik, nə məni gözləyən anam, nə atam, nə də maşınıyla şəhərdə xuliqanlıq edən qardaşım. Oturdum bir daşın üstündə hıçqırdım, hönkürtü məni tutdu. Amma ağlaya bilmədim. Gözümdən yaş gəlmədi, göz yaşım 93-cü ildən qurumuşdu.

Həəə, bura Ağdam idi.

# İki əl boyda kitabdakı sirli dünya

**Ötən ilin sonlarında dəyərli dostum, tanınmış şair-publisist, AYB-nin Mingəçevir bölməsinin rəhbəri, əslində həm də onun yaradıcısı İsmayıl İmanzadə redaksiyamıza gəlmişdi. Elə buradaca vurğulayım ki, İsmayıl müəllim Bakı səfərlərində heç vaxt məni unutmayıb. Yəni görüşüb həmsöhbət oluruq, qayğılarımızı bölüşürük, ailəmizdən, özümüzdən, yaradıcılıqdan söhbət edirik. Təbii ki, çay süfrəsinin davamı bəllidi, amma ən zəruri olan odur ki, bizim bir-birimizə olan sayqı və sevgimiz təmənnasız, həm də safdır.**

Bəli, İsmayıl müəllim budəfəki görüşümüzdə mənə özünün uşaqlar üçün yazdığı şeir kitablarını da verdi. Həmin kitabların biri "Mən atamın qızıyam", digəri isə "Hər çəməndə bir çiçək" adlanır. Deməli olar ki, əl boyda olan bu kitablar rahatlıqla pencəyin qoltuq cibində istədiyin yerə apara biləcəyimiz bir ölçüdə, rəngli şəkildə çap olunub. Tərtibatı maraqlı və diqqətçəkən olan bu kitabların balaca qəhrəmanları ilə söhbət etdikcə mən də ötən illərə qayıtmış kimi olurdum.

Övladlarımın, nəvələrimin uşaqlığını xatırlayırdım və tam səmimi deyim ki, İsmayıl qardaşımın uşaq dünyasına bu qədər bələdliyi barədə heç düşünməmişdim. Amma şeirlər özü mənə o bələdçiliyi sanki xırdalamağa, təqdim və həm də kökləməyə başladı. Yəni, təqdim olunan şeirlər ruhuma doğma gəldi. Onları mən rahatlıqla özümə köçürtdüm. Məsələn, şairin "Azərbaycan bayrağı" şeirinə diqqət yetirəndə burdakı fikir və uşaq düşüncəsinin nə qədər bir-birinə yaxın olduğunu açıq şəkildə görmək mümkündür. Şair yazır ki:

***Savalandı, Kəpəzdi,***
***Şöhrəti eldə gəzdi.***
***Dağ kimi yenilməzdi,-***
***Azərbaycan bayrağı.***

***Üç rəngi üç yozumda,***
***Dil açıbdı yazımda.***
***Dalğalanır arzumda,-***
***Azərbaycan bayrağı.***

***Ay-ulduzu tamaşa,***
***Vətənimlə baş-başa.***
***Səs salıb dağa-daşa,-***
***Azərbaycan bayrağı.***




***Keçib oddan, alovdan,***
***Üstünə çilənib qan.***
***Başım üstədir hər an,-***
***Azərbaycan bayrağı.***

***Haqqın dönməz yoludur,***
***Müqəddəsdir, uludur.***
***Azadlıq simvoludur,-***
***Azərbaycan bayrağı.***

Bu şeiri oxuyan məktəbli, kiçikyaşlı övladlarımız ,mən əminəm ki, rahatlıqla onu yaddaşına köçürə biləcəkdi. Çünki sözlər sadə, diləyatımlı, fikir hər kəs üçün qəbul olunan və ən vacibi də bayrağımızın təsviri. Elə bil ki, şair bu şeiri kiçik yaşlı oxucusuna söhbət kimi, rəsm kimi danışıb göstərir . Və yaxud başqa bir şeirində:

***Ana yurdun sevimli,***
***Nazlı balası Şuşa.***
***Ərənlərin qibləsi,***
***Qeyrət qalası Şuşa.***

***Bir aləmdir əzəldən***
***Daşaltı, Cıdır düzü.***
***Kirsə heyran qalıbdı***
***Şimşək donlu göy üzü.***

***Xəyalım dolaşanda***
***"Turşsu"da, Topxanada,***
***Hey düşür xarıbülbül,***
***"İsa bulağ"ı yada.***

***Sar qartal yuvasında***
***Bala böyüdə bilməz.***
***Düşmən fitnə-fəsadla***
***Uzağa gedə bilməz.***

***Bir gün yenə nəğmələr***
***Gəzib dolaşar dağı.***
***Dalğalanar Şuşada***
***Azərbaycan bayrağı.***

Şuşanın hər birimiz üçün hansı mənanı kəsb etdiyini xatırlatmağa zənnimcə ehtiyac yoxdu. Amma onu balalarımıza tanıtmaq, göstərmək və Şuşanın hər birimiz üçün əhəmiyyətini onlara sadə bir şəkildə çatdırmaq bizim borcumuzdur. Bir vətəndaş olaraq, bir Azərbaycan insanı olaraq biz bütövlükdə ölkəmizi övladlarımıza tanıdıb sevdirməliyik. Bu "Şuşa" şeiri də həmin istiqamətdə atılan addımdı. Şair rəssamlıq edərək nağılvari bir şəkildə Şuşanı öz balaca oxucularına tanıdır, onun özəlliyini və gözəlliyini adi sözlərin vasitəsilə uşaqların yaddaşına hopdurur. Şeiri oxuduqca buradakı ritm, diləyatımlıq yaddaşa hopma imkanları adamın içində xoş bir təəssürat yaradır. İnanırsan ki, kiçikyaşlı oxucu bu şeiri çox qısa bir müddətə əzbərləyə bilər.

Ümumiyyətlə, "Mən atamın qızıyam" kitabında yurd yerlərimizlə, coğrafiyamızla bağlı çoxlu şeirlər yer alıbdır. Onların içərisində Araz, Xarıbülbül, Qarabağ, Göygöl, Ana dili, gerbimiz, himnimiz və s. ilə bağlı bir-birindən maraqlı şeirlər xüsusi ilə diqqət çəkir. Müəllifin uşaqlar üçün təbiətlə bağlı kəpənək, günəbaxan, yovşan, dağ, dərə, sünbül, çəpiş, qaranquş və digər təbiət təmsilçiləri ilə bağlı şeirlərində də yaratdığı obrazları mükəmməl bir şəkildə öz oxucularının ixtiyarına veribdir.

"Hər çəməndə bir çiçək" kitabında da uşaqların yaşını, dünyagörüşünü, qavramaq imkanını, bir sözlə, onların dünyasını nəzərə alaraq bir-birindən maraqlı şeirlər təqdim edən müəllif kitaba təbiətlə bağlı illustrasiyalar da əlavə edibdir. Bu da müəllifin oxucuya təqdim etdiyi mövzunun qavranmasında təbii ki, müsbət rol oynayır. Və onu da vurğulamaq yerinə düşər ki, İsmayıl İmanzadə uşaqlar üçün yazdığı bu şeirlərdə yığcamlığa, lokonikliyə, xüsusi olaraq sadə , anlaşıqlı dilə üstünlük verir. Ona görə də şeirlər maraqla, həvəslə oxunur. Məsələn:

***Qaratikan,***
***Qarı tikan.***
***Yarı yarpaq,***
***Yarı tikan.***




***Yaxınıma***
***Gəlsən əgər,***
***Ətəyindən***
***Tutub çəkər.***

Və yaxud:

***Bağçada gövdəsinə***
***Dolaşmışdı gül narın.***
***Tikan cızdı əlini***
***Gül dərəndə Gülnarın.***
***Dedi, gözəl olmasa***
***Tikanlı güllər əgər.***
***Onu bağda-bağçada***
***Kim becərər, kim əkər?***

Mövzu baxımdan müəyyən yaxınlıq kəsb edən hər iki şeirdə uşağın gördüyü, bildiyi və müəyyən mənada həm də təmasda olduğu həyat reallığı ifadə olunubdur. Ona görə də bu şeirləri oxuyub yadda saxlamaq heç bir çətinlik yaratmır. Deməli, burda da peşəkarlıq, səriştəlik və həm də uşaqla onun öz dilində həmsöhbət olmaq qabiliyyəti ortaya çıxır.

Bu məharət də şair İsmayıl İmanzadədə birmənalı şəkildə görünür. Deməli, görünən, eşidilən hər nədirsə, o, mütləq təsir yaradır, diqqət çəkir. Bax, beləcə azyaşlıları da sözün işığında təbiətlə təmasa çəkməkdə İsmayıl İmanzadə qələminin imkanları ortaya çıxır. Məsələn:

***Elə bil nar giləsidir,***
***Al günəşin şöləsidir.***
***Ağappaqdır çiçəkləri,***
***Ətirlidir ləçəkləri.***
***Yarpağını saymaq olmur,***
***Meyvəsindən doymaq olmur.***

Və yaxud:

***Qaçırlar yem dalınca,***
***Hər yanda qaynaşırlar.***
***Geriyə qayıdanda***
***Nə azır, nə çaşırlar.***
***Yorulan deyil onlar,***
***Zəhməti xoşlayırlar.***
***Səhərdən axşamacan***
***Həvəslə işləyirlər.***
***Hara üz tutsalar da***
***Geriyə qayıdanda***
***Kiçik xortumlarında***
***Ya bircə tikə çörək,***
***Ya da toxum, dən olur.***
***Yuvaları onlara***
***Sevib xoşladıqları***
***Yurd olur, vətən olur.***

Diqqətinizə təqdim etdiyim iki şeirin birləşmə nöqtəsi var. Yəni hər ikisi ilə təbiətdə qarşılaşmaq, təmasda olmaq mümkündür. İstər şəhərdə olsun, istər kənddə. Deməli, azyaşlıların birmənalı olaraq tanıdıqları gilənar və qarışqa barəsində o qədər sadə və inandırıcı mənzərə yaratmaq lazımdır ki, o, uşağın yaddaşında qala bilsin. Şair İsmayıl İmanzadə də öz qələminə güvənərək gilənarın, qarışqanın özəlliyini uşağın gözü önündə canlandıra bilir. Bu təsvir kiçikyaşlı oxucunun diqqətindən yayınmır, hətta o, tanıdığı, təmasda olduğu gilənarı da, qarışqanı da sanki şeiri oxuduğu an gözünün önündə görür. Bax, bu da kiçikyaşlılar üçün yazıb-yaradan bütün müəlliflər kimi İsmayıl İmanzadənin də zəngin həyat təcrübəsindən və uşaqlara sevgisindən qaynaqlanaraq maraqlı bir ədəbi nümunələrin yaranmasında təsdiqini tapıb.

**Mənim hər iki kitab barəsində yığcam təəssüratımı bölüşməkdə əsas istəyim bu kitabları oxuculara və onların vasitəsilə azyaşlılara tanıtmaqdır. Necə deyərlər, bundan sonrakı iş valideynlərin üzərinə düşür. Övladlarına kitablar vasitəsilə ölkəmizi, təbiətimizi sevdirmək istəyən hər kəs bu kitabları əldə etsə, yaxşı bir ədəbi vəsait qazanmış olacaq. O ki, qaldı İsmayıl İmanzadəyə, mən dəyərli dostuma, sevilən şairimizə yeni yaradıcılıq uğurları diləyirəm.**

**Əbülfət Mədətoğlu**

# "Söz yaddaşı" almanaxı

**Azərbaycanın bütün bölgələrində ədəbiyyat, mədəniyyət təmsilçiləri sözə, saza, musiqiyə verdikləri həyatı rahat yaşayır, yazıb-yaradırlar. Bu da təkcə söz azadlığının, yaradıcı mühitin olmasından qaynaqlanmır. Bu, həm də həmin insanların təbiətən sözə, saza bağlılıqlarından irəli gəlir. Yəni qəlbində, qanında, ruhunda istedad və bir də yaradıcılıq cücərtiləri olan adamlar harda yaşamalarından asılı olmayaraq Allahın onlara verdiyi yaratmaq imkanından bacardıqları kimi istifadə edirlər.**

Bu gün Azərbaycanın söz məkanı çox rəngarəng və zəngindir. Bu zənginliyin içərisində söz adamlarını bir araya gətirən, onların təmaslarını təşkil edən qurumların varlığı da, böyük bir işin vacib tərəfidir. Yəni həmin qurumlar yaradıcı insanları öz çevrəsinə yığıb həm onları qarşılıqlı şəkildə bir-birini oxuyub öyrənməyə, həm də birlikdə sözə xidmət etməyə yönəldir. Bu gün həmin missiyanı ölkənin paytaxtında Azərbaycan Yazıçılar Birliyi yerinə yetirir. Buna paralel olaraq AYB-nin müxtəlif bölgələrdə təmsilçiləri də mövcuddur. Onların arasında AYB-nin Sumqayıt, Lənkəran, Quba, Mingəçevir, Gəncə, Qarabağ və digər bölgələrində fəaliyyət göstərən bölmələr də var ki, bu bölmələrdə həmin ərazidə məskunlaşan söz adamlarının bir növ ümid yeri, toplaşdıqları həmsöhbət, həmfikir olduqları ünvandı. Ötən ilin sonlarında AYB-nin Mingəçevir bölməsinin 25 yaşı tamam oldu. Həm Mingəçevirdə, həm də paytaxtda qeyd olunan bu mötəbər tədbirdə çıxış edənlər tanınmış yazıçımız, şairimiz İsmayıl İmanzadənin rəhbərlik etdiyi Mingəçevir bölməsinin gördüyü böyük və həm də təqdirəlayiq işləri xüsusi qeyd etdilər. Təbii ki, "Ədalət"in oxucuları da bu bölmənin fəaliyyətindən kifayət qədər məlumatlıdı. Dəfələrlə bölmənin çap etdiyi almanaxlar, dərgilər, həmçinin bölmə üzvlərinin yeni kitabları barəsində həm "Ədalət" qəzetində, həm "Ədalət.az", həm də "Yenises.az" saytlarında oxucularımıza geniş məlumat vermişik. Elə 25 illik yubileyini qeyd edən Mingəçevir bölməsi bu tarixi hadisəni yaradıcılıq nümunələri ilə təs-




diqləyərək oxucularını sevindiribdir. Həmin nümunələrdən biri də "Söz yaddaşı" almanaxıdı

Almanax bölmənin üzvü olan şair və yazıçıların əsərlərindən ibarətdir. Bu kitabın giriş sözünün müəllifi olan "Bənövşə" ədəbi dərgisinin baş redaktoru şair-publisist, həm də bölmənin rəhbəri İsmayıl Mərcanlı vurğulayır ki, "Hər deyilən söz dillər əzbəri olmadığı kimi hər yazılan əsər və ya nəşr edilən kitab da oxucular tərəfindən razılıq hissi ilə qarşılanmır. Yalnız ruha dad verib, könüllər oxşayan və zamanın sınaqlarına tab gətirən əsl sənət nümunələri ölümsüz olur!". Zənnimcə bu iqtibas artıq bölmə rəhbərinin oxucuya bir gerçək mesajıdı.

Yəni hər kəsə aydın olan, amma həm də təkrar vurğulanan bir gerçəkdir. Yenidən yaddaşda təkrarlanır, təzələnir. Ölkənin hansı guşəsində yaşamasından asılı olmayaraq oxucu qarşısına çıxan sözün, kitabın hamısı müqəddəs kitabımız qədər önəmli ola bilməz. Çünki söz həm də zamanın süzgəsindən keçməlidir. O süzgəcdən keçib yaddaşa köçən söz əbədiyaşarlıq qazanır.

Bax elə bu almanaxdakı şeir və hekayələrin də hər birini həmin tale gözləyir. Bu kitabda bölmə təmsilçilərinin müəyyən hissəsi təqdim olunubdu.. Onların arasında dünyasını dəyişib haqqa qovuşanlar da var. Amma yaşlı nəsillə yanaşı, gənclərin də bu almanaxda öz sözünü demək haqqını əldə etməsi təbii ki, sevindiricidir. Məncə bu, həm də söz sənətinin inkişafını göstərən bir amildir.

Mən almanaxla gözdən keçirəndə artıq imzası kifayət qədər tanınmış müəlliflərlə yanaşı yeni imzaları da burada gördüm və onları da oxuyanda hiss etdim ki, bu almanax bölmənin yubileyinə, yəni əsrin dörddə biri sayılacaq yaşına çox gözəl hədiyyədir. Və bu, həm də ona görə təqdirəlayiqdir ki, müəlliflərin qələmə aldıqları mövzuların içərisində Böyük Zəfərimiz və Böyük Qayıdış da nəzmə çəkilib. Deməli, Mingəçevirdə yazıb-yaradan söz adamları da bütün Azərbaycanın mövzusu olan Qələbəni, Qayıdışı gözdən qaçırmayıblar. Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş və maraqlı ədəbi nümunələrlə süslənən bu almanaxın ədəbiyyatımıza, ədəbi sözümüzə layiqli bir hədiyyə olduğuna inanır və qələm dostlarına yeni yaradıcılıq uğurları arzu edirəm.

**Əbülfət Mədətoğlu**

# Onun poeziyasında fikir tutumu

**İmzası Azərbaycan oxucusuna çox yaxşı bəlli olan, şəxsiyyəti təkcə dostlarına, doğmalarına deyil, eləcə də onu tanıyan hər kəs üçün dəyər kəsb edən , elə söz adamları var ki, onlarla şəxsi tanışlıq həmişə insanda xoş aura yaradır. Yəni birbaşa təmas həmin yaradıcı şəxsə sevgini, diqqəti birə-beş artırır. Bu mənada mənim Bakıya ilk gəlişimdən, yəni tələbəlik illərimdən bugünə qədər xeyli sayda bir-birindən dəyərli, bir-birindən duyqusal, həm də şəxsiyyət baxımından çox önəmli olan imza sahibləri ilə tanışlığım, yoldaşlığım, dostluğum olub və bu gün də davam edir.**

Həyatımda ən çox təmasım olduğu və bünövrəsi də tələbəlik illərində qoyulan bir doğmalıq var. O doğmalığın ,tam dəqiq ifadə etsəm bu doğmamın ünvanı indi Allah dərgahında, Cənnətdədi. Mən bütünlüklə buna inanıram və əminəm ki, poeziyamızın sevgi memarı Nüsrət Kəsəmənli həqiqətən bu gün Cənnətdə yaşayır. Onunla olan dostluğumun sayəsində həmin illərdə Nüsrətlə birlikdə olan Çingiz Əlioğlu və Sabir Rüstəmxanlı ilə də sıx bir münasibətim yarandı və zaman ötdükcə bu münasibət bizim ailələrin təmasına çevrildi. O illərin şirin bir xatirəsidi tez-tez xatılanır evimdə, ailəmdə. Hər ilin yay fəslində Nüsrət Kəsəmənli və Çingiz Əlioğlu xanımları ilə birlikdə övladlarını da mənim ata evimdə Tuğda dincəlməyə gətirirdilər...

Bu xatirənin yadıma düşməsinin səbəbi var. O səbəb də indi əlimdə tutduğum "Avand" kitabıdır. Kitabın müellifi isə dostum, əzizim, Azərbaycanın söz məkanında kifayət qədər yeri olan Çingiz Əlioğludur. Elə buradaca bir xatirəni də dilimə gətirirəm. Həyatımın ən maraqlı anlarından biri də odur ki, 1980-ci ildə Çingiz Əlioğlu özünün Bakıda və Moskvada işıq üzü görən kitabını mənə hədiyyə edəndə həqiqətən , gözlərimə inanmadım. Çünki o kitabın içərisində bir şeirin üzərində "Dostum Əbülfət Mədətoğluna" yazılmışdı. Yəni Çingiz müəllim mənə şeir həsr etmişdi və o kitablar çap olunana qədər də bunu mənə bildirməmişdi.

İndi əlimdəki kitabla söhbət etdiyim məqamda öz içimdə ötənləri xatırlasam da, ama şeirlərinin təsir gücü məni o illərdən çəkib bu günə gətirir. Kitab 2004-cü ildə işıq üzü görüb. Kitabın içərisində Çingiz müəllim yenə həmişəki səmimiyyəti ilə "Əzizim Əbülfətə ən gözəl duyğularla. Ç.Əlioğlu. 31.01.05". Mən yazdığım yazılarda avtoqrafları təkcə mənə olan münasibətləri reklam etmək üçün yox, həm də zamanı diqqətə çatdırmaq üçün yazıya gətirirəm. İstəyirəm ki, oxucu həmin tarixlə bugünkü tarix arasındakı zamanı görsün, duysun. Çünki zaman ən böyük hakim, ən böyük söz sahibidi. Əgər illər münasibəti unutdurmayıbsa, deməli söz də unudulmayıb, söz də yaşayır. Axı ömür təkrar olmur. Elə Çingiz Əlioğlunun özünün də yazdığı kimi:



*bir ömürdü təkrar olmur bir əldi*
*verən verir, alan alır, can gedir.*
*vaxt təkəri təkid edir irəli*
*kim piyada kim də atlı cəng edir.*

*bəxtiyeyin atdan düşüb atlanır*
*əzilənin əldə teli çəngədir.*
*basılanın beli dibdən qatlanır*
*üzü gülmür duman gəlir çən gedir.*

*bəxti yatmış qaramatın axır ki*
*xırı batıb qarısı da dəng edir*
*bir gün səsə boylanıb da baxır ki*
*əzrayıldır qapı döyür zəng edir...*

Həqiqətən ömür təkrar olunmur, ömürdən ömür gedir, bu gedən ömür də özü ilə birlikdə insandan sağlamlığı da, həvəsi də, təpəri də, hətta həyata şövqlü münasibəti də alıb aparır. Ona görə də təkcə özünü yox, həm də çevrəni görmək, düşünmək, sabahı göz önünə gətirmək heç vaxt ziyan gətirməz. Əksinə, səni nələrin gözlədiyini biləndə onda yaşamaq da , hətta ruhunu sözə çevirmək də daha mənalı və gözəl olur. Çingiz Əlioğlu deməskən, əzrayılın nə zaman zəng vuracağını bilməsək də, bu zəng qaçılmazdır. Belə olan halda dilində Yaradana şükürlər, ürəyində Allah bəndələrinə hörmət və diqqət gərək o qədər səmimi olsun ki, onda ruhun və ürəyin birgə diktəsi olan fikir misralara çevrilə bilsin:

*Allah, sənə qurban olum,*
*Nə böyükmüş lütfün sənin.*
*Yardı qara ormanları*
*Nur ziyalı zülfün sənin.*
*Çıxdım o sıx cəngəllikdən*
*Müqəddəs ehram yoluna.*
*Sürüşdü şeytan çiynimdən,*
*Mələklər girdi qoluma...*

*...Dizdə təpər ali oddur,*
*Düzəlir şeytan köləsi*
*Qaranlığı yarır, odur,*
*Alnında işıq haləsi...*

Yəqin ki, bu şeirin fəlsəfi tutumu artıq sizləri öz qoynuna alıbdır. Oxuduqca hiss etmisiniz ki, Allahın iradəsi nə qədər möhtəşəm və ona bəndə sayqısı nə qədər tükənməzdir. Elə bu qarşılıqlı sevgi və sayqı şairin də dediyi kimi, bəndəni ayaqda saxlayır, onu yıxılmağa qoymur. Onun alnında, təbii ki, bu obrazlı ifadədi, onun həyatında işıq seli özünün bütün şəfqəti ilə hakim olur. Orda qaranlığa, zülmətə yer qalmır. Axı lütf Allahdan gəlir. Ona görə də Allahın iradəsi qarşısında ikinci iradəni düşünmək hətta özü belə günah olar.

Çingiz Əlioğlu yaradıcılığında mövzu rəngarəngliyi xüsusi əhəmiyyət kəsb edir. Yəni onun üçün ağac da, daş da, orman da, quru tənək də, hətta adi saman çöpü də mövzu ola bilir. Əgər siz onun söz dünyasına üz tutsanız, mənimlə razılaşarsınız. Və onun da şahidi olarsınız ki, Çingiz Əlioğlunun mövzusu olan predmet onun qələmində canlıdır, dipdiridir, hərəkətdədi. Bu isə şeirin həm dinamikasına, həm də oxucu ilə təmas qurmasına həm təkan verir, həm də ovqat yaradır. Bu mənada:

***Gözümə toxunan yağış ağlayır,***
***Çağlayan dilimi dilin bağlayır,***
***Dağların bağrını dağrım dağlayır...***
***Güllər gülüşümü alıb apardı.***

***Əl verib əl tutan əllə əlləşir,***
***Dil açıb dilənən dinməz dilləşir.***
***Peşində durduğum pişik olub şir***
***Başına çəkdiyim əli qopardı...***

***Yayında ilandır, oxu əfidir,***
***Tale atdığını tanrı dəf edir.***
***İllərin ilməsi qaçıbdır nədir,***
***Sökülən ömrümdən sapın sap ardı.***

***Bu hana asanın kirkit-kərkisi...***
***Kəsilmiş arcaqdır, əriş sərgisi.***
***Bu alın yazısı, tale dərgisi***
***Yolumda çəpinə çökmüş çəpərdi.***

***Üzüldüm üzlərdən mən üzdən üzdüm,***
***Dərinə getmədim, hər dərdə dözdüm.***
***Çəlpəşik ömrümün ipini çözdüm,***
***Bilmədim heç məndə bu nə təpərdi...***

Şeiri oxuduqca daxilən haldan-hala düşür, özümü həmin o təsvir olunan, əslində həm də tərənnüm olunan məqamın içərisində hiss edirsən. Burda söhbət təbiətlə təmasda insan hisslərinin necə həssas və həm də yaşadığını ifadə etmək gücündə olduğunu da bürüzə verir.

Yəni mahiyyət etibarilə şeirin canında mən bir bütövlüyün, tutaq ki, bir ağacın həm də qol-budağını, yarpaqlarını da görmüş oldum. Gözümüzə toxunub ağlayan yağışdan tutmuş yayı ilan olan, bununla yanaşı, insanı üzməyə və həm də yaşatmağa istiqamət götürən prosesin canlılığı, diriliyi də nəzəimrdən qaçmadı. Deməli, kəsişən yollar, çəlpəşik düşən ömür ipləri bütün hallarda insanı həm qüvvətləndirir, həm də ondan təpər alır. Deməli, söhbət bədii sözün yükündən gedir. Bu yük də fikirdi. Mən Çingiz Əlioğlu şeirində hər zaman fikir yükünün tutumu qarşısında susdum. Elə bu gün də susuram...susuram...

**Əbülfət Mədətoğlu**

# Məmməd Dəmirçioğlu dünyası

**Bu gün istənilən informasiyanı, təbii ki, mayasında ciddilik, gerçəklik olan informasiyanın ,sosial şəbəkələrdən də oxumaq, öyrənmək mümkündür. Yəni indi həyatımızın bütün sahələrinə nüfuz etmiş sosial şəbəkə demək olar ki, bizi öz aurasında saxlayır. İstər-istəməz ona üz tutmalı oluruq. Bu, reallıqdı və biz onu dana bilmərik. Bax, bu mənada ədəbiyyat, incəsənət, mədəniyyət, elə siyasətin özü də həmin sosial şəbəkələrin hesabına sosiallaşıb, ictimailəşib. Ona görə "sosiallaşıb, "ictimailəşib" deyirəm ki, tutaq ki, siyasətlə bağlı ciddi məsələyə hər kəs öz ağlına, düşüncəsinə görə münasibət bildirir və bu da bir xaotik vəziyyət yaradır, mövzu qalır kənarda, həmin o vacib, siyasi predmet isə düşür ayaqlara. Tapda ki, tapdalayasan. Lakin yenə etiraf edim ki, bəzən də hətta gözləmədiyin bir səviyyədə münasibətin şahidi olursan. Deməli, məsələni kütlə yox, seçilənlər, ağıllı, məntiqli adamlar yozanda, araşdıranda, dürüst bir nəticəyə də gəlmək mümkündür. Bu, yazacağım mövzuya dəxli olmasa da, amma içimdən gələn sosial şəbəkələrlə bağlı məni rahatsız edən vəziyyətə münasibətimdir. O ki, qaldı mövzumuza...**

Bəli, tez-tez sosial şəbəkədə onu xatırladırlar, onu xatırlayırlar, onun fotosuna, yaradıcılıq nümunələrinə rast gəlirəm. Bu da mənə onun özünü də, sözünü də, çöhrəsini də, hətta səsini də xatırladır. Özümdən asılı olmadan çevrilib mobil telefona baxıram. Elə bilirəm ki, indi ekranda Dəmirçioğlu yazılacaq və mən də telefonun yaşıl düyməsini basıb "Salam" deməyə macal tapmamış onun səsini eşidəcəm:

- Ay qaqa...

Və beləcə başlayacaq bizim söhbətimiz. Öncə hal-əhval tutmaq, sonra yazılar, sonra qəzet, sonra ədəbiyyat... Uzanacaq söhbətimiz və axırda da elə həmişəki mövzu :

- Bir vaxt elə Gəncəyə tərəf gəl...

Bəli, belə idi Məmməd Dəmirçioğlu. Sadə, səmimi, həm də varlığı xeyirxahlıqla, səmimiyyətlə, saflıq və şirinliklə dolu idi. Ona görə də onun kiminsə xətrinə dəydiyini nə eşitmədim, nə də təsəvvür edə bilmədim. Amma kövrəldiyinin dəfələrlə şahidi oldum. Xüsusilə Akif Səməd rəhmətə gedəndə... Sonra o, Akif Səmədin məzarüstü büstünü də hazırladı. Ona şeir də yazdı. Ondan xatirələr də danışdı... onun rəsmini də çəkdi. Çünki Məmməd Dəmirçioğlu başdanayağa istedad idi. Allah ona heykəltəraşlığı da, rəssamlığı da, şairliyi də, sazı sinəsinə sıxıb ruhumuzu göylərə aparmağa da bol əli ilə bağışlamışdı, səxavətlə vermişdi. O da bu səxavətdən hamıya pay tuturdu. Bacardığı qədər, gücü çatan qədər söz-sənət adamlarının hayına yetişirdi, səsinə səs verirdi. Və heç vaxtı "MƏN" - demirdi. Elə şeirində də bunu etiraf etmişdi:

*"Mən" sözündən utandım,*
*Mənsizlər yedi məni.*
*Dən-dən olub səpildim,*
*Dənsizlər yedi məni.*

*Bir dağa bax, bir düzə,*
*Dərdin varsa gəl bizə.*
*Əl uzatdım əlsizə,*
*Əlsizlər yedi məni.*

*Dərd atarmı oxu yan,*
*Solur çiçək qoxuyan.*
*Hər gün "Quran" oxuyan,*
*Dinsizlər yedi məni.*

Yəqin ki, bu şeirin alt qatını gördünüz. Heç vaxt " mən " deməyən adam daxilən mənsizliyin ona nə yaşatdığını sənsizlik ilə bərabər tutur. Mənsizlik əslində sənsizlikdi. Çünki mən səninlə mənəm. Sən də mənimlə sənsən. Mən, sən bir tamlıq olur. Biri yoxdursa, artıq yarımçıqdır, paradır. Görünür, elə ona görə də mənim yarsı,



yarısı və yarı. Eyni mahiyyət daşıyır. Çünki onların üçü də mənim yarımçıq olduğuma işarə vurur. Onun tamlanması üçün sənin olmağını zərurətə çevrilir. Və hər zaman içimizdə və dilimizdə yaşayan, səslənən "yar" sözü o dediyimiz, o istədiyimiz məni, səni tamlaşdırır. Elə insanın bütövləşməsi də, tamlaşması da budur. Vay o haldan ki, mən sənsizləşəm!..

Məmməd Dəmirçioğlu öz yaradıcılığında - yəni yaradıcılığın şeir bölümündə təkcə sadəliyi və səmimiyyəti ilə yox, həm də rəssamlığından, heykəltəraşlığından qaynaqlanan bir məqamı da bürüzə verir. Yəni o şeirlərində sanki sözlə şəkil çəkir. Şeiri oxuduqca elə bilirsən ki, hansısa tablo ilə üz-üzə dayanırsan və o şeir dili ilə deyiklərini tabloda görürsən. Məsələn:

***Vədəsi bilinməz qəza-qədərin,***
***Allah, son anımı vaxtında göndər.***
***Məni bu dünyaya bir də gətirsən,***
***Oxuyan quşların bəxtində göndər.***

***Təşnə dodaqların söz qismətini,***
***Sönən ocaqların köz qismətini,***
***Hər qönçə gözəlin öz qismətini,***
***Muradının bəyaz atında göndər.***

"Səhra gülləri" kitabından iqtibas etdiyim bu şeirlərin fikir gücü o qədər realdır ki, birmənalı olaraq şairlə razılaşırsan. Onun dediklərinin və sənin düşündüklərinin bir-birində olduğuna əminlik səni o auradan çıxmağa qoymur. Çünki bizim hər birimiz ayrı-ayrılıqda əlimizi Allaha açanda sonumuzun vaxtında olmasını ondan diləyirik. Ağrısız, acısız, qəza-qədərsiz, heç kimə yük olmadan bu həyata vidanı diləyirik Allahdan. Bax, Məmməd Dəmirçioğlunun üçbəndlik şeirində də, mənim də, sənin də etdiyin duanın şəkli var. Zənnimcə, bu nümunələr oxucunu düşündürmək və təkrar çevrəyə yenidən baxmaq məcburiyyətini yaradan müəllif bacarığıdır. Bir az da konkret ifadə etsəm, bu, Məmməd Dəmirçioğlunun hansı bir istedadın sahibi olduğunu göstərən poeziyadır.

Mən Məmməd Dəmirçioğlunun "İpək könüllü, uca ruhlu, şair qardaşım Əbülfət Mədətoğluna könül payı. 13.06.2011" avtoqrafı ilə mənə bağışladığı "Səhra gülləri" kitabından ölkəmizin təyyarə qəzasını yaşadığı anda - yəni bu matəm günündə oxuduğum şeirlər bir ruh təsəllisi idi, bir baş verənlərə hardasa dözmək, tablamaq və düşünmək tövsiyyəsi idi. Ona görə də Məmməd Dəmirçioğlunun sözünə və özünə ehtiramla oxuculara xatırladıram ki, dəyərli söz bütün zamanlar üçündür. Onu görmək, oxumaq və təqdir etmək lazımdır. Başqa nə qaldısa, onu hər kəs öz ağlının gücünə uyğun görsün və dəyərləndirsin.

**Ə. Mədətoğlu**



# Nəriman Həsənzadə və Klark qanunu

## (“Sevdiyim şairlər” silsiləsindən)


Allahverdi Eminov


**Mən Xalq şairi Nəriman Həsənzadənin poeziyasının daimi oxucusuyam, hər dəfə oxuyanda yadıma məşhur Klark qanunu (adı ilə adlanır bu nəzəriyyə) düşür: İnsan o cümlədən, söz adamları yaşa dolduqca onlarda enerji azalır, bilik, infor-masiya zənginləşir. - Fikrin birinci tərəfi ilə razılaşmaq istəməzdim, apardığım müşahidələrə və qənaətlərə görə heç də belə deyil. Bunun da bir sıra səbəbləri vardır: İstedaddan qidalanan İlham, seksual enerji - ”libido”, sublimasiya - yara-dıcılığın yüksəlişi. Şairə gəldikdə, coşğun həvəs, vəcdəgəlmə, poetik ehtiras mövzu ”tapılanda” onun fiziki görümü və maddi təsirlərlə yanaşı şeir hasilə gəlir. İsveç psixoloqu Z.Freydə görə, sənətkar psixoloji əhvalında - xəyalpərvərliklə nevrotik ilğım arasında qalır, onu - şairi yaradıcılığa sövq təşkil edir, həyati müşahidələrdən gələn nəticələr şeiri yazdırır. Nəriman Həsənzadənin poeziyası bu baxımdan daima maraq doğurmuşdur. O, dəfələrlə bir, yaxud iki-üç şeir yazmışsa, on-on beş silsilə şeirlərini toplu halında çap etdirmişdir. Düzü, mən bu poetik nümunələr haqqında yazmaq istəmişəmsə... Onun ”Ədəbiyyat qəzeti”ndə Qarabağ tarıdı, O Vətən tarı, bu Ağdam deyəndə, o Şuşa deyir” silsilə şeirləri Son (2024) yaradıcılığının məh-suludur. ”Ulu Öndərə ilk görüşdə oxuduğum şeir” (1969) N.Həsənzadənin poetik kredosu kimi səslənir.**

***Bu eşqim, vüqarım, səndin, canım!***
***Ana çağırdığım Azərbaycanım!***
***Açıb qucağımı mehri - ülfətlə***
***Bağrıma basıram səni hörmətlə.***

Şair sonralar da Ulu Öndər Heydər Əliyevə şeirlər həsr etmişdir. Bu, onun poeziyasından qırmızı xətt kimi səslənmişdir...

Şair yuxarıda söylədiyim fikirləri sanki təsdiqləyir və ”Şair, yenə yazır-sanmı?” sualını cavablandırır. Şeir yazanda dünyanın sirri ona agah olur: bəli poe-ziya belə bir möcüzənin daşıyıcısıdır, ”yazan zaman agah olur bu dünyanın sirri mənə” pıçıldayır! Üzünü ulu Tanrıya tutur, axı, şeir payına şairə bəxş edən də o deyilmi?

***Soyumasın od nəfəsin,***
***Əvəzi yoxdur heç kəsin.***
***Ulu Tanrım çox görməsin***
***Öz sevdiyi şeiri mənə.***

Unutmayaq ki, şeir möcüzədir, kəşfdir, qafiyələnmiş qrammatik sözlər deyil. Ədəbiyyatşünas T.Eliot poeziya haqqında demişdir: ”Şairin şüuru saysız - hesabsız hissləri, cümlələri, obrazları toplayan və mühafizə edən özümlü qabdır. Yeni bütö-vün formalaşması üçün zəruri olan bütün hissləri toplaşana qədər onlar bu qabda qərar tuturlar”.

Nəriman Həsənzadə üçün poeziya ilk misradan son sətrə qədər ruhdur, ruhun təzahürüdür, nəzəriyyələşdirmədən uzaqdır. Şairin poetik şüuru bütün təxəyyül qüvvəsilə onu zamanla üz-üzə qoyur və sosial - mənəvi münasibətlərə aydınlıq gətirir. Bu poetik sənət gerçəkliyə varan, olmuşları xatırladan metoddur, bu hissi şair şeir vasitəsilə həyata keçirir. Nəriman Həsənzadə xeyirxahı olmuş ədib Mir Cəlal Paşayevə və onun oğlu, akademik Arif Paşayevə iki şeir həsr etmişdir. ”Mir Cəlal müəllimin xatirəsinə”də oxuyuruq:

***Şair, Mir Cəlalın isti nəfəsi,***
***Mənə Haqdan gələn bir ilham idi.***
***Mən ata görmədim, atam əvəzi***
***Həyatda yeganə bir arxam idi.***

Mir Cəlal görkəmli yazıçı olmaqla yanaşı, xeyirxah insan, pedaqoq idi. Pedaqoji Universitetdə mənə dərs demişdi, kurs rəhbərim olmuşdu. Mən bu böyük alimin, yazıçının nəsr yaradıcılığı haqqında bir neçə il əvvəl ”Mir Cəlalın poetikası” adlı 3 (üç) cildlik ”trilogiya”mı (1080 səh.) çap etdirdim və ədəbi ictimaiyyət yaxşı qarşıladı.

Demək istəyirəm, şair Nəriman Həsənzadə Mir Cəlal müəllimi yaddan çıxartmır, eləcə də böyük oğlu Arif Paşayevi. ”Bizim qızlar” şeirini akademikin ad gününə həsr etmişdir. Şeirin sonunda şair deyir, olmuşları xatırladır və:

***Bizə bu uçuş xəyalı***
***Töhvə verən oğul da var, -***
***Bir ölkənin Ağsaqqalı,***
***O getdiyi haq yol da var, -***
***O yol Tanrının düz yolu,***
***Arifdi,***
***Mir Cəlal oğlu!***

Nəriman Həsənzadə təsvir etdiyi hadisələrdə: predmetlərdə, ithaf etdiyi şəxslərdə poetik obrazlarını görür, duyur və idrak edir. Şair ”Həyatın bir anı”nı ya-şayır: Hava püsələyir, otaq isti olsa da şair üşüyür, bu ”üşümə” fiziki soyuqluq deyil, şairin şeirə köklənməsidir. Bu soyuqluğu böyük müğənnimiz Arif Babayevin məlahətli səsi isidir.

*Əvəzi yox, səsindəki məlahətin,*
*Haqdan gələn sərvətidir bu millətin.*
*Sevinc xanım sevincindən aşıb - daşır,*
*Yerdə sular, göydə quşlar pıçıldaşır.*

Şair həyatın bir anını beləcə yaşayır, bu həyatın içində musiqi də səslənir, necə ki, xalq artisti Mənsum İbrahimov ”havalanıb oxuyur, səsi bənəvşə qoxuyur”. ”Elçin, yerə qoyma, əlindən tarı, Elnurun kamanı göynədən tarı” -

***Qarabağ tarıdı, o Vətən tarı,***
***Bu Ağdam deyəndə, o, Şuşa deyir.***

Şeir kədərin, qüssənin yaratdığı hisslərə biganə qalmır, şairin canlı təsvirilə müşahidə olunur. Nəriman Həsənzadə belə bir hissləri yaşamışdır: ”Abidə”, ”İllər, talelər” şeirlərində:

***Kürdəmirdə bir igid***
***şəhid oldu davada.***
***Kürdəmirdə bir qızın***
***Göyə qalxdı naləsi.***
***Möcüzələr yaratmış***
***Sən demə, bu dünyada,-***
***misalmı?***
***Yadigarın***
***Yadigar Abidəsi!***

Şairin ”İllər, talelər” şeiri məni çox uzaqlara apardı: ötən əsrin 80-90-cı illərinə ”Azərbaycan müəllimi” qəzetində çalışırdım, redaksiyaya filologiya elm-ləri doktoru, professor Sadıq Şükürov Gəncə Pedaqoji İnstitutdan tez-tez baş çəkir, analitik məqalələr verirdi, xüsusilə, Mirzə Cəlil və Səməd Vurğunun yaradıcılığı haqqında çap olunanın səhərisi Gəncədən şöbəyə zəng atır, təşəkkürünü çatdırırdı. Son dərəcə səmimi insandı, şöbənin telefonu ilə Nəriman Həsənzadə ilə danışır və görüşürdülər. Sadıq Şükürov məhsuldar alim olmaqla bərabər, təvazökardı. Nəri-man Həsənzadə ilə Gəncədən tanış idilər və şair barədə kitab da yazmışdı. Onun ölümü ağır itkiydi, gərəkli insan həyatdan köçəndən sonra qədrini bilirik:



***Niyə sağlığında yad olur bizə,***
***Görmürük o boyda bir istedadı?***
***Elə ki getdilər -***
***Çıxırlar üzə,***
***Yüksək kürsülərdən çəkilir adı.***
***Niyə yuxudadı, şöhrət tanrısı,***
***Niyə qarışdırır ağı sarıya?***
***Niyə o kəslərin oğlu, ya qızı***
***Xəlvətdə fəxr edir -***
***Atalarıyla?!***

Şair dostunu unutmur, xatırlayır. Hər bir söz, fikir adamının yaşadığı həyatda özündən sonra iz qoymaq istəyi əbədidir. Hər bir söz, fikir adamının həyata, dünyaya baxışı fərqlidir, seçimlidir. Eləcə də yaşayan insanın dünyasını dəyişəni xatırlaması.

***Sadıq Şükürovu xatırlayıram,***
***Təmiz insan idi, alim adıyla.***
***Onun sinəsində qaynar bir ilham.***
***Daim məşğuluydu tədqiqatıyla.***

Nəriman Həsənzadə ötən illərə, taleləri həsədlə xatırlayır:

*İllər var, səsləyir bizi arxadan,*
*İllər təzələnir arada, ancaq -*
*Alim var, hörmətlə keçdim yanından.*
*Mən qibtə elədim, bu ada ancaq.*

Poeziya bədii fikrin subyekti olan insana münasibətində əxlaqi meyarı əsas götürür - baxmayaraq bu, mütləq deyil, varlığın gerçəkliyini poetikləşdirir, insan-ların obrazlarını yaradır, bu, şair duyğusunun həssaslığıdır, azadlığıdır. Nəriman Həsənzadə şeirlərinin bir qismini tanıdığı, şəxsiyyətlərinə hörmət bəslədiyi şəxslərə ithaf etmişdir. Bu sırada Amil müəllimə, Elşad müəllimə, Rahilə Soltan qızına, Arif Paşayevə və oğlu Nazimə!

Bu insanlar şairlə ünsiyyətdə olmuşlar, fikir mübadiləsi aparmışlar, yaşadığı həyatın ona təsir qüvvəsindən asılı olaraq həqiqətləri təhrif etməmiş, təsvirində naturallıqdan çıxarmışdır, insan davranışının bütövlüyünü təmin etmişdi, onların obrazını yaratmaqla şair duyğusunun həssaslığını bir daha əyaniləşdirmişdir. ”Zi-yarət yolu” şeirini əczaçı Elşad Hacıyevə həsr etmiş, onun peşəsini, şəxsiyyətini, ailəsini şeirə gətirmişdir:

***Bakıda bir yol var, Ziyarət yolu,***
***orda da bir evin bir darvazası.***
***Dərmanlar düzəldir bir vətən oğlu -***
***dilində daim xeyir - duası.***

”Deyin, əl saxlasın tarixi yazan” şeirini şair ”Zəfər dastanı” əsərinin müəllifi Rəhilə xanıma ithaf etmişdir.

Nəriman Həsənzadə yeganə alim oğlu Nazimə unikal şeir həsr etmişdir. Şeirdə ata - şairin Almaniyada infarktdan xəstə yatarkən keçirdiyi - yaşadığı hisslərin oyatdığı təəssürat oxucuda oğul məhəbbətini əyaniləşdirir. Hər bir oxu-cunu: Ata və oğul sevgisi, tənhalıq xiffəti düşündürür. Bax, bu məqamlarda atanın oğul üçün yaşantısı necə də səmimidir, ibrətlidir:

***Arada görürdüm, sən birtəhərsən,***
***Ürəyim gəlmirdi, düzü, soruşam.***
***Mən səndən qorxurdum,***
***Xəstələnərsən,***
***Sən məndən qorxurdun, dözəmməz atan.***

Bax, belə ağır anlarda da dostlar dadına yetişir: Şair Simak Şeyda, Qaraxan, Gəncə yazıçılarından birisi. Bu adamların yoluxması xəstə üçün ən böyük təsəlli olur! Və ata nəsihəti:

***Yaxşı insanlara yaxın ol, müdam,***
***Ünvanı çaşdırma ünvan içində.***
***Bəzən mən özüm də səndən danmıram,***
***İnsan axtarmışam insan içində.***

Şair Nəriman Həsənzadənin poeziyası son dərəcə polifonikdir, çoxqatlıdır.

Çün, poeziya həqiqətlərin və yalanların emosional - intellektual yaranışıdır, şairin fərdi - özəl üslubunun təzahürüdür. Poeziya duyğuların qeyri - qrammatik qanun-larla bədii ifadəsidir. Hər bir şeir daxili çırpıntıların çuğlaşmasından qopduğu üçün oxucu əhvalına baş vurur. Nəriman Həsənzadənin poeziyası təsviri ilə, ahəngiylə, dinamikliyilə oxucu şüuruna təsir göstərir, cəmiyyətə nüfuz etməklə ictimai rəyi sürətləndirir, duyğuların simvolik tərənnümünü canlandırır.

***P.S. Nəriman Həsənzadə şeirinin yaş həddi yoxdur, ona görə ki, ilhamla da-xili potensial enerji sönməzdir, güclü təkana malikdir, zəngin müşahidədən qidala-nır. Bu prosesdə Klark qanunu öz gücünü itirir.***

---

## *Avropa su çatışmazlığından əziyyət çəkir*



**Avropa İttifaqı su çatışmazlığı problemini tez bir zamanda həll etməli və borularda sızmaların aradan qaldırılması üçün işlərin maliyyələşdirilməsinin yeni yollarını tapmalıdır.**

Adalet.az xəbər verir ki, bu barədə Avropanın ətraf mühitin mühafizəsi üzrə komissarı Cessika Rosval ”Financial Times”a müsahibəsində bildirib.

Onun sözlərinə görə, Rusiyanın Ukraynaya hücumundan sonra Avropa İttifaqı su böhranının aradan qaldırılması səylərinin zərərinə enerji təhlükəsizliyinin təmin edilməsinə diqqət yetirib.

”Biz su haqqında çox az danışırıq və enerji səmərəliliyi və enerji haqqında danışırıq... Bu, əlbəttə ki, çox vacibdir, lakin su da çox vacibdir və Avropada bu kifayət deyil. Biznes indi bunu başa düşür, Çünki Avropada quraqlıq var və biz atom elektrik stansiyalarının işləmədiyini, nəqliyyatın böyük çaylarda işləmədiyini görürük”, - deyə o, ifadə edib.

Avropa Ətraf Mühit Agentliyinin ötən ilin oktyabr ayında dərc etdiyi araşdırmaya görə, Aİ ərazisinin beşdə biri və əhalisinin dörddə olar ki, üçdə biri hər il su çatışmazlığından əziyyət çəkir. Ümumdünya Meteorologiya Təşkilatının məlumatına görə, Avropa İttifaqında da quraqlıqların sayı və intensivliyi kəskin artıb. 1976-cı ildən 2006-cı ilə qədər bu dəyişikliklərin təsirinə məruz qalan ərazi və insanların sayı təxminən 20 faiz olub.

Fermerlər məhsuldarlığın kəskin azalması ilə üzləşirlər.

Bu tendensiya toxuculuqdan tutmuş hidrogen istehsalına qədər, elektroliz prosesində suyun istifadə olunduğu sənayedə də özünü göstərir.

Avropa komissarının fikrincə, boruların təmiri və yeni təmizləyici qurğuların yaradılması üçün ”maliyyələşdirmənin yeni innovativ yollarını axtarmaq” lazımdır.

**Xatırladaq ki, Yeni il gecəsi Almaniyanın paytaxtı Berlinin bəzi əraziləri susuz qalmışdı. Şəhərin su təchizatı xidməti suyun kəsilməsinin küçələrdən birində boru qırılması ilə izah edilib. Yerli KİV-in məlumatına görə, boru 1920-ci illərdə çəkilib.**

**Əkbər ƏLİOĞLU**
**filologiya üzrə fəlsəfə doktoru**



# SATİRİK ŞEİRİMİZİN LAYİQLİ DAVAMÇISI

**Şair öz əsərləri ilə ictimai tərəqqiyə nail olmaq işində ölkə rəhbəri ilə birləşirsə nə xoş. Bu gün bizim cəmiyyətdə qorxu içində yaşayan, təhdid edilən şair yoxdur, haqsızlıqları, özbaşınalığı, qeyri bu kimi münasibətləri görüb ona dözümsüzlük göstərən, cəsarət edib tənqidi islah yolunu seçən, məmurların zorundan çəkinməyən şairlərimiz isə az deyil. Onlardan biri də istedadlı şair Rafiq Musadır. Yaşının piran çağındadır. 1971-1975-ci illər arasında filoloji təhsil alıb, indiyədək ondan artıq şeir kitabları nəşr olunub. Bu yazının belə bir girişlə qələmə alınmasına səbəb 2024-cü ildə çap olunmuş ”Ömrüm, məni bağışla” kitabında özlərinə yer almış satirik şeir və təmsilləri oldu. Qərara aldıq ki, məhz onların ideya-bədii məziyyətləri, poetik strukturası, metaforik təbiəti, mövzu genişliyi barədə yığcam olaraq öz təssüratlarımızı oxucularımızla bölüşək.**

Rafiq Musanın ümumi yaradıcılığı etibarilə toxunduğu mövzular rəngarənqdir.

Bu rənqarənglik onun satirik şeirlərində və təmsillərində özünü doğruldub. Müxtəlif məzmunlu və diqqətçəkən mündəricəli bu şeirlər ifadə tutumu, təsir arealı baxımından maraqlı və oxunaqlı bir səpqidə yazılıblar.

Poetik vüsət və deyim mükəmməlliyi qazandığına və ictimai eybəcərlikləri klassik satiriklərimiz kimi ifşa edib qamçılaması baxımından, canlı və təzə nəfəsli bir ovqatda olmaları nöqteyi nəzərindən şair bu şeirləri ilə ustad sənətkar təsiri bağışlayır.

Bu cəhətdən də qərarlaşdırdıq ki, onun haqqında yazmağa dəyər və bu vacibdir.

Budur, şair ”çirkin bələyə bürünən”, ”barıt-çəlləyə dönən” dünyada insanları belə xarakterizə edir:

*Əyrilər yetiblər mənsəbə, vara,*
*Qalmışıq ayaqdan, əldən avara.*
*Biri kara qaçır, bir havara,*
*Cib kəsən dəlləkdən ağlın nə kəsir?*

Şair beləcə ”Dəyirman daşı olan” dünyanı,”dən olan” insanın taleyinə bəşəri bir ağrı, yaşantı kimi, məsuliyyət borcu kimi yanaşır, ”ipdən asılmış köynək kimi çarmıxa çəkilən” insanların haqqının müdafiəsinə qalxır. Hərdən ”quzey qarı tək kövrələn”, ”hərdən bir daş kimi dərə dibində”, hərdən də ”durnaların köçündə görünən şair” bütün şər işlərin başında insan nəfsinin doyumsuzluğunu görür, insanlığın günahlar içində əzablara bürünməsi qənaətinə gəlir.

*Biz bilən tamahın yaşı bilinmir,*
*Adəmdən, Həvvadan yönü bəridi.*
*Bizim günahımız hesaba gəlməz,*
*Üzdə olanlar da mində biridi.*

Şairin satirik tənqidi düşüncələri əsasən ”Dostum Dubaydan gəlir”, ”Tükənməyən arzular və ya dediqodu”, ”Can gülüm, can-can”, ”Sən özünə şair demə”, ”Alim deyil”, ”Öyrətmə”, ”Ay can, ay can”, ”Paxıl olma”, Mənə nə”, ”Gün güzəran düzəlmir”, ”Gönü suya vermə”, Əliəyrilər”, ”Bu heyvərə mən deyəndi”, ”Oxuyacam əl çəkin”, ”A qardaş oğlu”, ”Şirin yuxu gördüm”, ”Bəzi məmurlara”, ”Söyməlisən, vəssalam”, ”Xoflu adam”, ”Dodağını büzmə, bala” və s. şeirlərində toplanmışdır. Yuxarıda qeyd etdiyimiz cəmiyyət üçün qara yaraya çevrilmiş bütün neqativ, pis əməllər bu şeirlərdə təsvir və tənqid olunmuşdur. Bu baxımdan ”Dünənin, bu günün nağılı” və ”Tükənməyən arzular və ya dediqodu” şeirləri daha səciyyəvidir. Birinci şeirdə ömür, tale yolu, ümumi yaşam tərzi 46 bəndlik deyimlərdə, ikinci şeirdə isə müasir cəmiyyətimizdəki ”maralların” ifşası isə 112 bəndlik ikinci şeirdə reallaşmışdır. Təkcə elə bu iki şeirə münasibət ayrıca bir təhlil obyekti sayıla bilər. Şairin ”maralların” simasını, əməllərini, onların ifşaolunma tərzindəki bədii çəkərliyi görmək üçün lazımdır ki, kitabla fərdi qaydada tanışlıq yaradasan. Şairin bir sıra şeirlərində tənqid ümumi ictimai həyata qarşı yönlənib. Elə bu qəbildən olan şeirlərin mətnində konkret ünvanlarında satirik yolla ifşasını görə bilirik.

***Hər kəs ağayam deyir,***
***Şüurlarda davadı.***
***Partiyalar cürbəcür,***
***Hava köhnə havadı.***

***Kotanı dərin bağla,***
***A rəis, üzdən gedir.***
***Gömrükdən gələn sizə,***
***Gedənlər bizdən gedir.***

***Özəlləşmə adıyla,***
***Təpə idik, düz olduq.***
***Əmlak özəlləşmədi,***
***Özəlləşən biz olduq.***

***Neçə dona giririk,***
***Seçib-seçiləndə biz.***
***O qədər səs vermişik,***
***İtib-batıb səsimiz.***

Beləcə, polislərin, sahə müvəkkillərinin, küçələrin təmizliyinə baxan rəhbər işçilərin, qaz işçilərinin, bazar müdirlərinin, baytar həkimlərin, bir sözlə müxtəlif sahələrdə iş başında olan məmurların özbaşınalığı, rüşvət almaları, bürokratizmi, fırıldaqçı əməlləri satira güzgüsündə ifşa hədəfləri kimi təqdim olunub. Bu cəhətdən Sabiranə tərzdə yazılmış ”Əliəyrilər”, ”Bu heyvərə mən deyəndir”, ”Ay can, ay can”, ”Mənə nə”, ”Gönü suya vermə”, ”Əliəyrilər”, ”Oxuyacam əl çəkin”, ”Bu çarxı-fələkdən”, ”Oğluma nəsihət”, ”Bəzi məmurlara”, ”Söyməlisən, vəssalam”, ”Dodağını büzmə, bala” və s. kimi şeirlərin də tənqid hədəfləri fərdi ünvanlı olsalar da, dərin və kəsərli ictimai məzmun kəsb edirlər. Bu şeirlərin özəlliyi əsl iti müşahidəyə, ümumiləşdirmə və fərdiləşdirmə sənətkarlığına, gözəl poetik təfəkkürə malik istedadlı bir şairin qələmindən çıxmalarındadır.

Bədii yaradıcılıqda təmsil janr etibarilə rəngarəng formalarda olub, məzmun etibarilə alleqorik obrazlarla ifadə olunaraq həyatın bütün neqativ tərəflərinə işıq salaraq yumor, gülüş fonunda tənqid və ifşaedicilik missiyasında olurlar. Təbii ki, bu fikrimiz onun tərifi deyil, ümumi məzmun və ideya, forma məriyyətləri ilə uzlaşan şəxsi qənaətimizdir.

Bu minvalla ”Uşaq pulu məsələsi”, ”İcra başçısının seyfi”, ”İki cəbhə”, ”Özəlləşən həyət” və s. kimi təmsillərdə cəmiyyətdəki cari neqativliklərin cirkaba batmış sifəti əks etdirilməklə ictimai qınağa məhkum edilib. Belə ki,

***Yazar var, yazmağı var,***
***Nə yoğurur, nə yapır,***
***Nazirlərin əlindən***
***Hazırca kökə qapır.***
***(”Hazır kökə”)***

Yaxud

***Bu şair qəliz yazır,***
***Anlatmayır heç kəsi,***
***Sözlərə düyün vurur,***
***Açılmır ”fəlsəfəsi”.***
***(”Belə də olur”)***

Şairi belə olan cəmiyyətdə hətta filə də yaltaqlıq öyrətməyin üsulları tapılır.

***Üzü üstə sürüyüb,***
***Sındırdılar qolunu.***
***Filə belə öyrətdilər***
***Yaltaqlığın yolunu.***
***(”Təlim”)***

Şərhsiz burada müəllifin nəyə işarə etdiyini duymaq çətin deyil.

Bu minvalla təmsillərdə şairin ”maralları” - xoruz, toyuq, pişik, qoduq, keçi, tülkü, siçan, hörümçək, donuz, dovşan və s. ilə qabaqlaşır, onların simasında cəmiyyətin yaraları ilə tanış oluruq.

Qeyd edək ki, Rafiq Musa yeri gəldikdə siyasi satiraya da müraciət edərək iç və diş realıqları tənqid etməkdən çəkinməmişdir. O, böyük Sabirimiz kimi güclü ironiyalardan istifadə edərək tənqid çubuğunun kəsərini artımlı etmişdir.

***Bərk bağlayın yolları,***
***Ac Ayı, Tülkü gəlir.***
***Şimaldan soyuq külək,***
***Cənubdan bürkü gəlir.***
***(”Hava haqqında məlumat”)***

***Biz ördəyə səs verdik,***
***Səs yayıldı, az çıxdı.***
***Ördəyi gözləyirdik,***
***Qutumuzdan qaz çıxdı.***
***(”Gülməlidi”)***

Bu nümunəyə də təhlil əvəzinə bir sözlə qiymət vermək olar; - Şərhsiz...

Rafiq Musa ədəbiyyatımızda o şairlərdəndir ki, istedadlı və bənzərsiz olduğunu təsdiq edib. Zənn edirik ki, ədəbi ictimaiyyətimizi təmsil edənlər, xüsusən tanınmış və görkəmli yarlıqlarını qazanmış şair və yazıçılarımız da fikrimizin gerçəkliyini qəbul edəcəklər. Şair təkcə elə bu satirik şeirləri və təmsilləri ilə klassiklərimizin ədəbi varisliyini ləyaqətlə təmsil edə bilib. Buraya onun geniş və dərin ictimai-fəlsəfi şeirlərini, məhəbbət lirikasını da əlavə etsək onun şairlik siması daha da dolğunlaşacaq, bütövləşəcək. Və gözümüz qarşısında istedadlı bir şairin seçimlik qazanmış portretini asanlıqla görə biləcəyik.

**Ona yeni-yeni yaradıcılıq onalıqları və can sağlığı diləyirik.**

# “Azərbaycan Dəmir Yolları” ötən il 9 milyona yaxın sərnişin daşıyıb

**2024-cü ildə ”Azərbaycan Dəmir Yolları” QSC (ADY) 8,5 milyon sərnişin daşıyıb.**

Adalet.az bu barədə səhmdar cəmiyyətinə istinadən xəbər verir.

Xatırladaq ki, 2023-cü ildə bu göstərici 7 milyondan çox olub.

Ötən il xidmət həcminin artmasının əsas səbəbləri yeni alınmış qatarların xəttə buraxılması, yeni dayanacaqların istifadəyə verilməsi, bayram günlərində və həftəsonları əlavə reyslərin artırılması və ümumilikdə müştəri məmnuniyyətinin yüksəlməsi ilə əlaqədar olub. Bununla yanaşı, müştərilərə xidmətlərin təqdim edilməsi və müştərilərlə əlaqələrin qurulması sahələrində sürətli rəqəmsallaşma, eləcə də qatarların daxilində, stansiya və dayanacaqlarda modernləşdirmə və təkmilləşdirmə işləri də müştəri məmnuniyyətinin yüksəlməsinə xidmət edib.

İl ərzində İsveçrənin ”Stadler Rail Group” şirkətinin istehsalı olan yeni, müasir, komfortlu qatarlar sərnişinlərin mənzil başına daha rahat və təhlükəsiz çatdırılması məqsədilə Bakı-Ağstafa-Bakı marşrutu üzrə istifadəyə verilib. Sərnişindaşımanın daha da genişləndirilməsi, sərnişin məmnunluğunun təmin edilməsi məqsədilə sürətli sərnişin qatarlarına ilk dəfə olaraq Ləki və Ucar stansiyalarında dayanacaq verilib. Bundan başqa, ADY-nin sərnişindaşıma strategiyasına uyğun olaraq, Bakı-Ağstafa-Bakı marşrutu üzrə reyslərin sayı yeni qatarların istismara verilməsi ilə 2-dən 4-ə çatdırılıb.

Azərbaycanın bütün regionlarını əlçatan etməyi hədəfləyən ADY ötən il Bakı-Balakən-Bakı istiqamətində sərnişindaşımanın bərpası üçün bütün hazırlıqlarını tamamlayıb, Yevlax-Balakən sahəsində dəmiryol infrastrukturunda təmir işləri görülüb. Bu il 3 yanvar tarixindən Bakı-Balakən-Bakı istiqamətində müntəzəm qatar reyslərinə start verilib.

Hər iki istiqamətdə hərəkət edən qatarlar bölgənin əhalisi üçün nəqliyyat xidmətlərinin daha əlçatan olmasına, istər şimal-qərb istiqamətində yaşayan sakinlərə, istərsə də turistlərə səfərlərini rahat və təhlükəsiz planlaşdırmağa imkan verir.

Müştəri məmnuniyyətinin təmin edilməsi üçün sərnişindaşımada rəqəmsal həllərdən də geniş istifadə edilib.

Əsas yeniliklərdən biri rayonlararası (şəhərlərarası) marşrutlar üzrə hərəkət edən sərnişin qatarlarına minik zamanı həm də elektron şəxsiyyət vəsiqəsinin göstərilməsinə imkan yaradılması olub.

Belə ki, hər bir vətəndaşın ”My.gov.az” portalından qeydiyyatdan keçməklə şəxsiyyətini təsdiq edən məlumatları QR kod şəklində əldə edərək səfər öncəsi qeydiyyatdan keçmək üçün vaqon bələdçisinin validatorunda (məlumatları yoxlama cihazı) oxutmağa təqdim etməsi kifayətdir.

Bundan əlavə, ötən ilin sentyabr ayında Bakı, Sabunçu, Sumqayıt, Gəncə, Qəbələ vağzallarında, Koroğlu, Bakıxanov, Pirşağı, Goran, Ağstafa stansiya və dayanacaqlarında pulsuz ”Wi-Fi” xidməti istifadəyə verilib.

Sərnişin rahatlığının tam təmin edilməsi məqsədilə rayonlararası marşrutlar - Bakı-Ağstafa-Bakı, Bakı-Qəbələ-Bakı və Bakı-Balakən-Bakı marşrutları ilə hərəkət edən qatarlarda da pulsuz ”W-Fi” xidməti aktiv edilib, yazışmalar və onlayn axtarış üçün rahat internet bağlantısı təqdim olunub.

2023-cü ildə istifadəyə verilmiş ”ADY Mobile” mobil tətbiqindən istifadə edənlərin sayı artıb, ötən il yüklənmə sayı 172 mini ötüb. 2024-cü ilin sentyabr ayından tətbiqinə başlanılan loyallıq proqramı şəhərətrafı qatarlarla səfər edən sərnişinlərə ”ADY Mobile” tətbiqi vasitəsilə daha sərfəli və rahat səyahət imkanları yaradıb. Belə ki, gedişlər üzrə 3 % ”cashback”, eləcə də qeydiyyat, dostun dəvət edilməsi, sorğularda iştirak və qiymətləndirmələr zamanı bonus qazanılması kimi bir sıra funksiyalar mobil tətbiqdən istifadəni populyarlaşdırıb.

Həmçinin 2024-cü il 1 noyabr tarixindən rayonlararası (şəhərlərarası) marşrutlar üzrə dinamik qiymət siyasətinə keçilib.

Artıq səfərə 30-25 gün qalmış və əks istiqamətdə oturacağa bilet almış sərnişinlər 15 % endirimdən yararlana bilirlər.

Müştəri məmnuniyyətinin ölçülməsi məqsədilə Abşeron dairəvi üzrə stansiyalarda QR kod sorğu stikerləri yerləşdirilib.

**Bilet kassalarında yeni nəsil pos-terminalların bilet satış sisteminə inteqrasiya prosesi testi aparılıb. Azərbaycan Dəmiryol Muzeyində bilet satış sisteminin və özünəxidmət köşkünün avtomatlaşdırılması işi yekunlaşaraq Abşeron dairəvi bilet satışı sisteminə inteqrasiya edilib.**

## *Metapnevmovirus insanlar üçün böyük təhlükə yaratmır*

**Son həftələrdə Çin və Malayziyada yayılan insan metapnevmovirusu (HMPV) insanlar üçün artan risk yaratmır.**

Adalet.az xəbər verir ki, bu barədə Cənubi Afrikanın Milli Yoluxucu Xəstəliklər İnstitutu (NIID) məlumat yayıb.

”HMPV tənəffüs virusunun geniş yayılma təhlükəsi ilə bağlı çaxnaşma üçün heç bir əsas yoxdur. Buna baxmayaraq, Cənubi Afrikanın tibb orqanları hazırda HMPV-yə yoluxmuş insanların ən çox olduğu Çin və Malayziyada yaranan epidemioloji vəziyyəti diqqətlə izləyirlər”, - deyə yerli radiostansiya EWN Cənubi Afrika alimlərinin sözlərindən sitat gətirib.

NIID-in bölmələrindən birinə rəhbərlik edən Şeril Koenun sözlərinə görə, tənəffüs xəstəliyinə səbəb olan viruslar Şimal yarımkürəsində qışda aktivləşən ən tipik mövsümi viruslar sırasındadır. dedi.

**”Məncə, qlobal bir pandemiyanın olacağından və ya HMPV-nin mutasiyaya uğrayaraq daha aqressivləşəcəyindən qorxmağa heç bir əsas yoxdur”, - o, qeyd edib.**



# BAYAT



№ 31 (891)



*Fəxrəddin Teyyub*

## *Şəkildəki oğlan*

İllər yavaş- yavaş ömrümü yeyir,
Şəkildəki oğlan, toyuna qurban.
Ruhumun gəncliyi, axşamın xeyir,
Çinar duruşuna, boyuna qurban.

Yaşımın yaşından axı fərqi var,
Mən ahıl, sən cavan, necə həm yaşıq?
Hanı başındakı gur , qara saçlar?
Hanı gözündəki o nur, o işıq?

Daş üstə yatmışam, nə yorğan, döşək,
Sönən ocaqların tüstüsü qalıb.
Şəkildəki oğlan, əl ver görüşək,
Görüm əllərinin istisi qalıb?

Uzaqmış əlini üzdüyün yerlər,
Dəyirmanın daşı yerindədimi?
Yadında qalıbmı gəzdiyin yerlər?
Görəsən yaddaşın yerindədimi?

Boranda, qarda da elə baharsan,
Quş olsam, dənərəm verin dən mənə.
Şəkildəki oğlan, nə yaxşı varsan,
Pay ver gözündəki ümiddən mənə.

## *Söz üstündə arıyam*

Mən hər kəsin üzünü ağ istədim,
Mənim qaya inadımı qırdılar.
Göy üzündə bir quş olmaq istədim,
Daş atdılar, qanadımı qırdılar.

Demə özüm öz baxtımı yazmışam,
Tanrı yazan yazıya yol gedirsən.
Gümanların cığırında azmışam,
Can vermişəm çıxanacan yola mən.

Şeir yazdım, havalıdır dedilər,
Sözüm ötdü, axışdılar dalımca.
Süfrə saldım, çörəyimi yedilər,
Sonra da ki, danışdılar dalımca.

Dərsin məni, görən kimin barıyam?
Yaxamı ki, çəkməmişəm qırağa.
Yaz gələndə söz üstündə arıyam,
Şirə çəkib aparıram varağa.

Hər gün nələr eşitmədi qulağım,
Ümid adlı köhlənimi çapınca.
Qurutdular su içdiyim bulağı,
Darıxmadım təzəsini tapınca.

## *Anaları qoruyaq*

Yuxuda gördüm ki, aləm qarışıb,
Deyirlər dünyanın anası ölüb.
Xeyir heydən düşüb, şərlə barışıb,
Daha yaşamağın mənası ölüb.

Çoxunun çörəyi daşından çıxır,
Acları görmür ki, hanı bu dünya?
Gördüm ki, tüstüsü başından çıxır,
Tonqala atıblar, yanır bu dünya.

Həsrət qara yel tək əsib dünyadan,
Məhəbbət olmasa nə qalar yerdə?
Deyirlər analar küsüb dünyadan,
Uçaq gətirməzlər dünyaya bir də.

Dünya yaman qalıb dəli əlində,
Gözü dağ axtarır, hamara baxmır.
Hər gün qan sovurur zəli əlində,
Qanı var, ya da yox, damara baxmır.

Ölürəm, yaranı sarımaq üçün,
Vallah, daş, qayadı sevgisiz ürək.
Deyirəm dünyanı qorumaq üçün,
Əzəl anaları qoruyaq gərək.

## *Mən quş deyiləm ki...*

Açmışam təzədən həsrətə qucaq,
Hicranla baş- başa qoymusan məni.
Mən elə bilirdim sönməz bu ocaq,
Mən elə bilirdim duymusan məni.

Pəncərən altında durdum bu gecə,
Gözlədim, işığın sönənə kimi.
Sən necə dəyişdin, ilahi, necə?!
Məni sevirdin ki, dünənə kimi.

Çəkib qoşununu üstümə kədər,
Cəhənnəm əzabı səni anmağım.
Niyə dərd verirsən mənə bu qədər,
Xoşuna gələcək havalanmağım?

Ələdin başıma qışın qarını,
Ağlıma gəlməzdi təklənəm bir də.
Qırdın ümidimin qanadlarını,
Mən quş deyiləm ki, tüklənəm bir də.

## *Elə bil bahardı solmayan şeir*

Söz oddu, alovdu, elin malıdı,
Üşüsən, isidər düşsə şaxta, qar.
Söz körpə kimidi, doğulmalıdı,
Hıqqana- hıqqana şeir yazmazlar.

Sızlaya, inləyə qəlbinin simi,
Sözündən könüllər coşmadısa, heç.
Söz gərək çağlaya şəlalə kimi,
Selə dönmədisə, daşmadısa, heç.

Elə bil bahardı solmayan şeir,
Misra ətir saçır, qafiyə təzə.
Görürsən ki, ruhu olmayan şeir,
Səni yola salır gedər gəlməzə.

Hər kəs gözləyir ki, onu öyəsən,
Gözləsə, gözünün kökü saralar.
Bilmirsən dərdini kimə deyəsən,
Tökub zəhləmizi cızma qaralar.

Gecələr Ay kimi parlayan şair,
Sənə tac yiyəsi mükafat verə.
Oxucu zövqünü korlayan şair,
Gərək oxucuya təzminat verə.

## *Sevgi*

Baharda bağ- bağçam bəhərə möhtac,
Verir nur payından əzgilə ümid.
Tumurcuq- tumurcuq böyüyür ağac,
Hər yaşıl yarpaqda bir gilə ümid.

Xurmam, mənəm sənə arxa, həyan da,
Alça yel əsəndə dağ sanır məni.
Bəzən tər gülləri sığallayanda,
Ömür- gün yoldaşım qısqanır məni.

Torpağın üzündən kədər oxunur,
Kaş bir az yağaydı qar vədəsində.
Başları əyilib, yerə toxunur,
Hamilə budaqlar bar vədəsində.

Hər qönçə, hər çiçək fikrimi çəkir,
Ləçəklər mehrimi duyur elə bil.
Gilənar gözünü gözümə dikir,
Bir xoş təbəssümdən doyur elə bil.

Ruhum səpələnə dağa, çəmənə,
Daş- kəsək, torpaq da bilə sevgimi.
İlahi, nə olar, çox görmə mənə,
Ağaca, çiçəyə, gülə sevgimi.

## *Uçmağa qanad ver*

Bu hansı vədənin sevgisidi ki,
Bəlkə unutmusan yaşımı, Allah!
Bələdin ruhumu gülə, çiçəyə,
Döndərdin bahara qışımı, Allah!

Qanadı qırılan yaralı quşam,,
Vüsal hələ uzaq, həsrətə tuşam.
Nə səhər bilirəm, nə də ki, axşam,
Nə yaman qatmısan başımı, Allah!

Səndən nə dilədim, dedin baş üstə,
Gəlir günüm, ayım, ilim yaş üstə.
Bitirdin dən kimi məni daş üstə,
Nə vaxt kəm vermisən naxşımı, Allah!

Hicran şimşək kimi başımda çaxsa,
Gümanım ağlayar, halıma baxsa.
Bu sevgi quş olub uçmayacaqsa,
Uçmağa qanad ver, yaxşımı, Allah!

## *Sən oralarda ol, mən buralarda*

*Əşrəf Veysəlliyə*

Mən necə göylərdən enim, deməzsən,
Üz gülmür, açılmır eynim, deməzsən.
Neyləyim deməzsən, neynim deməzsən,
Əlini mənə ver çətində, darda,
Sən oralarda ol, mən buralarda.

Neyləyək, bizimdi yaxşı da, pis də,
Arzular itməsin dumanda, sisdə.
Tanrı əlin qoyub çiynimiz üstə,
Qəlbimiz üşüməz boranda, qarda,
Sən oralarda ol, mən buralarda.

Əzəldən doğmayıq, məgər yadıq biz?
Sinəmiz söz dolu, ayrı dadıq biz.
Tamahı yaxına buraxmadıq biz,
Qalmadı gözümüz dövlətdə, varda,
Sən oralarda ol, mən buralarda.

Həsrətin qoxusu göz yaşındadı,
Hər kəsin sevdası öz başındadı.
Yerin üreyimin düz başındadı,
Çağırsan gələrəm, olsam da harda,
Sən oralarda ol, mən buralarda.

Qəlbində nisgilin bir gün itəcək,
Güman bitməsə də, ümid bitəcək.
Payızlar köçəcək, qışlar ötəcək,
Görüşərik gələn neçə baharda,
Sən oralarda ol, mən buralarda.

## *Gedirəm*

Yarpağı solmayan söz ağacıdı,
Həsrətdən su içən naz ağacıdı.
Dərd mənim gözümdə qoz ağacıdı,
Payızdan payıza çırpıb gedirəm.

Kədərli günlərim acıdı daha,,
Yaşım dost deyil ki, yağıdı daha.
Ömrümün daşlaşan çağıdı daha,
Qaya parçasıyam, qopub gedirəm.

Durum kökum üstə, düşməyim heydən,
Tökülsün ovcuma bərəkət göydən.
Bəzən quş oluram dimdiyimdə dən,
Süfrəmə ruzumu tapıb gedirəm.

Gedən, axı necə geri gələcək?
Axır ki, sözümün yeri gələcək.
Mən köçsəm, yerimə biri gələcək,
Bir həsrət ürəyə hopub gedirəm.

## *Məni*

Özümü tapınca üzülüb getdim,
Mən düzə qoşuldum, düzülüb getdim.
Müştəri gözündə süzülüb getdim,
Sata bilmədilər bazarda məni.

İşin tərs gətirsə, demək fayda var,
Bərəkət, bəxtinə düşən payda var.
Harda oyun varsa, orda qayda var.
Elə bir səhvim yox, qızarda məni.

Həsrəti bağrıma basıram elə,
Şəklini sinəmdən asıram elə.
Mən sevinc sarıdan qısıram elə,
Axtarın azarda, bezarda məni.

Kimə yox deyib ki, uşaq ürəyim?
Gah zəmi, gah da ki, başaq ürəyim.
Başıma bəladı yumşaq ürəyim,
Qorxuram incidə məzarda məni.

## *Məni sənə görə tanıyacaqlar*

Könlümün barıdı nəvə baxışı,
Qışda da gül açır çölüm, çəmənim.
Kəsilmir nəvəmin sual yağışı,
Yağır səhər- axşam üstümə mənim.

Oyanır hər səhər çağı mənimlə,
Oynamaq istəyir, gülmək istəyir.
Dolaşır bağçanı, bağı mənimlə,
Hər gülün adını bilmək istəyir.

Ata, darvazanı aç, deyir oğlum,
Bir boylan,qapına ağa, xan gəlir.
Kükrəyən selə bax, qaç deyir oğlum,
Üzdə hec nə qoyma, ev yıxan gəlir.

Hay- haray qoparır ağrısa dişi,
Bəzən dolmağı var, bulud kimidi.
Gəlişi bayramdı, ancaq gedişi,
Tufandan sonrakı sükut kimidi.

Sən Tanrının payı, sirli qalaçam,
Körpə ürəyində söz var, söhbət var.
Mənim ürəyimə damıb, balacam,
Məni sənə görə tanıyacaqlar.

## *Dünyanın dərdləri içimdən keçib*

Kimin gümanı var görən sabaha?
Bəndə yox, əcəldi kəsən kəndiri.
Çətin qönçə kimi açılam daha,
Mən yarı ölüyəm, yarı da diri.

Şükür ki, hələ də nəfəs alıram,
Nəfəs də ruzudu, seçimdən keçib.
Bəzən bir sevincə həsrət qalıram,
Dünyanın dərdləri içimdən keçib.

Vurulsan həyata, vurul könüldən,
Ürəyin sevgiylə çarpa, döyünə.
Özüm də bilmirəm bu yeni ildən,
Mənim umduğum nə, istədiyim nə?

Kim gözdən düşürsə, sözündən düşür,
Hörmətin itirir baş aparanda.
Bu dünya adamın gözündən düşür,
Ömrün ləzzətini yaş aparanda.

Yadlar heç, doğmalar ayrılıb gedir,
Kara gəlirəmsə, qanım qənimət.
Ömürlər vədəsiz qırılıb gedir,
Dəqiqəm qənimət, anım qənimət.

Ay axır su kimi, il də tələsir,
Gözləmir nə çəmən, nə də çöl məni.
Ömrümdən sərsəri küləklər əsir,
Səsləyir qürubа gedən yol məni.

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 1 (2424) 10 yanvar 2025-ci il

# ŞUŞAYA QAYIDIŞ BİZƏ İKİNCİ NƏFƏS VERDİ

**Elindən-obasından ayrı düşmək qədər çətin ikinci bir ağrı-acı, dərd, kədər yoxdur. Bunu ən çox qaçqınlıq və məcburi köçkünlük ömrü yaşayan insanlar bilirlər. O insanlar bilir ki, yurd yerindən, doğma ocaqdan məcburi ayrılmaq nə deməkdir. Heç çox adam bu ayrılığa, bu həsrətə dözməyib və ürəyib partlayıb. Xüsusən də yaşlı nəslə məxsus olan insanlar bu kədərli illərə və aylara tab gətirməyib və həyatla vidalaşıb.**

Yurddan ayrı düşən və 30 il Vətən həsrəti ilə alışıb yanan şuşalılar da belə bir kədərli ömür yaşayıblar. Dünyanın ən gözəl yeri olan Şuşadan onları ermənilər didərgin salmışdılar. Çünki erməni faşistləri tək Şuşanı deyil, bütün Qarabağı işğal etmək istəyirdilər və işğal da eləmişdilər. Düşünürdülər ki, bu işğal nəinki 30 il, yüz illərlə davam edəcək və həmin yerlər də ermənilərə qalacaq.

Onlar belə düşünürdülər, ancaq Azərbaycan xalqı isə işğal olunmuş ərazilərini azad etmək haqqında belə demək mümkünsə, bir gün sakit durmurdu. Ulu Öndər Heydər Əliyevin və prezident İlham Əliyevin hakimiyyəti dövründə torpaqlarımızın geri qaytarılması üçün beynəlxalq səviyyədə çox böyük işlər görüldü. Birləşmiş Millətlər Təşkilatanın 4 qətnaməsinin icra olunması üçün hər iki dövlət başçısı mötəbər kürsülərdən öz iradlarını bildirdi və bu qətnamənin tezliklə icra olunmasını tələb etdi. Amma yenə nə BMT-dən, nə də ATƏT-in üzvü olan və ermənilərə havadarlıq edən böyük ölkələrdən bir səs çıxmadı. Və axırda Azərbaycan xalqının səbr kasası doldu. Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz işğal olunmuş ərazilərimizi düşməndən azad etmək üçün əks hücuma keçdi. Cəmi 44 gündə həmin ərazilər və o cümlədən də noyabrın 8-də Şuşa şəhəri erməni işğalından azad edildi.



Azad olunmuş Şuşaya Azərbaycan bayrağı sancıldı və Prezident İlham Əliyev özü Şuşada oldu və bu bayrağı yenidən ucaltdı. Qısa zaman kəsiyində Şuşada dağıdılmış, viran qoyulmuş, yandırılmış sosial obyektlər, yaşayış binaları, Gövhər ağa məscidi və eləcə də digər yerlər əsaslı surətdə yenidən bərpa edildi və əhalinin istifadəsinə tam hazır səviyyəyə gətirildi. Artıq Şuşada demək olar ki, 2024-cü ilin əvvəlindən bütün infrastruktur yenidən qurulmuş, bir-birindən gözəl sosial obyektlər inşa edilmiş və yaşayış binaları tikilmişdir. Ölkə prezidenti də öz çıxışlarında dəfələrlə bəyan etmişdir ki, bütün məcburi köçkünlər kimi şuşalılar da tezliklə öz yaşayış yerlərinə qayıdacaqlar. Artıq 2024-cü ilin axırına yaxın Şuşaya yeni dönüş başlandı. Və bu ilk dönüşdə ölkə prezidenti İlham Əliyev də iştirak etdi. Yüzlərlə insan qədim və zəngin mədəniyyətə malik olan Şuşaya qayıtdı. Bu o deməkdir ki, artıq 30 illik həsrətə son qoyulmuşdur. Bu o demək idi ki, həsrətə, kədərə bir nöqtə qoyulmuş, yeni bir həyat başlamışdı.




Deməli, Şuşaya dönüş və Şuşaya qayıdış oranın sakinlərinə, başqa sözlə demiş olsaq, ikinci nəfəs vermişdi. Bu ikinci nəfəsi şuşalılar nə az, nə çox düz 30 il gözləmişdilər. Onların gözlədiyi gün gəldi və şuşalılar Bakıda məskunlaşdıqları yaşayış yerindən Şuşaya, doğma yurda qayıtdılar. Onlardan biri də yazıçı-publisist və uzun müddət ”Ədalət” qəzetində məsul vəzifədə çalışmış Kərim Kərimlidi. Kərim Kərimli deyir ki, bəlkə də mənim saçım ağarmazdı. Şuşanın ayrılığına, həsrətinə ürəyimlə yanaşı, saçlarım da dözmədi və mənim saçlarım ağappaq oldu. Amma bu da bir xoşbəxtlikdir. Çünki 30 il bu günü, bu dəqiqəni, bu anı gözləyirdik. Çox adam bu anı, bu dəqiqəni gözləyirdi. Əksəriyyətinə Şuşaya qayıtmaq nəsib olsa da, bəzi yaşlı insanlara bu sevinc, bu xoşbəxtlik nəsib olmadı. Amma bu sevinc, bu xoşbəxtlik onların övladlarına, nəvələrinə qismət oldu.

Elə şuşalılar vardı ki, heç Şuşaya qayıdış olmamışdan öncə oranı ziyarət etmişdi. Allaha and olsun ki, mən Şuşaya birinci dəfə ayağımı basanda dizimi yerə qoyub torpağı, daşı öpmüşəm, sonra da iməkləmişəm. Çünki bu mənim əhdim olub. Düzdür, bir dəfə Şuşa işğal olunanda jurnalist kimi bir çox xarici yazarlarla ora səfər etmişdim. Şuşadan, torpaq və su gətirmişdim. Həmin torpaqdan Aqil Abbasa da vermişdim. Amma onda bir neçə saat Şuşada olmuşdum və çox yerə də getməyə ermənilər icazə vermirdilər. Hətta torpağı götürməyə belə qoymurdular.

İndi isə biz doğma Şuşadayıq. Allah prezidentimizin canını sağ eləsin, hamı kimi mənə də burda təzə, təmirli ev verib. Ailəmlə, uşaqlarımla Şuşada yaşayıram və işləyirəm. Oğluma da 2024-cü ildə toy elədim. Bu toyu Xankəndində çaldırdım, amma onun səsi elə Şuşaya da yayıldı. Mənə görə dünyanın ən gözəl, ən möhtəşəm yeri Şuşadır. Şuşadan gözəl, Şuşadan yaraşıqlı ikinci bir şəhər tanımıram. Bundan sonrakı ömrümü Şuşada yaşayacam, işləyəcəm və xalqıma xidmət edəcəyəm.

**Şuşaya yeni köçmüş sakinlərdən biri olan Nəzirə Məmmədova da sevincini gizlədə bilmir. Deyir ki, qardaş, qaçqınlıq dövrü yaşayanda tez-tez Şuşa yuxuma girirdi. Tək mənim yuxuma yox ey, həyat yoldaşımın, övladlarımın yuxusundan çıxmırdı. Şuşadan bizi ermənilər qovanda 30 yaşım vardı, üç övladım da dünyaya gəlmişdi. Onları nə zülmlə odun-alovun içindən çıxartdıq, onu bir Allah bilir. Bizi o odun-alovun içindən Allah, bir də Azərbaycan əsgərləri xilas elədi. İndi öz evimizdə-eşiyimizdə çox rahat yaşayırıq. Tək mən yox, qonşularımız da yeni evdə özlərini çox rahat, xoşbəxt hiss edirlər. Hamımız da işləyirik. Bu xoş günə görə göydə Allaha, yerdə Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevə, bir də ordumuza, əsgərlərimizə minnətdaram. Şəhidlərimizin yeri cənnət olsun, qazilərimizə isə Allah şəfa versin. Bir daha Allaha şükür olsun ki, Şuşaya qayıda bilmişik və gözəl günlər yaşayırıq.**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

ƏNTİQƏ KƏRİMZADƏ



# ÜÇ ÖMÜR YAŞAYAN ADAM

*Həyatı dərk edən andan belə bir söz eşitmişəm: " İnsan anadan olanda alın yazısı ilə doğulur". Heç vaxt bu fikirlə razı olmamışam. Mənə elə gəlir ki, insan öz həyatında çox şeyi müsbətə və ya mənfiyə doğru dəyişə bilər. Yəni alın yazısı insanı idarə etmir. İnsan öz iradəsiylə qalib gəldiyi çox məqam olur, yalnız ölümdən başqa…*

*Bir insanın cənazəsi kifayət edir ki, biz necə yaşamağımız barədə özümüzü sorğu- sual edək. Bu məqamda insanın özünə verdiyi ilk sual bu olur: necə yaşamalıyıq ki, gözəl xatırlanaq? Necə olmalıyıq ki, xoş xatirələrlə anılaq? Deməli ki, hər insan cənazəsi bizə yaxşı insan olmaq mesajını ötürür. Bütün insanlar bunu anlayırmı? Əlbəttə ki, yox. Təəssüf ki, yox.*

*Nənəm həmişə deyərdi ki, insanın 100 yaşı olsa da can şirin şeydir. Ağrıyanda dözmək olmur. Ancaq nakam gedişlər həmişə məni daha çox sarsıdıb. Mənə elə gəlir ki, cavan yaşda dünyadan köçən insanların gözü yumulmur. Əlbəttə bu təxəyyüldür.*

*Düşünürəm ki, ölüm bəzən cismani, bəzən də ruhən olur. İnsanlar var ki, ölüm onların yalnız cismini aparır. Amma unutmayaq ki, ruhən ölən canlılar da az deyil. Var ikən yox olmaq daha çox ölümdür, nəinki cismən ölmək. Uşaqlıq illərimin ən gözəl aktyorlarından olan Azər Baxşəliyevin ölüm xəbərini eşitmək mənə yeni ilin kədər payı oldu. Zarafatlarıyla insanlar tərəfindən sevildi. Heç kəs ondan incimədi, daha doğrusu heç kəsin ondan inciməsinə imkan vermədi. Öz yerini bilirdi və heç kəsin də yerini tutmağa can atmırdı. İndi insanlar onu xoş xatırlayırlar.*



*Kədərlə anırlar. Necə ağırdır daim adını eşidən kimi güldüyümüz bir cavana ağlamaq. Ümumiyyətlə nakam gedişə ağlamaq insanı qəlbən yandırır. Azərin ölümü qəbuledilməz oldu. Hər kəs bir möcüzə gözlədi, amma olmadı. Neçə- neçə insanlar onun ölüm xəbərini paylaşmağa tələsdi. Ancaq çox dostları onun ölüm xəbərini yaya bilmirdilər. Vəfat edib sözünü yazmağa nə əlləri gəlirdi, nə də ürəkləri. Amma dünən təəssüf olsun ki, "orqan yaşam fəaliyyətini itirib" dedilər. Yenə də "vəfat edib" yaza bilməyən dostlar üçün çox ağır məqam idi.*

*Minlərlə insanın üzündə gülüş yaradan Azər bu dəfə də kədərləndirməyi seçdi. Ancaq bu kədər hissi əbədi oldu.*

*İfa etdiyi rolun adı "ağsaqqal" olsa da, onu bütün nəsil sevdi. O, 39 illik ömründə uşaqlıq, gənclik və qocalıq çağını yaşadı. Bu az ömrə 3 fəsil yerləşdirdi. Necə kədərli və ağır hisdir onun haqqında keçmiş zamanda danışmaq…*

*Zarafatlarla sevilən aktyor həm də əzmli və inadkar idi. Mübarizəni sevərdi. Bu zalım xəstəlik onu yaxalayanda da xəstəliyə asanlıqla yenilmədi. Çox mübarizə apardı. Bu mübarizədəki ən kiçik irəliləyişinə tamaşaçı da Azər qədər sevinirdi. Ancaq sonda nə Azər qalib gəldi, nə də tamaşaçı axıra qədər sevindi.*

*İnsanlar onu "ağsaqqal" kimi sevdilər, ona "ağsaqqal" kimi güldülər. Ancaq son olaraq hər kəs onun cavan yaşda nakam gedişi üçün ağladı.*

## Yaxın günlərdə qardaş Türkiyədən bir qrup rəssam Bakıya gələcək




**UASB (Uluslararası Aktivist Sanatçılar Birliyi) Azərbaycan təmsilçisi, rəssam Nəvai Metinnin verdiyi məlumata görə 2025-ci il 21-25 yanvar tarixlərində Türkiyədən və Azərbaycandan olan bir qrup rəssamların birgə plener-simposiumu keçiriləcək.**

Belə ki, rəssamlar qrup şəklində rəsmlər çəkəcək, şəhərimizin görməli, tarixi yerlərini gəzəcəklər. İçəri Şəhər, inkişafda olan Sumqayıt şəhəri, Atəşgah və başqa yerlərə səfərlər nəzərdə tutulub. UASB nin təşkilatçılığı ilə baş tutacaq tədbir 25 yanvar tarixində yeni çapdan çıxmış "ÇAĞDAŞ DÜNYA RƏSSAMLARI" adlı kataloq- kitabın təqdimatı ilə başa çatacaq.

# Ekoturizm paytaxtı 2025: Ərzurum qış macəralarına hazırlaşır

**Türkiyənin aparıcı xizək mərkəzlərindən biri olan Ərzurum, bu il qış həvəskarlarını iki möhtəşəm titul ilə qarşılayır: İqtisadi Əməkdaşlıq Təşkilatının "Turizm Paytaxtı" və Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası tərəfindən verilən ilk "Avropa Qış İdmanları Paytaxtı". Qış idmanlarını həyəcanını fasiləsiz yaşamağa imkan verən Palandöken Xizək Mərkəzi, bu mövsüm Qış Oyunları və Dünya Snoubord Kuboku kimi bir çox mötəbər tədbirlərə ev sahibliyi edəcək.**

Təcrübəli idmançılar Palandökenin müasir idman obyektlərində müxtəlif adrenalin dolu yarışlara qatılarkən, macəra həvəskarları zərif qarla örtülmüş yamaclarda və heyranedici dağ mənzərələri fonunda maraqlı çıxışlarından zövq alacaqlar.

Eyni zamanda, Ərzurum şəhəri rəngarəng konsertlər, cəlbedici sərgilər və dadlı qastronomiya festivalları ilə canlanacaq. Bu tədbirlər şəhərin zəngin mədəni irsini ziyarətçilərə çoxşaxəli şəkildə təqdim edəcək.

### Start Xətti: Qış oyunları

Palandökenin tədbir təqvimindəki ilk beynəlxalq tədbir Qış Oyunları olacaq. 6-12 yanvar tarixlərində keçiriləcək bu oyunlar təxminən 350 idmançının iştirak edəcəyi xizək və snoubord kimi 11 idman növündə yarışlarla qış idmanlarının həyəcanını Palandökenə gətirəcək. İştirakçılar arasında EKO üzv ölkələri də yer alacaq. Qış Oyunları Palandökendə keçiriləcək ilk EKO tədbiridir. Yarışlar canlı izləmək istəyən hər kəs üçün açıq olacaq.

### Dünya Snoubord Kuboku həyəcanı

Bu il Palandöken Xizək Mərkəzində keçiriləcək digər diqqətçəkən tədbir Dünya Snoubord Kuboku (SBX) olacaq. FIS (Beynəlxalq Xizək və Snoubord Federasiyası) tərəfindən ilk dəfə 2018-ci ildə Türkiyədə təşkil edilən bu tədbir, 1-3 mart tarixlərində yenidən Palandökenə qayıdır. Sürət hədlərini aşan idmançıların iştirakı ilə dolu üç unudulmaz gün macəra həvəskarlarını gözləyir.

Tədbirə gəlmək imkanı olmayan adrenalin sevərlər üçün isə eksklüziv yarışlar həm milli, həm də beynəlxalq kanallarda yayımlanacaq.

### Adrenalin dolu tədbirlər

Palandökendə keçiriləcək tədbirlər arasında Buz Dırmanışı Türkiyə Çempionatı, Qar Voleybolu Dünya Turu və Qar Enmə Yarışı da yer alır. Türk Dağçılıq Federasiyasının təşkil etdiyi Buz Dırmanışı Türkiyə Çempionatı 7-10 fevral tarixlərində Palandöken Xizək Mərkəzində baş tutacaq. Türkiyədəki ilk və yeganə süni buz parkı, xüsusilə buz dırmanışına maraq göstərən adrenalin həvəskarları arasında məşhurdur və məhz



Palandökendə yerləşir. Mərkəzin cənub yamacında inşa edilən 20-25 metr hündürlüyündəki buz divar, unikal quruluşu ilə iddialı buz dırmanışçılarına möhtəşəm bir sınaq təqdim edəcək.

Qar Voleybolu Dünya Turu bu il 13-16 mart tarixlərində Palandöken Xizək Mərkəzində keçiriləcək. Qarla örtülmüş meydançalarda voleybolçular təsnifat oyunlarında mübarizə aparacaqlar.

Bundan əlavə, Qar Enmə Yarışında peşəkarlar kütləvi dağ velosipedi yarışında Palandökendə güclərini sınayacaqlar. Eyni anda qarla örtülmüş xizək yamaclarından enən velosipedçilər möhtəşəm bir mənzərə yaradacaq.

### Ərzurum: Şərqi Türkiyədə tarix təbiətlə qovuşur

**Palandökendəki xizək macəranızdan sonra tətilinizi uzadaraq Anadolunun ən qədim şəhərlərindən biri olan Ərzurumu kəşf edə bilərsiniz. Təbiət və tarixin unikal birləşməsini təqdim edən bu gözəl şəhər, Tortum Şəlaləsi, Narman Peri Bacaları və İspirin Yeddi Gölü kimi müxtəlif təbii möcüzələrə ev sahibliyi edir. Şəhərin panoramik mənzərələrindən həzz almaq üçün Aziziye və Mecidiye bürclərini ziyarət edə bilərsiniz. Bundan başqa, İpək Yolu üzərində yerləşmiş Ərzurum, Ulu Məscid, Çift Minarəli Mədrəsə, Yakutiye Mədrəsəsi və Üç Kumbetlər kimi tarixi məkanlara ev sahibliyi edir. Bu təbii və tarixi zənginliklərdən sonra, unikal şəkildə marinadlanan və şişdə təqdim olunan cağ kababı və kadayıf dolması deserti kimi regional ləzzətlər sizi gözləyir. Palandöken Xizək Mərkəzindəki qış idman tədbirlərinə əlavə olaraq, bu il Ərzurumda Qastronomiya Festivalı, Serial Festivalı, Beynəlxalq Velosiped Turu, Yay Oyunları və Mədəniyyət Yolu Festivalları da keçiriləcək.**

# Almaniyada yaşayan azərbaycanlı yazıçının əsəri çap olunub




**Almaniyada yaşayan azərbaycanlı yazıçı Əzimə Ağalarovanın yeni əsəri çap olunub. Əsər "Bir qadının anatomiyası" adlanır. Bu, yazıçının sayca səkkizinci kitabıdır. Müəllifin bütün əsərlərində olduğu kimi bu əsərində də insan faktoru önə çəkilir. Bütün çətinliklər və maneələrə rəğmən humanizmin mövcudluğu, güclü qadının yaşadığı keçilməz çətinliklər əsərdə olduqca aydın şəkildə yer alıb.**

Ədib əsərlərində daha çox bellestrika janrına müraciət edib.

Müəllifin bundan əvvəl "Gecələrdə gizli qaldım", "Bakıdan Qahirəyə və Stokholma uzanan yol", "Təyyarə qanadında uçan ruh", "Tükənmiş xəyalların izində", "Ağlayan Divar"," Bir qadının anatomiyası". Bakıdan Qahirəyə və Stokholma uzanan yol romanı İsveçdə 2016-cı ildə ingilis dilində, 2019-cu ildə İsveç dilində dərc olunub. "Tükənmiş xəyalların izində", "Ağlayan Divar" əsəri isə Türkiyədə işıq üzü görüb.

Qeyd edək ki, yazıçı əsərlərini yazmaq üçün həmin əsərlərdə adı keçən bütün ölkələri gəzib, görərək, hiss edərək yazıb. Səyahət etdiyi ölkələrin qayda-qanunları və mədəniyyəti ilə yaxından tanış olub. O, dünyanın 45 ölkəsinə səyahət edib. Beş dil bilir. Əsərləri dörd dildə üç ölkədə çap olunub.

ƏNTİQƏ KƏRİMZADƏ

## İngiltərə klubunda yeni baş məşqçi

**"Vest Hem Yunayted" klubuna baş məşqçi təyin edilib.**

QOL.az xəbər verir ki, bu barədə İngiltərə təmsilçinin yaydığı məlumatda bildirilib. İngilis mütəxəssis Qrem Potter klubun baş məşqçisi vəzifəsinə gətirilib. 49 yaşlı mütəxəssis "Vest Hem"lə 2,5 illik müqavilə imzalayıb. O, yeni komandası ilə ilk matçına İngiltərə kubokunun üçüncü mərhələsində "Aston Villa" ilə görüşdə çıxacaq.

Aqil Abbas Milli Qəhrəman Allahverdi Bağırovun bacısı

**ALMAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun əzizlərinə və Allahverdisevərlərə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi: **Aqil ABBAS**
Baş redaktor: **İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 212
Çapa imzalanmışdır: 09.01.2025